HAVVA MƏMMƏDOVA

# XOCALI:

# ŞƏHİDLƏR, ŞAHİDLƏR

Bakı – 2003

Kitab Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubovun tövsüyyəsi ilə hazırlanmışdır.

Kitabda Milli Təhlükəsizlik Nazirliyinin Əsir, itgin və girov düşmüş vətəndaşlarla iş üzrə Dövlət Komitəsinin, Xocalı rayon İcra Hakimiyyətinin təqdim etdiyi materiallardan istifadə olunmuşdur.

İstifadə edilmiş şəkillər Azərbaycan Dövlət Teleqraf Agentiliyinin (AzərTAc) foto arxivindən və Xocalı sakinlərinin şəxsi albomundandır.

Kitabın üz hissəsində rəssam Həbib Yadulla oğlu Bağırovun yağlı boya ilə işlədiyi "Xocalı" rəsminin (1.5x1.0), arxa hissəsində isə Xocalı faciəsinin xatirəsinə Bakı şəhərində ucaldılmış "Vətən harayı" abidəsinin foto şəkilləri verimişdir.

L 4306020300-24
080-01

© Havva Məmmədova, 2003
© Rəsm, Həbib Bağırov, 2003

© XXI-YNE, 2001.

**"Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdi ki, bir tərəfdən bu, hər bir Xocalı sakinin öztorpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. Ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür."**

**Heydər Əliyev**

## MÜƏLLİFDƏN

Xocalı. Bu qədim Azərbaycan yaşayış məskəninin adı 1992-ci ildə bütün dünyaya yayıldı və burada baş vermiş faciə bəşər tarixinin ən qanlı hadisələrindən biri kimi yadda qaldı.

Xocalı faciəsi adı ilə tanınan müdhiş bu hadisə düz on bir ildir ki, dünyanı dolaşıb gəzir, ürəkləri kövrəldir, ruhları sarsıldır. On bir il bundan əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə erməni silahlı dəstələri Xocalı şəhərini yandırıb yerlə yeksan etdilər. Yüzlərlə dinc əhali - qocalar, qadınlar, gənclər və uşaqlar vəhşicəsinə qətlə yetirildilər, işgəncələrə məruz qaldılar, yaralandılar və girov götürüldülər.

Bu hadisə XX əsrdə ermənilər tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü soyqırım və islaq siyasətinin növbəti təzahürü oldu. Xüsusi qeyd olunmalıdır ki, Xocalı ermənilərin gülləsinə birinci dəfə deyildi tuş gəlirdi. Azərbaycanın bu qədim yaşayış məskəni XX əsrdə ermənilər tərəfindən üç dəfə dağıdılmış, xarabalığa çevrilmişdi. Ancaq təəssüflər olsun ki, bu barədə nə bizim, nə də geniş kütlələrin xəbəri vardı. Bəlkə də elə bu səbəbdən əsrin əvvəllərində Qarabağda baş verən faciələrin əsrin sonunda bir daha təkrar olunması mümkün olmuşdur.

Məhz bu baxımdan Xocalı soyqırımı Azərbaycan və dünya tarixçilərinin tədqiqatlarında geniş yer tapması və XX əsrin Xatın, Babiyar, Sonqimi kimi soyqırımları sırasında duran Xocalı soyqırımı haqqında həqiqətlərin ictimaiyyətə çatdırılması son dərəcə vacibdir.

Son illərdə alimlərimiz, yazıçı və jurnalistlərimiz Qarabağ, onun ayırılmaz hissəsi olan Xocalı, bu məskənin faciəsi və erməni tərəfindən törədilmiş hadisələrin şahidləri haqqında elmi, publisistik, bədii əsərlər yazmışlar. Bu sahədə Z.Sultanov, N.Yaqubov, A.Xocalı, Ə.Quluzadə. S.Müslümqızı, Q.Qırqızlı və digərlərinin xidmətlərini qeyd etmək olar.

Mən də Qarabağ tarixinin elmi tədqiqatı ilə məşğul olub, Xocalı faciəsi barədə bir sıra məqalələr yazmışam. Lakin Avropaya səfəri zamanı rastlaşdığım hadisə bu işə daha ciddi səy göstərməyə, qələmi bir daha ələ almağa sövq etdi.

2002-ci ilin mayında Hollandiyaya səfərimin əsas məqsədi Avropada yaşayan soydaşlarımızla görüşüb Qarabağda baş verənlər, Xocali soyqırımı barəsində həqiqətləri dünyaya çatdirmaq idi.

Bu vaxtadək Avropada çıxan jurnallarda Qarabağ, Xocalı soyqırımı haqında silsilə yazılarım getmişdi, indi isə bu işi canlı təmasda görmək imkanı yaranmışdı. Görüşdüyüm hər bir kəsə Dağlıq Qarabağ münaqişəsi, xüsusilə də Xocalı faciəsi barədə məlumatlar yayır və onların bu hadisələrə münasibətləri ilə maraqlanırdım.

Avropada nəşr olunan "Dəyirman" jurnalının redaktoru Cəlil Gündoğdu və Hollandiya Milli Məclisində çalışan Fatma xanım Aktaş bu işdə xüsusi köməklik göstərdilər, Mən Hollandiya Milli Məclisində insan haqqları daimi komissiyasının və Cənubi Qafqaz üzrə seçilmiş millət vəkillərinin katibləri ilə görüşdüm. Onların mənə ilk sözü bu oldu ki, siz Qarabağla bağlı məsələlərlə "Azərbaycandan gələn ilk qadın nümayəndəsisiniz. Halbuki, Hollandiya Milli Məclisinin kabinetlərinə şikayət etmək üçün hər dəfə 7-8 erməni qadını gəlir. Fürsət tapıb sual verdim:

- Bəs onlar nədən şikayət edirlər?

- Onlar söyləyirlər ki, Azərbaycan ermənilərə məxsus olan Qarabağı işğal etmişdir, Azərbaycan işğalçi dövlətdir, Xocalıda qırğına məruz qalanlar ermənilərdir. İndi biz evimizdən-eşiyimizdən didərgin düşən erməni qadınları Azərbaycanı təcavüzkar kimi tanımağa çağırırır. Ermənistan blokada vəziyyətindədir. Ermənistan aclıq çəkir, ona görə də bizə maddi və mənəvi yardim lazımdır və sair, və ilaxir...

Tarixi mənbələrlə işləyən zaman erməni yalanları, erməni tarixçilərinin tarixləri barədə mifik uydurmaları və tarixçiləri haqqında məlumatım var idi. Ancaq bilavasitə eşitdiklərim bir daha əyani göstərdi ki, riyakar erməni təbliğatı bıı gün də davam edir. Özünü dünyaya yazıq, əzilən, genosid qurbanı kimi tanıtdırmağa çalışan birxalqın əslində öz qonşularına qarşı daim ərazi iddiaları irəli sürməsi, təxribatlar aparması, xüsusən də Azərbaycana qarşı törətdiyi cinayətlər barədə, təəssüfki, çoxlarının məlumatı yoxdur və ya səhvdir.

Nə qədər ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağ yağı düşmənin işğalı altındadır, nə qədər ki, ölkəmizin bu dilbər guşəsi azad edilməyibdir, insanlar obalarına-evlərinə qayıtmayıblar, hər birimiz imkan daxilində və mümkün olan vasitələrlə erməni təcavüzü, onun ağır nəticələri barəsində məlumatları geniş kütlələrə, beynəlxalq ictimaiyyətə yaymalıyıq, haqqın, ədalətin bərqərar olunmasına çalışmalıyıq.\

Bu bizim bu gün işğal olunmuş və dağıdılmış şəhərlər, qəsəbələr və kəndlər, yerlə-yeksan edilmiş tarixi və mədəni abidələrimiz, yağı tapdağı altında qalmış dədə-baba məzarımız və onları bu torpaqları dolaşan ruhları, şəhid olmuş ata-oğul, bacı-qardaş, övladlarımızın xatirəsi, ən nəhayət, vicdanımız qarşısında müqəddəs borcumuzdur.

Mən inanıram ki, Xocalı soyqırımının günahkarları, cinayətkarları beynəlxalq məhkəməyə cəlb edilərək layiqli cəzaları alacaqlar. Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqqında topladığımız hər bir sənəd, hər bir yazı və bu hadisələrin canlı şahidlərinin xatirələri ittihama çevrilərək bu günü daha da yaxınlaşdırır.

Mən əminəm ki, Vətənimizin ərazi bütövlüyü bərpa olunacaq, yenə də Qarabağda Xanın şikəstəsi eşidiləcək, Cıdır düzündə el şənliklərimiz keçiriləcəkdir!!!

Havva Məmmədova,
may-dekabr, 2002

## XOCALI TARİXİ

Dünyanın ən qədim yaşayış məskənlərindən biri Azərbaycan torpağıdır. Fəxrlə bildirmək olar ki, ilk insan məskənlərindən biri – Azıx mağarası və bəşəriyyətin yaratdığı maddi-mədəniyyət abidələrinin məskənlərindən biri – Xocalı məhz bizim yurdumuzdadır.

Azərbaycan tarixində, onun maddi-mədəniyyət abidələrinin ən geniş toplandığı, təbii muzeylərdən biri Dağlıq Qarabağın Xocalı ərazisindədir. Tarixi-ədəbiyyatda Xocalı Gədəbəy, yaxud da Gəncə-Qarabağ mədəniyyəti kimi qeyd olunan bu mədəniyyət bizim ilk babalarımızın, azərbaycanlıların yaratdığı və bu günə kimi qorayub saxladığı mədəni irsin yadigarıdır.

Xocalı haqqında, onun qədim tarixi, arxeloji, maddi-mədəni abidələr barəsində dünyanın bir çox alimləri, o cümlədən Azərbaycan alimləri tədqiqatlar aparmışdır. Xocalı abidələri haqqında elmi ədəbiyyatda ilk məlumatı XIX əsrin 80-illərində Rusiya Coğrafıya cəmiyyətinin üzvü C.Veyssenqraf vermişdir.

Ötən əsrdə tədqiqatçılardan İ.Nərimanov, C.Xəlilov, İ.Meşşanikov, B.Pyotrovskiy, Q.Kuşnaryev, Q.Aslanov, R.Vahidov, N.Minxeviç, Mustafayev, R.Göyüşov, H.Cəfərov və s. tərəfindən aparılmış arxeoloji qazıntılar Xocalının qədim tarixi və maddi-mədəniyyəti haqqında ətraflı məlumat verir.

Xocalı Xankəndi şəhərindən 14 km şimal-şərqdə Qarabağ silsiləsində yerləşir. Burada e.ə. XIII-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyətinin ilk abidələri tapılmışdır. Bu vaxta kimi Xocalı ərazisində son Tunc və ilk Dəmir dövrlərinə (e.ə. XIII-VII əsrlər) aid çoxlu mədəniyyət abidələri aşkar edilmişdir. Bu abidələr daş qutu və kurqanlardan ibarətdir. Tədqiqatlar dövründə biri-digərlərini əvəz edən beş tip kurqanlar müəyyənləşdirilmişdir. Burada eyni zamanda müxtəlif tipli saxsı qablar, silahlar (qılınc,

xəncər, nizə və ox ucluğu, balta-məbərzin), qızıl, tunc, balıqqulağı, şüşə, pasta və s. hazırlanan bəzək əşyaları, tunc əmək alətləri aşkar edilmişdir. Xocalıda 11 saylı kurqandan tapılmış əqiq muncuğun üstündə Assuriya çan Adadnirariya aid mixi yazısı, o cümlədən şirli saxsı qablar, pasta və şüşə muncuqlar, qızıl bəzək əşyaları, silindrik möhür və s. yerli əhalinin Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini göstərir.

Xocalı-Gədəbəy mədəniyyət abidələri yaşayış yerləri, emalatxanalar, qəbirlər, ibadətgahlardan ibarətdir. Rəşid Göyüşov "Xocalı qədim dünyanın mədəni mərkəzi" adlı əsərində yazır:" Xocalı öz abidələrinin növləri, onların xarakterik xüsusiyyətləri və maddi-mədəniyyət qalıqlarının zənginliyi etibarilə hələ keçən əsrdən dünya alimlərinin diqqətini cəlb etmişdir. Bu abidələrlə alman arxeoloqu E. Resle, rus şərqşünası M.Xamkov, ingilis F. Bayer, fransız A.Berne və başqaları tanış olmuşlar. Eramızdan əvvəl XVII-XIII əsrlər bəlkə də daha uzaq dövrləri əhatə edən Xocalı abidələri kompleks yaşayış yerlərindən, daş kurqan qəbirləri, müxtəlif tipli kurqanlardan, siklon tikililər, kromlexlərdən və menhirlərdən ibarətdir. Arxeloji qazıntılar nəticəsində müəyyən edilmişdi ki, çox vaxt tayfa evləri uzunsov olub, üçbuçaqlı formada inşa edilmişdir. Bəzən uzunluğu 17-18 metr, eni ise 8-10 metr olan bu cür evlər xüsusi arakəsmələr vasitəsi ilə bir neçə hissəyə bölünürdü. Tunc dövrünün sonu və dəmir dövrünün əvəllərində, yəni e.ə. 2 minilliyin sonunda artıq bu cür evlərin döşəmə və divarları xüsusi ağ maddələrlə suvanır və böyük ailə evləri ilə əvəz olunurdu. Danışdığımız dövrdə möhrədən hörülmüş evlərə və formaca dairəvi olan yarımqazma evlərə də təsadüf edilmişdi. Bütün bunlar primitiv şəkildə olsa da, yerli əhalinin müxtəlif tikinti texnikasına malik olmasını əyani subut edir.

Xocalı ərazisində siklon tipli tikililərə rast gəlinir. Bəzi alimlər həmin siklon tipli tikintilərin tikilməsini daim yaşayış yeri və ya böyük ticarət yolları üzərində müdafiə məntəqələri, bəziləri siklonların böyük bir qismini müqəddəs yer olub, ibadətgah məqsədilə bina edildiyini, bəziləri bağ-bostan yeri olduğunu, daha başqaları bu tikililəri köçərilərin mal-qara saxlamaq üçün tikdiklərini söyləyirlər. Lakin son tədqiqatların nəticələrindən aydın olurdu ki, bütün kiçik Qafqaz dağlarının köç yolları kənarında inşa edilmiş siklon tikililərin hamısı eyni məqsəd güdməmiş və başlıca olaraq üç məqsəd üçün bina edilmişlər: 1) iri ticarət yolları üzərində bu yolları müdafiə etmək; 2) düşmən hücumları zamanı əhalini müvəqqəti mühafizə etmək; 3) müqəddəs yerləri əbədiləşdirmək. Onların bir çoxu sonralar yaşayış məskəni kimi və yaxud da köçərilərin öz mal-qarasını saxlamaq üçün istifadə edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti sakinlərinin həyat tərzi və mədəni inkişaf səviyyəsini öyrənmək üçün həmin mədəniyyətə məxsus qəbir abidələri və qəbirlərindən tapılmış maddi mədəniyyət qalıqlan böyük əhəmiyyət kəsb edir. Aparılmış arxeoloji tədqiqatlardan məlum olmuşdu ki, burada bir neçə tip qəbir abidələri olmuşdu ki, onların lap böyük bir qrupunu kurqan təşkil edir. Həmin kurqanlar müxtəlif quruluşlu, müxtəlif tərkibli hündür təpələrdən ibarət olub, torpaqdan, daşdan və çox vaxt daş və torpağın qarışığından tökülmüşdür.

Kurqanların özləri müxtəlif olduğu kimi, onların altındakı qəbirlər də müxtəlifdir. Ölünü dəfn etmək üçün bəzən kurqanın altında ev tikilmiş, dairəvi hasar çəkilmiş, bəzən isə daş qutular düzəldilmişdir. Xocalı kurqanlarında aparılmış qazıntılar nəticəsində müəyyən edilmişdir ki, 3-4 min il bundan əvvəl bu ərazidə iki cür dəfn adəti olmuşdur. Onlardan biri ölünü olduğu kimi dəfn etmək, digəri isə ölünü yandıraraq dəfn etmək. Hər iki halda kurqanlar həm ailəvi, həm də tək-tək şəxslərə məxsus düzəldilmişdir. Ailəvi kurqanlarda bəzən 50-dən çox skelet aşkara çıxarılmışdır.

Ölüyandırma hadisəsi Qarabağda uzun ömür sürməmişdir və alimlərin ehtimalına görə bu adət qalıqları indi də dünyanın bir çox xalqları arasında mövcud olan müqəddəs od ayini ilə əlaqədar idi. Buradan belə bir nəticəyə gəlmək olar ki, hər iki dəfn mərasimi göstərir ki, həmin qəbirlərdə dəfn olunan adamları axirən dünyasına var-dövlətlə yola salırmışlar. Aparılan arxeoloji qazıntılar göstərir ki, Qarabağ sakinlərində də belə bir adət olmuş və onlar hesab edirdilər ki, guya ölənlər ölmür, sadəcə olaraq dünyasını dəyişirlər. Müvvəqəti olaraq bu dünyanı tərk edib, əbədi axirət dünyasına gedirlər. Ona görə də ölən adamı yola salmaq üçün onun yanına mal-qara, ev avadanlığı, bəzək şeyləri, şəxsi geyim, silah və başqa qiymətli əşyalar qoyulurdu. Hətta bəzən ölən adamın əzizlərindən birini də

öldürüb onun yanmda dəfn edirdilər. Sinfı təbəqələşmə dövründə isə qəbilə başçısı öldükdə onun xidmətçilərindən bir-ikisini ölən adamla dəfn edirdilər ki, axirət dünyasında ona xidmət etsin. Beləliklə Xocalıda aparılmış arxeoloji qazıntı və kurqanlar haqqında olan məlumatlarımızı ümumiləşdirib belə bir nəticəyə gəlmək olar ki, bütün bunların hamısı bir daha bu yerin qədimliyi haqqında tam və dolğun məlumat verir.

Xocalı mədəniyyət abidələrini və müxtəlif tikililəri öyrənən, tədqiq edən alimlər bu qənaətə gəlmişlər ki, Xocalı mədəniyyəti, burada yaşayan insanların həyat tərzi yaxın-uzaq ölkələrlə, ən əvvəl şərq ölkələri və onların mədəni tərəqqisi ilə çox sıx əlaqədə olmuşdur. Bu əlaqələr isə bütün dövrlərdə qarşılıqlı olmuşdur.

## ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI TARİXİNDƏN

XX əsrin əvvəlində Zaqafqaziyada üç müstəqil respublika – Azərbaycan, Ermənistan və Gürcüstan yaradıldıqdan sonra Ermənistan öz sərhədlərinin genişləndirilməsinə, qonşulara qarşı ərazi iddialarına başladı. Ermənilər Azərbaycan və Gürcüstan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq məqsədilə həm Azərbaycana, həm də Gürcüstana qarşı müharibəyə başladılar. Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları tarixinə nəzər salarkən görürük ki, ermənilər hələ bir neçə əsr bundan əvvəl irəli sürdükləri "Böyük Ermənistan" ideyası naminə qonşu xalqlara daim təcavüz etmişs hüquqlarını tapdalamış, hətta onları məhv etmək yolu ilə öz daşnak ideyalarını həyata keçirməyə çalışmış və öz planlarını ardıcıl olaraq addım-addım həyata keçirmişlər.

1918-ci ildə bəyan edilmiş Ermənistan Respublikası 9 min kv.km əraziyə malik olaraq Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı (sonradan İrəvan quberniyası) ərazisində yaradılmışdı. Sonradan qonşulardan, əsasən də Azərbaycandan müxtəlif yollarla qopardılan torpaqların hesabına ərazisi böyüyərək 29 min kv.km-ə çatmışdır. Bu günkü Dağlıq Qarabağ münaqişəsi də ermənilərin "Böyük Ermənistan" yaratmaq uğrunda planlarının tərkib hissəsi və növbəti hədəfidir. 1988-ci ildən başlanmış bu münaqişə aşkar şəkildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasıdır, ancaq ona müxtəlif vasitələrlə cürbəcür don geyindirməyə çalışır, müəyyən əsaslar gətirməyə səy göstərirlər.

Bu münaqişə nəticəsində Azərbaycanın ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ona bitişik 7 rayon Ermənistan tərəfindən işğal edilmiş və bu gün də işğal altında qalmaqdadır. Azğınlaşmış ermənilər beynəlxalq hüquq normalarına məhəl qoymur, Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsi zamanı işğal olunmuş ərazilərin dərhal azad edilməsi barədə qətnamələrinə riayət etməməkdə davam edirlər.

Ermənilər illərdən bəri davam edən bu zəbtkar hərəkətlərinə bəraət qazandırmaq üçün müxtəlif kitablarda, tarixi araşdırmalarda, çap olunan məqalələrdə daim Qarabağın tarixini, etnoqrafiyasını, mədəniyyət tarixini, yerli azərbaycanlıların yerli əhali olması faktını saxtalaşdırılmış şəkildə təqdim edirlər.

Qeyd etmək lazımdır ki, Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Azərbaycan Alban dövlətinin tərkibinə daxil olmuşdur. Sonra bütün Azərbaycanla birlikdə Ərəb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldənizlər, XIII əsrin ikinci yarısından XVI əsrə qədər Hülakilər (Elxanilər) dövlətlərinin tərkibinə daxil olmuşdur.

XVII əsrin sonundan, XVIII əsrin ortalarınadək Azərbaycan feodal dövlətlərə–xanlıqlara parçalanması zamanı Qarabağ bəylərbəyliyi ərazisində Qarabağ və Gəncə xanlıqları

yaranmışdır. XVIII əsrin ortalarından XX əsirin əvvəllərinədək Qarabağ ərazisində çox güclü Azərbaycan Qarabağ xanlığı mövcud olmuşdur.

Qarabağın tarixi sənədləri haqqında müxtəlif mənbələrdə dəqiq aydın məlumatlar verilmişdir. Bunların içərisində ən dolğun məlumatı Qarabağ səlnaməçisi Mirzə Camal Qarabaği vermişdir.

Mirzə Camal Qarabaği "Qarabağ tarixi" adlı əsərini "Qarabağ vilayətinin əsl yaşayış yerləri, qədim şəhər və çayları haqqında" adlanan birinci fəslində yazır: "Qədim tarix kitablarının yazdıqlarına görə, Qarabağ vilayətinin sərhədi belədir: Cənub tərəfdən "Xudafərin" körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. (Sınıq körpü Qazax, Şəmsəddin və Dəmirçi Həsənli camaatı arasındadır və Rusiya dövlətləri məmurları onu rus istilahı ilə Krasnı most, yəni qızıl körpü adlandırırlar) bir tərəfdən Kür çayıdır ki, Cavad kənddə Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür, Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə) sərhədi Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən keçib Araz çayına çatır. Qərb tərəfdən Küşnək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır.

O vaxt Qarabağ 17 mahala bölünmüşdü: Sisyan, Dəmirçi-Aslanlı, Künara, Bərgüşad, Vahab yurdu, Kəbirli, Talış, Cavanşir, Xaçın, Çiləbird, Xırdapara Dizax, Otuziki, İyirmi dörd, Qaraçorlu, Verənd, Dizax və Acantürk. On iki mahalın əhalisi bir neçə kənd istisna olmaqla, bütünlükdə azərbaycanlılardan ibarət idi. Qarabağ ərazisində 5 erməni məlikliyi yaradılmışdı. Dizax, Vərənd, Çiləbörd, Xaçın Talış məlikliyi xəmsə adlanırdı. Bunların əhalisinin bir hissəsi xristian, daha doğrusu ermənilər idi.

Bu məlikliklərin yaranma tarixi qısaca olaraq belədir: Xaçın məikliyi XVIII əsrdə Qarabağda yaranmışdır. Alban hökmdarı Həsən Calalyanın varisləri yaratmışdır.
Vərənd məlikliyi 1603-cü ildə yaranıb. Onların əsilləri Göyçə mahalındandır. İlk hakimi Məlik Şahnəzər olmuşdur.

Dizax məlikliyi XVIII əsrin əvvəllərində yaranmışdır. Onlar Ermənistanın Lori vilayətindən gəlmişdilər. İlk hakimi məlik Yeqan olmuşdur. Gülüstan (Talış) məlikliyi XVIII əsrin əvvəllərində yaranmışdır. Onların əsilləri Şirvandan gəlmədir. İlk hakimi məlik Usub olmuşdur.

Çiləbörd məlikliyi 1637-ci ildə yaranmışdır. Onlar Zəngəzur mahalından gəlmədir. İlk hakimi məlik Allahqulu olmuşdur. Bu məlikliklərin hamısı Qarabağ xanlıqlarının ərazisində yerləşirdi və xandan asılı idi. Lakin erməni məlikləri Qarabağ xanlığına tabe olmaqdan tez-tez boyun qaçırırdılar və onlar Rusiya dövlətinə köməklik üçün müraciət edirdilər.

Qeyd etmək lazımdır ki, hələ 1780-ci ildə milliyyətcə erməni olan İvan Lazerev və İosif Arqutinski Peterburqda A.V.Suvorova ikı məktub yazmış və Qarabağı tutmağı ona məsləhət görmüşdülər. Məktubda qeyd olunmuşdur ki, əgər bir hakim tapılsa Ermənistan dövlətini burada bərpa etmək olar. 1781-ci ildə Dağlıq Qarabağı tutmağı Qarabağ məliklərindən Məlik Adam və Məlik Bəylər II Yekaterinaya və A.V.Suvorova gizlincə üç məktub göndərərək İbrahim xana qarşı ordu göndərməyi xahiş etmişdilər.

İbrahim xan erməni məliklərinin mərkəzdənqaçma meyllərinə qarşı tədbirlər gördü. O, Vərənd hakimi məlik Şahnəzər və Xaçın məliyi Mirzəxanla ittifaqa girərək Gülüstan məliyi Abov Bəyləryan da, Cerabert məliyi Məcnun İsraelyana, Dizax məliyi Vaxtan Avanyana və Qandzasor monastrının katalikosu Yohənnəsə qarşı mübarizəyə başladı. Bu mübarizənin çətinliyi ondan ibarət idi ki, Rusiya hökumətinin xarici siyasətinin başçılarından olan Q.A.Potyomkin 1783-cü ildən başlayaraq Gürcüstan vasitəsilə Qarabağın işlərinə qarışırdı.

1783-cü ilin 19 mayında knyaz Q.A.Poyomkin II Yekaterinaya yazmışdı ki, "Fürsət düşən kimi Qarabağda hakimiyyəti ermənilərə verəcək və bunlar vasitəsilə Asiyada xristian dövləti yaradacağımız barədə göstəriş vermişəm". İbrahim xan mövqelərini möhkəmləndirmək və ermənilərin Rusiya hökumətini ona qarşı qaldırmaq imkanlarından məhrum etmək üçün Q.A.Potyomkinə məktub yazaraq Rusiyanın himayəsini qəbul etməyə hazır olduğunu bildirmişdi.

XIX əsrin əvvəllərində Qarabağ xanlığı Rusiya tərəfindən işğal edilərək yerində Qarabağ əyaləti təşkil olundu və digər Azərbaycan əyalətləri ilə birlikdə uzun müddət Rusiya imperiyasının tərkibində qaldı.

1840-cı il aprelin 10-da çar hökuməti Zaqafqaziyada inzibati məhkəmə islahatı haqqında fərman verdi. Bu fərmana görə Zaqafqaziya (Cənubi Qafqaz) iki hissəyə bölündü. Birincisi mərkəzi Tiflis şəhəri olmaqla Gürcüstan-İmeretiya quberniyası, ikinci mərkəzi Şamaxı şəhəri olan Kaspi vilayəti. Şimali Azərbaycan torpaqlarının böyük hissəsi, o cümlədən Qarabağ torpaqları Kaspi vilayətinin tərkibində qaldı.

1867-ci ildə Yelizavetpol quberniyası yaradıldı. Keçmiş Qarabağ torpaqları bu quberniyanın tərkibində Şuşa və Zəngəzur qəzalarında birləşmişdi. 1883-cü ildə Yelizavetpol quberniyasının tərkibində daha iki qəza–Cavanşir və Cəbrayıl qəzaları yaradıldı. Həmin qəzalar da keçmiş Qarabağ torpaqlarını əhatə edirdi. Beləliklə, göründüyü kimi, Qarabağ torpaqları Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının tərkibində olmuşdur.

Ermənilər Azərbaycana qarşı irəli sürdükləri ərazi iddialarında tez-tez demoqrafık prinsipləri əsas gətirirdilər. Onların fikrincə göstərilən ərazilərin yerli əhalisi ermənilər olmuşdur. Lakin tarixi mənbələr bunun tamamilə yalan olduğunu sübut edir. Ermənilər heç bir zaman bu ərazilərin yerli əhalisi olmamışdır. Onlar Qarabağ torpaqlarına birinci dəfə ərəblər, sonra isə ruslar tərəfindən köçürülmüşdür. Hər ikisində məqsəd o idi ki, yadelli işğalçılar ermənilərin simasında özlərinə dayaq yaratmaq istəyirdilər. Müasir dövrdə tarixi hadisələr göstərir ki, ermənilər yenə əvvəlki kimi Rusiyanın əlində Cənubi Qafqazda dağıdıcı qüvvə rolunu oynayan bir alət olaraq qalmaqdadır.

1804-1813, 1826-1828-ci illərdə Rus-İran müharibələrindən və 1828-1829-cu illərdə Rus-Türk müharibəsindən sonra İranda və Türkiyədə yaşayan erməniləri kütləvi surətdə Azərbaycan ərazisinə köçürülərək yerləşdirməsi ilə Rusiya gələcəkdə ermənilərin xəbis niyyətlərini həyata keçirmələri üçün real zəmin yaratmış oldu. Türkiyədən və İrandan köçürülmüş ermənilər erməni-rus şovinizminin qərarı ilə Azərbaycanın ən münbit torpaqlarında Qarabağda, Yelizavetpol quberniyasında və İrəvan quberaiyasında yerləşdirilməsi ilə milli münaqişələrin başlanğıcına zəmin yaratdılar. Özlərini "yazıq", "fağır" göstərən bu insanlar özlərinə yer etdikdən sonra qonşu torpaqlara göz dikməyə başladılar. N.N.Şavrov "Zaqafqaziyada rus işinə yeni təhlükə" kitabında göstərdi: "1826-1828-ci illər müharibəsindən sonrakı iki ildə 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 000 İran ermənisi, 84600 Türkiyə ermənisi köçürülmüşdür və onlar erməni millətinin cüzi olduğu Yelizavetpolun və İrəvan quberniyasının ən yaxşı torpaqlarında – Yuxarı Qarabağda və Göyçə gölü sahillərində yerləşdirilmişdir. Köçkünlərin ən çoxu ermənilərdir. İndi Zaqafqaziyada yaşayan 1 mln. 300 min nəfərdən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmədir".

Ermənilərin kütləvi surətdə Qafqaza, o cümlədən Azərbaycana köçürməkdə rus çarizminin öz siyasəti vardı. Bu siyasət Qafqazda erməniləri özünə arxa yaratmaq, onlardan müsəlmanlara qarşı bir vasitə kimi istifadə etmək idi. Bu siyasət erməni millətçilərinə də sərf edirdi və onların inadlı cəhdlərinə baxmayaraq Rusiya Qarabağda "xristian dövləti" təşkil edə bilmədi. Bu onunla bağlı olmuşdu ki, Rusiya hakim dairələri 1823-cü ildə Qarabağda kameral siyahıya alma aparıb gördülər ki, Qarabağ məliklərində cəmi 4366 erməni əhalisi var idi, yəni ermənilər Qarabağ əhalisinin 21,7 faizini təşkil edirdi. Halbuki həmin vaxt Qarabağda 15729 azərbaycanlı ailəsi var idi və deməii əhalinin 88,3 faizi azərbaycanlılardan ibarət idi. Qarabağın mərkəzi Şuşada ermənilər əhalinin 27,5 faizini təşkil edirdilər.

1917-ci ilin statistikasına görə keçmiş İrəvan quberniyasının 38 faizini müsəlmanlar, 60 faizini ermənilər təşkil edirdi: Şərur-Dərələyəz mahalında ümumi əhalinin 66,7 faizi, Sürməlidə 63,6 faizi, Naxçıvanda 59 faizi müsəlmanlar idi. İrəvan şəhərinin özünün əhalisi 43,4 faiz müsəlmanlardan ibarət idi. Keçmiş Yelizavetpol quberniyasında 1915-ci ildə əhalinin ən çox qarışıq olduğu Şuşa, Zəngəzur, Qazax (Göyçə ilə birlikdə), Qaryagin. Cəbrayıl-Cavanşir mahallarında əhalinin milli tərkibi belə idi: 46 faiz müsəlman və 54 faiz erməni, 55 və 44,3 faiz, 49 və 46 faiz, 74,5 və 24,9 faiz, 67,5 və 31,6 faiz.

1917-ci il Qafqaz təqviminə görə Qarabağ ərazisində 242 min erməni, 322 min müsəlman yaşayırdı. Lakin Azərbaycan XİN ekspertinin qeyd etdiyi kimi, bu rəqəm gerçək vəziyyəti göstərmirdi. Çünki, Qarabağ ermənilərinin sayını göstərən rəqəmə Qarabağın oturaq əhalisi olmayan Bakı və Rostova qədər yayılmış çoxminli erməni sənətkar və fəhlələr də aid edilmişdir. Təkcə Bakıda 30 min Qarabağ ermənisi var idi. Həmin ekspertin fikrincə real vəziyyəti 1912-ci ilin "Zaqafqaziyanın pay torpaqlarının alınması haqqında məruzə" və 1917-ci ilin kənd təsərrüfatı sayını daha yaxşı əks etdirir: 170 min erməni və 415 min müsəlman.

Faktlardan göründüyü kimi, ermənilərin iddia etdikləri ərazilərdə müsəlmanlar həmişə çoxluq təşkil etmişlər. Beləliklə, göstərilən bu tarixi sənədlərdən və faktlardan aydın olur ki, zaman-zaman Azərbaycanın ən münbit torpaqlarında yerləşdirilən gəlmə ermənilər özlərini həmin torpaqların "yerli sakini" hesab edərək öz məkirli siyasətini həyata keçirmək üçün gizli-aşkar iş aparmışlar. XIX yüzilliyin axırı və XX yüzillikdə istər Ermənistan azərbaycanlılarının, istərsə də Azərbaycanda və onun Yuxarı Qarabağ bölgəsində yaşayan azərbaycanlıların ən dəhşətli işgəncələr, qırğıniar, mənəvi və fiziki soyqırımı dövrü olmuşdur.

ABŞ tarixçiləri Corc və Karolin Makkartinin "Türklər və ermənilər" adlı əsərində qeyd edirlər ki, Ermənistan adlı coğrafi yer ermənilərə deyil, azərbaycanlılara məxsusdur. Ona görə də bu ərazinin adlarının hamısı türk mənşəlidir. Ermənilər isə onları zaman-zaman süni surətdə 1935-ci ildən dəyişməyə çalışmış və indiyədək bu prosesi davam etdirmişlər. Yerində yaranan yeni erməni adlarının əksəriyyətinin isə keçmiş erməni tarixi ilə heç bir əlaqəsi yoxdur. Onlar süni surətdə Azərbaycan dilindən erməni dilinə tərcümə edilməklə yaradılmışdır.

Ermənilərin Azərbaycana, o cümlədən Qarabağa köçürülməsilə ermənilərin millətçi siyasətlərinin yerinə yeritirilməsində yeni dövr başladı. Bu məqsədlə bir sıra erməni millətçi təşkilatları da yaradıldı. Belə təşkilatlardan biri 1885-ci ildə erməni Partakalyanın Fransada yaratdığı "Armenakon" təşkilatı oldu. Lakin bu təşkilat çox yaşamadı. Bundan sonra 1887-ci ildə "Qnçak" ("Zəng") partiyası yaradıldı. Onun rəhbəri Avetis Nazarbekyan idi. Bu partiyanın proqramında "Böyük Ermənistan" yaratmaq ideyası əsas qoyulmuşdu. Bu partiyanın proqramlarında Azərbaycan torpaqlarının tutulması ön planda idi. Lakin bu təşkilatların rəhbərləri öz məqsədlərinə asanlıqla çata bilməyəcəklərini hiss edərək Avropanın bir sıra şəhərlərində geniş təbliğat aparmaqla məşğul oldular.

"Böyük Ermənistan" ideyasının həyata keçirilməsi uğrunda ən fəal mübarizə aparan təşkilat "Daşnaksütyun" partiyası olmuşdur Bu partiya özünün təcavüzkar ideyasını həyata keçirmək iiçün indi də mübarizə aparır. Bu partiya 1890-cı ildə Tiflisdə yaradılmışdır. Rəhbəri S.Zavaryan, X.Bikelyan, S.Zoryan və başqaları olmuşdur. Təşkilatın əsas mətbuat orqanı Cenevrədə çap olunan "Droşak" ("Bayraq") qəzeti idi. Qəzetdə millətçilik geniş miqyasda təbliğ edilirdi. Təşkilatın dünyanın müxtəlif ölkələrində 3000-dən yuxarı qrupu fəaliyyət göstərirdı.

XX əsrin əvvəllərindən başlayaraq "taşnaksütyun" partiyası Zaqafqaziyada, xüsusilə Azərbaycanda öz fəaliyyətini daha da genişləndirdi. 1905-1907-ci illərdə birinci Rusiya burjua demokratik inqilabı baş verdi. Çarizm öz hakimiyyətini saxlamaq üçün müxtəlif tədbirlər həyata keçirməyə başladı. Belə tədbirlərdən biri müxtəlif millətlər arasında nifaq salmaq idi. Çar hökuməti yaxşı bilirdi ki, Zaqafqaziyada azərbaycanlılarla ermənilər arasında dərin ziddiyyətlər vardır, çünki həmin ziddiyyətlərin arasında çarizmin milli siyasəti də az rol oynamamışdır. Bunları nəzərə alan çarizm 1905-ci il inqilabı zamanı ermənilərdən bir vasitə kimi istifadə edib onları müsəlmanların əleyhinə qaldırdı. Ermənilər Qafqazda yüksək vəzifəli rus məmurları tərəfindən gizli tapşırıq alıb silahlandırıldılar və azərbaycanlılara qarşı müharibəyə başladılar. Gürcü müəllifi Qaribi özünün "Qızıl kitab"ında yazırdı ki, Daşnaksütyun partiyasının yaranmasına qədər Zaqafqaziyada sülh və dostluq hökm sürürdü. Ermənilər, azərbaycanlılar və gürcülər əsrlərlə bir yerdə yaşamışdılar. Hətta bu müddət ərzində heç kim millətlərarası ədavət görməmişdi. Daşnaklar gəldilər və ermənilərdən ibarət Müstəqil Ermənistan yaratmaq istədilər". Beləliklə də 1905-1906-cı illərdə erməni-müsəlman qırğını baş verdi.

Həmin hadisələrin şahidi oln M.S.Ordubadi 1905-1906-cı illərdə olan qırğına həsr etdiyi "Qanlı illər" əsərində yazırdı: "Çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı. Bütün Qafqaz aləmi bu bombanın təsiri şiddətindən yanıb yaxıldı. Bununla da, təxminən iki il davam edən erməni-azərbaycanlı qırğını başladı".

Ermənilərin azərbaycanlılarla ilk toqquşması Bakı şəhərində başlayaraq sonra Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Eçimədzin, Cavanşir və Qazax qəzalarına yayıldı. Gəncə qubernatoru 1907-ci il avqustun 9-da Peterburqda məlumat vermişdi: "Zavallı azərbaycanlı kəndləri üzərinə təqribən yüz minlik zinvorlar (əsgərlər) ordusu göndərilmişdi. Türkiyədən olan qaçqınların və ancaq insan öldürməyə adət etmiş yerli başkəsənlərin demək olar ki, hamısı bu orduya qoşulmuşdu".

Bu dəhşətli qırğınları, vəhşilikləri öz gözləri ilə görmüş M.M.Nəvvab öz kitabında yazırdı: "Şuşada hadisə başlayan günə qədər Şuşa və onun ətrafında yerləşən bütün Azərbaycan kəndləri, o cümlədən Malıbəyli, Kərkicahan, Xocalı və digər kəndlərin əhalisi ilə bir oturub-duran, yeyib-içən ermənilər birdən-birə müsəlmanların toyxanalarına, onların toplaşdığı yerlərə və hətta günorta namazı vaxtı məscidlərə hücum edərək, kütləvi qırğın törətdilər. Qırğında daşnak ermənilərlə yanaşi, Ermənistandan gəlmiş emissarlar da iştirak edirdilər".

Erməni terrorunun dəf edilməsində azərbaycanlıların yaratdıqları "Difai" partiyasının böyük rolu oldu. Bu partiya 1905-ci ildə Əhməd bəy Ağayev tərəfindən Gəncədə yaradıldı. Onun Gəncədə, Şuşada, Qarabağda yerli bölmələri fəaliyyət göstərirdi. Azərbaycan ziyalılarının və vətənpərvərlərinin rəhbərliyi altında Azərbaycan xalqı rusların havadarlıq etdiyi ermənilərə qətiyyətli müqavimət göstərdilər. Ermənilər geri çəkilməyə məcbur oldular və yeni münasib şəraiti gözləmə mövqeyi tutdular.

1914-cü ildə Birinci dünya müharibəsi başlandı. Ermənilər bu fürsətdən özlərinin millətçi ideyasının həyata keçirilməsi məqsədilə böyük fəaliyyətə başladılar. Onların bu fıkirlərinə Antanta dövlətlərinin ermənilərdən istifadə etmək planları dəstək verirdi. Ermənilərə vəd olunmuşdu ki, əgər onlar Türkiyəyə qarşı vuruşsalar, onlara muxtariyyət veriləcəkdir. Müharibə dövründə daha da fəallaşan Daşnaksütyun partiyası azərbaycanlılara qarşı mübarizəni gücləndirdilər. Beləliklə, Qərb ölkələrinə və Rusiyanın köməyinə ümid bəsləyən ermənilər əsas mübarizə mərkəzini Azərbaycana keçirdilər. "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Azərbaycan xalqına qarşı mübarizəni genişləndirirdilər və dəhşətli faciələr törətdilər.

1917-ci ilin fevralında ikinci rus inqilabı baş verdi. Bu hadisə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları tarixində yeni mərhələ açdı. 1917-ci ilin oktyabrında Tiflisdə daşnak başçılarının milli konqresi toplandı. Konqresin çağırılmasından sonra Cənubi Qafqazda və Azərbaycanda siyasi vəziyyət gərginləşdi. Bu millətçi Daşnaksütyun partiyasının öz fəaliyyətini yenidən gücləndirməsi ilə bağlı idi. Daşnaksütyun partiyası "Böyük Ermənistan" xəritəsini əllərində gəzdirərək Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqazda azərbaycanlılara qarşı mübarizəni daha da qızışdırırdılar.

Çox keçməmiş, 1918-ci il martında ermənilər Bakıda, Naxçıvanda, Qarabağda, Qubada, Şamaxıda yeni qırğınlar törətdilər. Həmin qığınlar nəticəsində təkcə Bakıda 12 mindən artıq azərbaycanlı qətlə yetirildi.

Bu qırğınlar Şuşada və onun ətrafında azərbaycanlılar sıx yaşadığı kəndlərdə də baş verdi. Arxiv sənədlərində göstərilir ki, 1918-ci ildə ermənilər Xocalıya hücum edirlər, əvvəlcə ermənilər xocalılara ultimatum verirlər ki, sakitcə öz yerlərini tərk etsinlər. Lakin xocalılar inadkarlıq göstərib öz torpaqları, Xocalı uğrunda mübarizəyə başlayırlar. Ermənilər hücuma keçərək Xocalının, əhalisini qırıb, özünü isə tamamilə yandırdılar.

Bunun ardınca Qarabağı əhatə edən Cavanşir, Cəbrayıl, Zəngəzur qəzalarında daha ağır faciələr baş verdi. Azərbaycanlıların yaşadığı kəndlər yandırılıb, əhalisi isə məhv edildi. 1918-ci ildə erməni silahlı bandalarından başqa, general Andranikin yaxşı təşkil olunmuş

qoşunları Zəngəzura hücum edib, əhalini vəhşicəsinə qırırdılar. Rəsmi sənədlərə və şahidlərin məlumatına görə Zəngəzur qəzasında 115 kənd yandırılmış, yerlə-yeksan edilmişdir. Zəngəzur qəzasının Baqadu kəndində 400 azərbaycanlı günorta namazı vaxtı məscidlə birlikdə yandırılmışdı. Bütövlükdə Zəngəzur qəzasından 10068 adam öldürülmüş, 60 min əhali öz evindən vəhşicəsinə qovulmuşdur. Başları, döşləri, müxtəlif əzaları kəsilmiş qız-gəlinlərin və uşaqların faciələri daha dəhşətli idi.

1918-ci ildə ermənilər İrəvan quberniyasından 200-dən çox azərbaycanlı kəndini yerlə-yeksan etdilər.

Azərbaycanlıların qanına susayan erməni cəlladlarının bu hərəkətlərini xatırlayan insanlardan biri də 1905-ci ildə Şuşada realnı gimnazynanı bitirmiş Abış bəy Qalabəyov idi. O yazırdı: "Mən 1905-1906-cı illərdə olmuş erməni-müsəlman davasında, 1918-1920-ci il Novruz bayramında ermənilərin bizlərin – müsəlmanların başlarına açdıqları müsibətləri öz gözlərimlə görmüşəm. Ermənilər 1905-1906-cı il erməni-müsəlman davasından sonra ara-sıra müsəlmanları qırsalar da, 1918-ci il mart hadisələrinə də çox qızğın hazırlaşmışdılar. Eyni vaxtda Bakıda, Şamaxıda, Qubada, Göyçayda, Qarabağda, Salyanda, Lənkəranda və digər yerlərdə dəhşətli qırğınlar törətdilər. Mart qırğınına S.Şaumyanın göstərişi ilə silahlanmış bolşevik dəstələri başçılıq edirdi.

1918-ci il may ayının axırlarında Zaqafqaziya seyminin buraxilməsından sonra Daşnaksütyun partiyası Ermənistanın müstəqilliyini elan edərək öz millətçi ideyasını həyata keçirməyə başladı. 1918-1920-ci illərdə daşnak hökuməti Türkiyə, Azərbaycan və Gürcüstana qarşı ədalətsiz müharibə aparmaq mövqeyindən çıxış etdilər. Gürcü Qaribi 1919-cu ildə yazmışdı: "Daşnaklar gəldilər, milli ədavət gətirdilər, erməni-müsəlman ziddiyyətini daha da kəskinləşdirdilər...".

Daşnaklar əzəli Azərbaycan torpaqları olan Qarabağ və Naxçıvan ərazilərini ələ keçirmək üçün azərbaycanlılara qarşı mübarizəni gücləndirdilər. İlk növbədə təcavüzə Ermənistanda, öz doğma ata-baba torpaqlarında yaşayan azərbaycanlılar məruz qaldılar. Dinc əhaliyə qarşı silah işlədilməsi nəticəsində onlar kütləvi şəkildə evlərindən çıxarılaraq didərgin salındılar, dağlara və başqa istiqamətlərə qaçmalı oldular. Bununla da azərbaycanlıların kompakt yaşadığı Eçimədzin, İrəvan, Sürməli, Şərur qəzalarının ərazisi ermənilər tərəfindən zəbt olundu.

1919-cu il yanvarın 8-də Azərbaycan parlamentinin iclasında parlamentin sədri bildirdi ki, "parlamentə İrəvan quberniyasının əhalisinin adından məktub daxil olmuşdur. Həmin məktubda bildirilir ki, 1918-ci ilin iyununa kimi erməni qoşunları tərəfindən İrəvan quberniyasında 200-dən çox azərbaycanlı kəndi dağıdılmış və yandırılmışdır. Minlərlə insan dağlara qaçaraq aclıqdan və soyuqdan ölmüşdü. Tərk edilmiş azərbaycanlı kəndlərinə Türkiyədən olan ermənilər yerləşdirilir".

Azərbaycan Demokratik Respublikasının baş naziri F.X.Xoyski Ermənistan hökumətinə göndərdiyi notada bildirirdi ki, azərbaycanlılara qarşı təcavüz siyasəti qəti olaraq dayandırılmalıdır. Lakin münasibətləri bərpa etmək mümkün olmadı.

## TORPAQLARIMIZIN İŞĞALI XANKƏNDİNDƏN BAŞLANDI

1988-ci il fevralın 13-də saat 10-da Xankəndində ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbilə ilk mitinqə toplandılar. Elə onda qətiyyətli rəhbər Heydər Əliyevin yeri bir daha göründü. Hamı bir ağızdan deyirdi: "Əgər Heydər Əliyev burda olsaydı, bu namərdlər ürək edib belə- fikrə düşə bilməzdilər". Təəssüf ki, onda müdrik rəhbərimiz respublikamızda yox idi. Tarix boyu torpaqlarımıza göz dikənlər bundan istifadə edib əl-qol açdı, "Qarabağ və onun ətrafındakı hadisələr" adlı oyuna başladılar.

1988-ci ilin fevral ayından Xankəndi mitinqi erməni faşizminin zaman-məkan tramplini idi. Bu tramplini hasil edib ortalığa çıxardan Kreml, Yerevan və Xankəndi rəhbərliyi idi.

Öncə isə Xankəndi hadisələrinə gətirən hadisələri yada salaq.

Heydər Əliyevin SSRİ-ni ali rəhbərlərindən biri təyin edilib respublikanı tərk edən vaxtdan Azərbaycan hökumətinin vilayətə nəzarəti demək olar ki, heçə endi. İş o yerə çatdı ki, Bakıdan gələnlərimizin nəinki vilayət partıya komitəsinin birinci katibləri, hətta adicə bir təsərrüfatın, təşkilatın rəhbəri də saya almırdı. Bakıda isə bu özbaşınalığı qulaqardına vururdular. Nəticədə, vilayətin idarəetmə sistemində rəsmi Bakı öz funksional yerini rəsmi Yerevana təhvil verirdi. Ermənistan nazirləri həm sərəncam verir, həm də icraçı kimi Xankəndinə axışırdılar. Siyasətin, iqtisadiyyatın, mədəniyyətin, sosial həyatın bütün nüanslarını məhz həmin nazirlər düzüb-qoşurdular. Respubkamızın sərvətləri və nemətləri (mərməri, qraniti, meşəsi, əti, yağı, üzümü, taxılı) Yerevana daşınırdı. "Mütəxəssis" adı ilə yüzlərlə daşnak vilayətə gətirilir və yüksək vəzifələrə təyin olunurdu. Vilayətin təhlükəsizlik komitəsi və milisi Daşnaksütyun partiyasının qərargahlarına çevrilmişdi.

Vilayətin ən məhsuldar əkin yerləri Yerevan və Moskvanın professorlarına hədiyyə verilirdi, onlar bu axarlı-baxarlı yerlərdə öz malikanələrini ucaltdılar. Vilayətin və qonşu rayonların yüzlərlə günahsız azərbaycanlısını erməni milislər yaxalayır, erməni hakimlər həbsxanalara göndərirdilər. Qətlə yetirilmiş 20-dən çox azərbaycanlının qanı batırıldı. Yüngülcə xəstələnmiş yüzlərlə soydaşlarımız daşnak xislətli həkimlərin "şəfalı" əllərinin qurbanı oldu. Həkimlərdən Qukasyan, Dadamyan, Atayan, Balayan, Mirzəyan "başımızm tükü sayı qədər türkü o dünyalıq etmişəm" deyə erməni məclislərində qürrələnirdilər.

Azərbaycanlı kadrlar sıxışdırılırdı. Ermənistandan, Fransadan, İtalyadan, Rusiyadan bərpaçılar gətirilirdi. Memarlıq baxımından Xankəndi Yerevanlaşdırılırdı. Şəhər başdan-başa erməni yazıçılarının, xadimlərinin heykəl xiyabanlarına çevrilmişdi. Alban abidələrinin yazıları, xaçları, ornamentləri erməni kilsələrinin oxşar atributlarına uyğunlaşdırılırdı. Mahnılarımız müxtəlif ölkələrin erməni müğənnilərinin ifasında gecəli-gündüzlü şəhəri başına götürmüşdü və onları ermənilərin adına çıxırdılar.

Türk dünyasının qatı düşməni, xalqımızın cəlladı Andranik haqqında mahnılar evlərdə, uşaq bağçalarında, dövlət idarələrində, restoranlarda, teatr və kino salonlarında susmaq bilmirdi, açıqdanaçığa xalqımıza qarşı döyüşə səsləyirdi.

Zori Balayan, Silva Kaputikyan, Sero Xanzadyan və onlarca digər daşnakların vilayətdə yubileyi təşkil edilirdi və hər bir şəhər, kənd, kollektiv yubilyar daşnaqçının alovlu tribununa, hər bir yubiley daşnakların manifestasiyasına çevrilirdi.

Vilayətin rəhbərliyi sadalanan, eləcə də, sadalanmayan yüzlərlə özbaşnalıqlarla respublikamıza qarşı təkcə özünün itaətsizliyini nümayiş etdirmək məqsədi güdmür, həm də erməni əhalisinin qarşıdakı hadisələrə psixoloji cəhətdən hazırlayırdı. Ən başlıcası isə o, Azərbaycan rəhbərliyinin bu hadisələrə reaksiyasını öyrənirdi. Və bir neçə il sonra Aqambekyan məhz bu təcrübəyə arxalanıb, yüksək tribunalardan haray-həşir qoparırdı ki, vilayət Ermənistana birləşdirilməlidir və bunu iqtisadi amillərlə əlaqələndirirdi.

K.Çernenko Sov.İKP-nin baş katibi seçiləndə ermənilər təəcübləndilər: ",.,Bu ola bilməz, Qorbaçov seçilməli idi." Sonradan Qorbaçovun bu vəzifəyə seçilməsi isə ermənilərin milli bayramına çevrildi. Daşnak əhval-ruhiyyəli əhali qürrələndi: "Axır ki, bizim Sergeyin oğlu Kremlin sahibi oldu". Bu hadisəni Xankəndi Pedaqoji İnstitutunun marksizm-leninizm kafedrasının müdiri, fəlsəfə elmləri doktoru Şahin Martirosyan belə qiymətləndirmişdi: "Tarix indiyə qədər erməni xalqının əleyhinə işləyib. Bu gündən tarixdə böyük erməni erası başlayır".

Qorbaçov seçilər-seçilməz Arkadi Manuçaryanın rəhbərlik etdiyi daşnakçı "Krunk" cəmiyyəti vilayətdə aşkar fəaliyyətə başladı. Partiya, sovet orqanları, həmkarlar ittifaqları, komsomol təşkilatları onun ilk təşkilatçılarına, konkret icraçılarına çevrildi. Vilayətə artıq Geverkov yox, məhz "Krunk" rəhbərlik etdi. Yerevanda milli problemlərə həsr olunmuş silsilə konfranslar keçirildi Bu konfranslara vilayətin məşhur daşnakları dəvət olundular. Yerevandan, Moskvadan vilayətə gəlmiş emissarlar hər bir təşkilatda, kollektivdə gecə-gündüz iş apardılar. Əhalini qeydə almaq bəhanəsilə imzalar toplanıb Qorbaçova çatdırıldı.

Nəhayət, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ondan tələb edildi (heç şəksiz onun özünün göstərişi ilə).

Bu missiyanı reallaşdıra biləcək fəaliyyət proqramı işlənib hazırlandı. Gələcək mitinqlər, nümayişlər, tətillər, azərbaycan əhalisinin qovulması lazım gəlsə, məhvi təkcə kağız üzərində yox, həm də təbliğati, təşkilati planda senariləşdirilmişdi. Yeddi yaşlı uşaqdan tutmuş 90 yaşlı qocaya qədər bütün erməni əhalisinə and içdirilmişdi ki, Qarabağ uğrunda öldü var, döndü yoxdur (andın mətnini katolikos Vazgen yazıb göndərmişdi). Çatışmayan bircə şey vardı – Qorbaçovun "başla" əmri...

Qorbaçov isə hələ bu əmri verənədək çox iş görməli idi, Seçilməsindən cəmi bir həftə sonra onun görəcəyi işləri ermənilər belə proqnozlaşdırırdılar: "O, Stalinin səhvini düzəldəcək – Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirəcək, E.Şevardnadzedən savayı, Siyasi Büronun bütün üzvlərini dəyişdirəcək, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədrliyini də özü aparacaq, kapitalizmi bərpa edəcək, ölkənin ilk prezidenti olacaq".

Belə də oldu. Deməli, bu proqnoz deyil, Qorbaçovun ermənilərə əvvəlcədən yaxşı məlum olan planları imiş.

Daha sonralar qismən sadəlövh, qismən də təşəxxüslü ermənilər açıqladılar ki, Qorbaçov tək Dağlıq Qarabağla kifayətlənməyəcək, Azərbaycanın Yevlağa qədərki ərazisi, Türkiyənin 7 vilayəti, Gürcüstanın və İranın bəzi torpaqları hesabına Böyük Ermənistan yaradacaq və bu işdə ABŞ, Fransa onun tərəfini saxlayacaqdır.

Gərək ki, 1989-cu ildə Qarabağ hadisələrinin "müəlliflərindən" biri daşnak Hayrikyan bir türk jurnalistinin "Siz doğurdanmı Türkiyədən qorxmursunuz?" sualına belə cavab verdi: "Əgər cəmi 3 milyonluq erməni əhalisi mərkəzə (Moskvaya işarə edirdi) müharibə elan edirsə, o nə üçün Türkiyədən qorxmalıdır?"
Təxminən elə həmin ildə Mərkəzi Kəşfiyyat İdarəsinin bir psixoloqunun sözlərini ittifaq televiziyasının diktoru belə elan etdi: "Düz 3 ildir Qorbaçov üzərində teleekran vasitəsilə müşahidə aparıram. Onu düşündürən heç də onun başladığı yenidənqurma deyil, o, hansısa gizli bir məqsədə xidmət edir. Yenidənqurma bü məqsədi reallaşdırma vasitəsidir".

Qorbaçovun özünün siyasi hoqqasını yada salaq. O, elə ilk rəsmi çıxışında – Sov.İKP-nin 1985-ci il aprel plenumundakı məruzəsində siyasət "tozanağı" qopartdı:"Sovet İttifaqı yaradılandan tarixi ədalətsizliyə yol verilib. Heç də bütün xalqların haqqı özlərinə çatmayıb." Bir millətin payı o birinə düşüb (xalq deyəndə erməni xalqını, "ədalətsizlik" deyəndə Dağlıq Qarabağın Ermənistana verilməməsini, "bir millət" deyəndə Azərbaycan millətini nəzərdə tuturdumu? Ermənilərin əvvəlcədən dedikləri ilə necə də üst-üstə düşür).

Ermənistan zəlzələsi (7 dekabr 1988) haqqında xəbəri Nyu-Yorkda alanda Qorbaçovun nitqi tutuldu, rəngi saraldı. BMT sessiyasındakı məruzəsini dili topuq çala-çala oxuyub qurtaran kimi o, Moskvaya qayıtdı. Dedilər: "Bəlkə getməyəsən, axı çox vacib tədbirlər var". Dedi: "Yox, xalqıma böyük bədbəxtlik üz vermişdir, orada olmalıyam".

Gələn kimi İttifaqın və bütün respublikaların xəzinəsini, maddi-texniki imkanlarını, fiziki qüvvəsini Ermənistana yönəltdi. Bütün dünya ölkələrinin başçılarına yalvardı ki, Ermənistana köməyinizi əsirgəməyin. Kremlin hökumət aparatını Yerevana köçürdü, özü də həyat yoldaşı ilə birlikdə oraya uçdu. Yerevandan qayıdan Raisa Maksimovna Moskvada xəstəxanada erməni uşaqlarına baş çəkdi.

Ancaq yada salmaq lazımdır ki, Errnənistan zəlzələsindən heç də az fəlakətlər törətməyən Tacikstan zəlzələsi (23 yanvar 1989) baş verəndə isə Qorbaçovların tükü belə tərpanmədi və belə isti münasibət göstərilmədi.

Qorbaçov fenomeninin respublikamızın rəhbərliyi tərəfindən nəzərə alınmaması, profilaktik tədbirlərin həyata keçirilməməsi, Xankəndi hadisələrinə rəvac verdi. Bu münasibət Xankənd mitinqinə gətirib çıxardı. Mitinqin beşinci günü "Krunk"un sədri Manuçaryan mitinq iştirakçılarına dedi: "Ermənistanın, Dağlıq Qarabağın bütün partiya, sovet orqanlarından və dünyaınn bütün erməni təşkilatlarından həmrəylik teleqramları almışıq. Biz məqsədimizə çatmaq üçün bütün vasitələrdən istifadə edəcəyik, bütün mərhələlərdən keçəcəyik. Moskva bizimlədir, lap bu yaxın günlərdə tələbimiz yerinə yetiriləcəkdir".

Elə bu ərəfədə 500 erməni ailəsi vilayətdən köçmək üçün dəmiryol stansiyasına konteyner gətirmişdilər. Ermənilər bir-birinə deyirdi: "Bu hərəkətlərimizdən sonra azərbaycanlılar bizə çörək verib saxlamazlar" Bunlar sadə ermənilər idilər. Deyirdilər: "Bu işləri törədən 5-6 daşnakdır. Hökumət onları xalqın qarşısında dillərindən assa, bu yaramazlara son qoyular".

Respublika hökuməti ləng işləyirdi, amma işləyirdi. Tətillər kəsilmişdi. Ermənistan ekspansiyasının qarşısı alınırdı, azərbaycanlı əhalinin sosial statusu bərpa olundu. Kamran Bağırov hökumətinin bağışlanmaz səhvi o idi ki, Sumqayıt və Bakı erməniləri Xankəndinə buraxılmışdılar.

İşlərin nizamlandığı bir zamanda daşnakların fasiləsiz mitinqləri birdən-birə canlandı: "Gözünüz aydın, Vəzirov Azərbaycana, Arutyunyan Ermənistana rəhbər gələcəklər. Tələbimiz müsbət həll olunacaq". Təxminən bir aydan sonra proqnoz düz çıxdı. Az sonra vilayətin bütün müqəddaratı Volskiyə tapşırıldı. Özünü tam sahib hiss eləyən Volski Qorbaçovun tapşırıqlarını canla-başla yerinə yetirdi. Təcili olaraq vilayətin iqtisadiyyatını Ermənistanın iqtisadiyyatına qoşdu, hərbi kontingentin müşayəti ilə Yerevandan silah daşıtdırıb erməniləri silahlandırdı, evlərimizin yandırılmasına, qarət edilməsinə, adamlarımızın qətlə yetirilməsinə bilavasitə rəhbərlik etdi. 1988-ci il sentyabrın 18-dən başlamış cəmi 3 günün içində 60-dan çox evlərimiz odlara qalandı, əmlaklar qarət edildi, küçələrə tökülüb yandırıldı. Yüzlərlə günahsız adamlarımız gülləyə tutuldu, döyüldü, 16 min azərbaycanlı pərən-pərən düşdü.

Azərbaycanlıların Azərbaycanda, öz Vətənində köçkün düşməsi tarixçəsi başlandı. Səbəbkar isə erməni millətçiliyi, erməni separatçılığı və onların daşnakçı siyasəti oldu.

## XOCALI FACİƏSİ

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırım oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqimı faciələri ilə eyni səviyyədə durur.

1992-ci ilin qanlı faciəsinə qədər Xocalıda 7 min əhali yaşayırdı. Bu şəhərdə 1988-ci il sentyabrın 18-də Xankəndindən, 1988-ci ilin noyabrında Ermənistandan, 1989-cu ildə Fərqanədən qovulmuş məhsəti türkləri də məskunlaşmışdılar.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının bilavasitə iştirakı ilə Xocalı şəhərinə hücum etdilər. Xocalıya artilleriya və ağır hərbi texnikadan atəş açılmış, şəhərdə güclü yanğın başlamış, şəhər tamamilə alova bürünmüş, yerlə-yeksan edilmişdir. Şəhərin müdafiəçiləri və yerli əhali şəhəri tərk etməyə məcbur olmuşdur. Fevral aynın 26-sı səhər saat 5-ə qədər şəhər zəbt edilmişdir.

Şəhəri tərk etməyə məcbur qalan əhali dağlara, meşələrə, kimi isə yaxınlıqdakı azərbaycanlılar yaşayan Ağdam şəhərinə üz tutmuşdular. Naxçıvanik kəndi yaxınlığında, açıqlıq ərazidə dinc əhali ermənilər tərəfindən güllələndi və onlara amansız divan tutuldu.

Qaranlıq, müdhiş bir gecədə çöllərə, meşələrə üz tutan xocalılar müsibətlərlə qarşılaşdılar. Çarəsiz ana öz qucağında 6 aylıq körpəsini boğdu, bir yaşlı körpə döşləri kəsilmiş anasının qanlı döşlərini acından ağlaya-ağlaya sordu, qız-gəlinlər əsir düşdülər, girov oldular, həftələrlə meşələrdə onlarla insanlar acından, soyuqdan tələf oldular, Şumlanmış torpaqda qaçıb canını qurtara bilməyən onlarla insanlar erməni gülləsinə tuş gələrək yaralı halda soyuqdan dondular,

Cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar

olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdılar.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, qafalarının dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir.

Xocalı faciəsinin acı nəticələrini hamı bilməli və daim yadda qalmalıdır:

613 nəfər həlak olmuşdur, onlardan:
106 nəfəri qadın
63 nəfəri uşaq
70 nəfəri qoca
487 nəfər yaralanmışdır, onlardan:
76 nəfəri uşaq
1275 nəfər girov götürülmüşdür
150 nəfər itkin düşmüşdür
25 uşaq hər iki valideynini itirmişdir
130 uşaq bir valideynini itirmişdir
8 ailə tamamilə məhv edilmişdir

## AZƏRBAYCAN RESPUBLİKASI XOCALI ŞƏHƏR ƏHALİSİNƏ QARŞI ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ VƏ KEÇMİŞ SSRİ-YƏ MƏXSUS 366-CI MOTOATICI ALAYIN KOMANDA HEYƏTİNİN SOYQIRIM CİNAYƏTİ ETMƏSİ BARƏDƏ ARAYIŞ

"Böyük Ermənistan" yaratmaq ideyasında olan ermənilər 1980-cı illərin ortalarında keçmiş SSRİ ərazisində gedən "Yenidənqurma" prosesindən istifadə edərək məqsədlərinə çatmaqda özlərinə maneə kimi hesab etdikləri Azərbaycan xalqına qarşı Məqsədyönlü məhv etmə, min illərlə yaşadıqları dədə-baba yurdlarından köçürmə siyasətini həyata keçirməyə başladılar.

1987-ci ilin sonlarında və 1988-ci ildə Ermənistan SSR ərazisində yaşayan 200 mindən artıq azərbaycanlıların yaşadıqları rayon və kəndlərə silahlı basqınlar edilməyə, Azərbaycanlıları öldürməyə, evləri yandırlmağa, məcbusrən öz yurdlarından köçürülməyə başlanıldı. Eyni zamanda ermənilər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində eyni ssenari üzrə azərbaycanlıların məhv edilib, öz yurdlarından qovulması siyasətini həyata keçirirdilər.

1988-ci ildə ermənilər Xankəndində yaşayan azərbaycanlılara qarşı kütləvi hücumlar təşkil edir, onların evlərini yandırır və şəhərdən köçməyə məcbur edirdilər. Bu zaman azərbaycanlılara qarşı zor tədbiq edilir, onlar döyülmə və işkəncələrə məruz qalırdılar, onların əmlakları qarət olunurdu. Keçmiş SSRİ mərkəzi seyrçi və erməni pərəst siyasəti üzündən Xankəndində yaşayan 15 minə qədər azərbaycanlı Xankəndindən məcburi köçürüldü. 1988-1991-ci illərdə Ermənistandan Dağlıq Qarabağ ərazisinə silahlı dəstələr yeridilərək həmin ərazidə yaşayan azərbaycanlı əhalisinə qarşı mütəmadi olaraq terror keçirilirdi. Dağlıq Qarabağ ərazisində azərbaycanlılar yaşayan məntəqələr erməni silahlı dəstələri tərəfindən ardıcıl surətdə basqınlara məruz qalırdılar.

1991-ci ilin sentyabrından başlayaraq ermənilər tərəfindən azərbaycanlıların yaşayış məntəqələrinə edilən basqınlarda keçmiş SSRİ-yə məxsus, Xankəndində yerləşən 366-cı motoatıcı alayın komanda heyəti və hərbi texnıkası da iştirak etməyə başlamışdı.

Ermənilər Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalini son nəfərinə kimi qırmaq məqsədilə onlar yaşayan kənd və şəhərləri mühasirəyə alaraq, dinc əhaiyə qarşı ağır hərbi texnika vasitəsilə hücum edir, mühasirədən çıxıb qaçmaq istəyən şəxsləri isə yollarda, meşələrdə pusqu quraraq məhv edirdilər. 24.09.91-ci ildə erməni silahlı dəstələri 366-cı alayın hərbi texnikasının köməyi ilə əhalisi ancaq azərbaycanlı olan Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın etmiş, kənd əhalisinin bir hissəsini xüsusi amansızlıqla məhv etmiş, qalan əhali isə əmlaklarını ataraq qaçıb canlarını qutara bilmişlər. Azərbaycanlı əhalinin bütün əmlakları qarət olunmuş, evləri yandırılaraq xarabalığa çevrilmişdir. 30.10.91-ci üdə Tuq və Səlakətin kəndləri, 12.1191-ci ildə Axullu, 19.11.91-ci ildə Xocavənd, 15.12.9-1-ci ildə Cəmilli kəndləri də erməni silahlı qüvvələri tərəfindən 366-cı alayın hərbi texnikası və komanda heyətinin iştirakı işə işğal olunmuşdur. Həmin kəndlərin azərbaycanlı əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi isə bütün əmlaklarını ataraq qaçmağa məcbur olmuşlar. Onların əmlakları ermənilər tərəfindən qarət edilərək, evləri yandırılmışdır.

Heç bir müqavimətə rast gəlmədiklərindən quduzlaşmış erməni qüvvələri 1991-ci ilin dekabrından başlayaraq çoxsaylı əhali yaşayan iri azərbaycanlı kəndlərinə hücumlara başladılar. Nəticədə 21.12.91-ci ildə Nəbilər, 23.12.91-ci ildə Meşəli, 25.12.91-ci ilde Həsənabad, 28.12.91-ci ildə Qaybalı, 1202.92-ci ildə Malıbəyli, 12.02.92-ci ildə Yuxarı və Aşağı Quşçular, 15.02.92-ci ildə Qaradağlı kəndi ermənilər tərəfindən işğal olundu. Bütün bu kəndlərin işğalı zamanı azərbaycanlılar vəhşicəsinə xüsusi amansızlıqla öldürülür, kəndlər isə yandırılırdı. Təkcə Qaradağlı kəndində ermənilər tərəfindən 80 nəfərdən çox azərbaycanlı öldürülmüş, onlarla adam girov götürülmüşdür, kənd isə yandırılaraq yer üzündən silinmişdir.

Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsidir. 1990-ci ildə şəhər statusu almışdır. 1991-ci ilin məlumatına görə əhalisini 7 min nəfər azərbaycanlı təşkil edildi. Dağlıq Qarabağdakı yeganə təyyarə meydanı Xocalıda yerləşir. Dağlıq Qarabağda erməni işğalçılığı nəticəsində 1991-ci ilin axırlarında Xocalı əhalisinin yarıdan çoxu bütün əmlaklarını ataraq şəhəri tərk etməyə məcbur olmuşdur,

Erməni silahlı qüvvələri Xocalını hər tərəfdən mühasirəyə almışdılar, yolları, keçidləri tutmuşdular. Şəhərin quru yolla xarici aləmlə əlaqəsi kəsilmişdi. Elektrik enerjisi yox idi. Xocalının xarici aləmlə əlaqəsi 1991-ci ilin noyabrından etibarən ancaq radio-telefonla və mülki vertolyotlarla idi. 28.01.92-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağ üzərində Azərbaycan Hava Yolları Dövlət şirkətinə mənsub Mİ-8 markalı mülki vertolyot vurulduqdan və vertolyatda 40–dan artıq azərbaycanlı həlak olduqdan sonra Xocalı şəhəri ilə hava əlaqəsi də kəsilmişdir.

Azərbaycan Respublikasının əsas ərazisi ilə əlaqəsi kəsilmiş, 50-60 ədəd avtomat silah və ov tüfəngi ilə silahlanmış özünümüdafiə dəstəsi olan Xocalı şəhəri ətrafında ən müasir texnika ilə təpədən dırnağa qədər silahlanmış ermənilər şəhərin mühasirə halqasını günü gündən daha da sıxmış və 25.02.92-ci il tarixdə saat 22 radələrində Xocalı şəhərinə 366-cı motoatıcı alayının komanda heyəti və hərbi texnikası ilə birgə hücuma keçmişdir. Hücumda ermənilər tərəfindən mayor Ohanyan Seyran Muşeqoviçin komandası altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokixin komandası altında 3-cü batalyonu, 1-ci batalyonun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən atrıq erməni millətindən olan zabit və praporşiklər, tanklar, piyadaların döyüş maşınları, töplar, D-30 qaubitsası və digər müasir hərbi texnika iştirak etmişdir.

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələri Xocalı şəhərinə quldurcasına gecə saat 22 radələrində basqın etmiş, əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutrmuş, sonra isə çoxsaylı tanklar, PDM və bronetranşportyorlar vaşitəsilə şəhərə daxil olmuş evlərində yatmış dinc əhalini vahiməyə salaraq onları vəhşicəsinə məhvetməyə başlamışlar. Bu zaman

qadın, uşaq və ya qoçaya aman vermədən qarşılarına çıxanı atəş yağışına tutaraq tank, PDM yə, digər texnika altına salaraq əzmiş, məhv etmişlər.

Azqınlaşmış ermənilər azərbaycanlıları xüsusi amansızlıqla işgəncə verərək öldürürdülr. Onlar mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları da yollarda, keçidlərdə, meşələrdə pusqu quraraq tutur, vəhşicəsinə məhv edirdilər.

İstintaqla müəyyən edilmişdir ki, Ermənistan Şilahlı Qüyvələri yə 366-cı alayın komanda heyəti tərəfindən cəmi 335 nəfər Xocalı şəhər sakini öldürülmüşdür. Onlardan 43 nəfəri azyaşlı uşaq, 109 nəfəri qadin, 16 nəfəri isə 60 yaşdan yuxarı qoca kişi olmuşdur.

Meyidlərin xarici müayinəsi, məhkəmə–tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müyəffəq olmuş Xocalı sakinlərini ifadələri ilə hərbçilərin azərbaycanlılara qarşı törətdikləri ağlaşığmaz gəncə, vəhşilik faktları: baş dərişinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, erməni qəbrinin üstündə azərbaycanlı başının qurbanlıq kimi kəsilməsi, faktları müəyyən edilmişdir. Silahlı
quldurlar qadına, qocaya və uşağa da fərq qoymadan hamıya işgəncə vermişdilər. Qadınların döşlərinin kəsilməsi, cinsiyyət orqanına atəş açması adi hal olmuşdur. Müəyyən edilmişdir ki, 1956-cı ildə anadan olmuş Orucov Telman Ənvər oğlu Xocalı şəhərindən mühasirədən çıxıb qaçarkən 26.02.92-ci ildə Naxçıvanik kəndi yanında ermənilər onu güllə ilə vurab öldürmüş və başının dərisini soymuşlar.

1963-cü ildə anadan olmuş Mustafayev Vidadi Şəfa oğlu, 1962-ci ildə anadan olmuş Nuriyev Hafis Yusif oğlu, 1968-ci ildə anadan olmuş İlyasov Əhməd Məmməd oğlu və başqalarının başı kəsilmişdir. Bakıdan olan Bədəlov Tofıq, 1961-ci ildə anadan olmuş Rəcəboy Cəbrayıl Mehti oğlu tankla əzilmiş gözləri çıxarılmış, qulaqları kəsilmişdir.

Məmmədova Tamara Səlim qızı, Dadaşova Əsli Bəbir qızı, Əmirova Mahı Bəbir qızı, Hümbətova Ənahət Eldar qızı, Nuralıyeva Dilarə Oruc qızı bə başqalarının gözləri çıxarılmış, döşləri kəsilmişdir. D.O.Nuralıyevanın həmçinin dişləri də çıxarılmışdir.

Səlimov Bahadır Mikayıl oğlü Aslanov İqbal Qulu oğlunun cinsiyyət üzvləri kəsilmiş, gözləri çıxarilmış, diri-diri yandırılmışdır.

Səlimov Arzu Bahadır oğlunu yaralı tütub körpə üşağının gözü qabağında armaturla işgəncə verərək döyüb öldürmüşlər.

Behbudova Sürəyya Yusif qızının cinsiyyət üzvünə Atəş açılmışdır.
Kərimova Firəngiz Məhəmməd qızının bədəni tam doğranılmış, gözləri çıxarılmış, qulaqlari və döşləri kəsilmişdir;

Xocalı şəhərinin işğalı zamanı dövlət və ictimai idarə, müəssisə, təşkilatların əmlaklarının məhv edilməsi nəticəsində 1992-ci ilin dekabr ayı üçün qiymətlər miqyası ilə 4 milyard 199 milyon 668 min 338 rub. məbləğində, Xocalı əhalisinin şəxsi əmlakına 1992-ci ilin mart ayı qiymətlər miqyası ilə 229 milyon 861 min 800 rub. ziyan vurulmuşdur.

Aparılmış istintaq zamanı azərbaycanlılara qarşı soyqırım cinayəti edən erməni hərbi quluqçuları və 366-cı alayın komanda heyəti barədə, onların törətdikləri konkret cinayətlər barədə məlumatlar toplanılmışdır.

İş üzrə şahid qismində dindirilmiş Xocalı şəhər sakini Abbasov Ələmdar Məmmədvəli oğlunun ifadəsi ilə müəyyən edilmişdir ki, o və 150 nəfərə qədər Xocalı sakini mühasirədən çıxıb Ağdama gedərkən pusquda duran ermənilər onların bir hissəsini yerindəcə xüsusi amansızlıqla öldürmüş, qalanını isə tutub həbs etmiş, həbsdə gündəlik önları döyüb işgəncə vermişlər. Onu və Salahov Məhəmməd Əbdül oğlunu dəyişdirmək adı ilə Əsgəran rayonuna, milis şöbəsinin ibtidai həbs evinə gətirmiş, orada da hər ikisini armaturla döyərək onlara işgəncə vermişlər. Döyülməkdən Ə.M.Abbasövun iki qabırğası və qolu sınmış, M.Ə.Salahov isə döyülməkdən, işgəncədən onun qolları üstündə ölmüşdür.

Onları Dəhrəz kəndi yaxınlığında tutan ermənilərdən birinin adı Serjik idi. O, Sumqayıtda yaşamış ermənilərdən idi. Əsgəran milisində isə onları döyənlərin arasında Yerevandan gəlmiş xüsusi təyinatlı milis dəstəsindən olan Manvel və Qarik adlı erməniləri görsə tanıya bilər. Xocalı şəhərinin işğalı zamanı ermənilər tərəfindən tutularaq girovda olmuş Abbasov Elbrus Ələmdar oğlu ifadəsində göstərmişdir ki, Stepanakert milisində əsirdə olarkən Artvır və Slavik adlı serjantlar və Feliks adlı leytenant onları mütəmadi

olaraq döyürdülər. Onlar Xocalı sakinləri Novruzov Ələsgər Xanlar və Şəliyev Vəkil oğlunu döyüb işgəncə verməklə öldürmüşlər.

Biri isə Yerevandan olan kapitan rütbəli idi.

Eləcə də Xocalı şəhər sakinləri, girovda olub dəyişmə, pul ilə alınma və s.yollarda azad olmuş Məmmədov Zülfı İbrahim oğlu, Sevdimalıyev Abasəli Məmmədəli oğlu, Eyvazov Dadaş Əli oğlu və başqalarının ifadələri ilə də azərbaycarilılara işgəncə, əziyyət verib qətlə yetirən ermənilər barədə məlumatlar müəyyən edilmişdir.

366-cı alayın komanda heyətinin Dağlıq Qarabağın azərbaycanlı əhalisinə, o cümlədən Xocalı şəhərinin əhalisinə qarşı soyqırım cinayətində erməni silahlı qüvvələri ilə birgə iştirak istintaq zamanı toplanılmış aşağıda göstərilən sübutlarla təsdiq edilir.

366-cı alayın 1-ci batalyonunda qərargah rəisinin müavini olmuş Tuşov Sergey Daniloviçin ifadəsi ilə müəyyən olunur ki, 1991-ci il sentyabrın axırlarından alay komandiri Zarviqorovun əmri ilə 2-ci batalyonun komandiri Ohanyan Seyran, 3-cü batalyonun komandiri Yevgeniy Nabokix, artilleriya diviziyonu-komandiri Lixodey İqor, maddi təchizat rotasının komandiri Miroşniçko İqor, tank vzvodunun komandiri Smaqin döyüş növbəsinə çıxırdılar, bu zaman onlar Dağlıq Qarabağ azəbaycanlılara məxsus yaşayış məntəqələrini atəşə tuturdular. Ohanyan Seyran özü ona danışıb ki, Kərgicahan və Malıbəyli kəndlərinin zəbt ediiməsi zamanı erməni yaraqlılarına komandirlik edib. 26.02.92-ci ilə keçən gecə Xocalı şəhərinin işğalına 3-cü batalyonun komandiri Yevgeni Nabokix rəhbərlik etmişdir. Hücumda batalyon komandiri Ohanyan Seyran, 1-ci batalyonun qərərgah rəisi Çitçiyan Valeriy və başqa ermənilər də iştirak etmişlər.

## XOCALI FACİƏSİ İLƏ BAĞLI YARADILMIŞ İSTİNTAQ QRUPUNUN MATERİALLARINDAN

1. Məmmədova Tamara Səlim qızı

2. Dadaşova Əsli Bəbir qızı

3. Əmirova Mahı Bəbir qızı

4. Nuralıyeva Dilarə Oruc qızı- gözləri çıxarılmış, döşləri kəsilmişdir

5. Səlimov Bahadur Mikayıl oğlu – cinsiyyət üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışdır

6. Aslanov İqbal Qulu oğlu – cinsiyyət üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışdır

7. Behbudova Sürəyya Yusif qızının cinsiyyət üzvünə atəş açılmışdır

8. Kərimova Firəngül Məhəmməd qızının bədəni tam doğranmış, gözləri çıxarılmış, qulaqları və döşləri kəsilmişdir.

9. Məmmədov Yaşa Yusif oğlu. Xocalı işğalı zamanı əsir götürülmüşdür. Ona həm cismani, həm də mənəvi işgəncələr vermişlər. Qəsbkarlar əsir düşmüş kişilərin gözləri qarşısında qadınları təhqir etmişlər. Təhqirlərə dözməyən və imkansız olan Yaşa banditlərdən birinin sifətinə tüpürmüşdür. Bundan sonra onu ağaca bağlayaraq güllələmiş və sonra yerə uzadaraq avtomobillə üzərindən keçmişlər.

## MƏHKƏMƏ-TİBB EKSPERTİNİN RƏYİ

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Xocalı şəhərində erməni quldurları tərəfindən qətlə yetirilən şəxslərin xəsarətinin təhlili:

"Xocalı hadisəsi zamanı bizim birliyin ekspertləri tərəfindən məhkəmə tibbi müayinəsindən 181 meyid keçirilmişdir. Həmin meyidlərdən 130 nəfəri kişi, 51 nəfəri isə qadındır. Müayinə olunan meyidlərdən 13 nəfəri azyaşlı olmuşdur. Xəsarətlərin əmələ gəlmə mexanizminə görə bölünməsi aşağıdakı qaydada olmuşdur:

a) qəlpə təsirindəni – 20
b) güllə təsirindən – 151
v) küt alət təsirindən – 10

Xəsarətlər yerləşdiyi nahiyələrə görə aşağıdakı kimi olmuşdur:

a) baş nahiyəsi – 40
b) döş qəfəsi – 74
v) qarın riahiyyəsi – 17
q) ətrafları – 11

Bununla yanaşı müayinə olunmuş meyidlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, yəni başın dərisinin soyulması, qadınlarda döşlərin kəsilnıəşi, burun yə qulaq qığırdaqlarının kəsilməsi, qadınların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması əlamətləri aşkar edilmişdir. Eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi muşahidə olunmuşdur. Müəyyən olunmuş 31 meyiddə isə kombinə olunmuş, yəni bədənin müxtəlif nahiyələrinin güllə yarası və küt alətlə kəsici-deşici alətlə yetirilmiş xəsarətlər olmüşdur. Müayinə olunmuş meyidlərdən 13 nəfərində bədənin bütun səthini əhatə edən yanıq kömürləşmə aşkar edilmişdir. Eyni zamanda müayinədən keçən meyidlərdən 10 nəfərində güllə yarası ilə birlikdə onların üzərindən hərbi texnikanın keçməsi əlamətləri olmuşdur.

**Baş məhkəmə tibb eksperti,**
**professor R.M.Yusifov.**

## MƏHKƏMƏ-TİBB EKSPERTİNİN RƏYİNDƏN

| | | | |
|---|---|---|---|
| 1 | **Mehdiyev Şəfa Baba oğlu** | Fəhlədir. 54 yaşında | döş qəfəsinin güllə yarasından həlak olmuşdur |
| 2 | **Xəlilova Lalə Tahir qızı** | 4 yaşında | döş qəfəsinin güllə yarasından həlak olmuşdur |
| 3 | **Səlimov Mikayıl Bahadur oğlu** | Fəhlədir, 22 yaşında | kəllənin qəlpə yarasından həlak olub |
| 4 | **Əliyev Arif Xanlar oğlu** | Milli ordunun əskəridir. | 22 yaşında döş qəfəsinin güllə yarasından həlak olub |
| 5 | **Əmirov Təvəkkul Baxış oğlu** | Fəhlədir, 40 yaşında | döş qəfəsinin güllə yarasından həlak olub. |

| | | | |
|---|---|---|---|
| 6 | **Nağıyev Yusif Şirin oğlu** | 64 yaşında Fəhlədir | döş qəfəsinin güllə yarasından həlak olub. |
| 7 | **Naməlum kişi meyidi** | 22- 27 yaşında | başından güllə yarası alıb. Güllə beynini dəlib keçmişdir. |
| 8 | **Naməlum kişi meyidi** | 20-30 yaşında | başın qəlpə yarası. Kəllə sümüyünün kobud sınığı. |
| 9 | **Naməlum kişi meyidi** | 25-30 yaşında | başin və üst dodağin kəsilmiş yaraları,boynunun ön səthinin güllə yarası. |
| 10 | **Naməlum kişi meyidi** | 20-25 yaşında | döş qəfəsinin arxa səthinin qəlpə yarası, sifətin, boyunun və döş qəfəsinin ön səthinin kəsilmiş yaraları. |
| 1l | **Naməlum qadın meyidi** | 14 yaşında | başın güllə yarasından |
| 12 | **Allahyarova Qəmzə Qardaş qızı** | 55 yaşında. Evdar qadındır | qarının güllə yarasından həlak olmuşdur. |
| 13 | **Allahverdiyeya Teyyubə Nəbi qızı** | 50 yaşında. Evdar qadın | başının. güllə yarasından həlak olub. |
| 14 | **Məmmədov Vaqif Şamil oğlu** | 39 yaşında. Fəhlədir | başının güllə yarasından həlak olub |
| 15 | **Mahmudova Roza Cəfər qızı** | 60 yaşında. Evdar qadın | qarının güllə yarasından həlak olüb |
| 16 | **Çöbanov Tapdıq Xadicə oğlu** | 44 yaşında. Fəhlədir. | başının güllə yarasından həlak olub. |
| 17 | **Orucov Fazil Ənvər oğlu** | 31 yaşında. Fəhlədir | döş qəfəsinin güllə yarasından həlak ölub |
| 18 | **Kərimov Manaf Tanrıverdi oğlu.** | 23 yaşında. Fəhlədir | başının və ətrafların qəlpə yarasından həlak olub. |
| 19 | **Zeynalov Məhəmməd Məsi oğlu** | 35 yaşında | ətrafların güllə yaralarından həlak olmuşdur. |
| 20 | **Həsənov İlqar Ələkbər oğlu** | 53 yaşında | başın güllə yarasından həlak olmuşdur. |
| 21 | **Əzimova Pərvanə Hüseyn qızı** | 45 yaşında. Evdar qadın | döş qəfəsinin güllə yarasından həlak olub. |
| 22 | **Əzimov Həsənbala Şahmurad oğlu** | 57 yaşında | başın güllə yarasından həlak olmuşdur |
| 23 | **Məmmədov Eldar Əmirxan oğlu** | 34 yaşında. Fəhlədir | başın güllə yarasından həlak olmuşdur |
| 24 | **Kərimova Firəngiz Mütəllim qızı** | 60 yaşında. Evdar qadın | doş qəfəsinin güllə yarasından həlak olub. |
| 25 | **Ələkbərov Aydın Təvəkkül oğlu** | 12 yaşında. Şagird | başın güllə yarasından həlak olub. |
| 26 | **Nəbiyeva Sara Əkbər qızı** | 24 yaşında. Evdar qadın | sağ budun qəlpə yarası, sağ əlin parçalanması. |
| 27 | **Eyvazov Hidayət Əli oğlu** | — | başın qəlpə, sol gözün çıxarılması, qarnın və budun güllə yarasından həlak olub. |
| 28 | **Xanməmmədov Barat Kamil oğlu.** | 23 yaşında. Fəhlə | döş qəfəsinin ön səthinin güllə yarasından həlak olub. |
| 29 | **İskəndərov Əliabbas Qara oğlu** | 24 yaşında | döş qəfəsinin arxa səthinin güllə yarasından həlak olub. |
| 30 | **Həmənova Gülcöhrə** | — | döş qəfəsinin və qarnın güllə yarası, sol əlin pəncədən kəsilməsindən həlak |

| | | | |
|---|---|---|---|
| | | | olub. |
| 31 | **Həsənov Şöhlət Usub oğlu** | — | döş qəfəsinin güllə yarasından, yuxarı ətrafın kəsilməsindən həlak olub. |
| 32 | **Mikayılov Araz** | — | döş qəfəsinin, qarın və sağ budun güllə yaralarından həlak olub. |
| 33 | **Məmmədov Rasim Səlim oğlu** | — | baş qəlpə yarasından, kəllə qapağının qopmasından həlak olub. |
| 34 | **Naməlum kişi meyidi** | Təxmini yaşı 25-35 | döş qəfəsinin ön səthinin güllə yarası, qulaq seyvanlıqın və cinsiyyət üzvünün, döş qəfəsinin kəsilmiş yaraları. |
| 35 | **Naməlum kişi meyidi** | Təxmini yaşı 20-25 | başın güllə yarası, göz almalarının çıxarılması, başın kəsilmiş yarasından həlak olub. |
| 36 | **Bədəlov Tofıq** | — | tankla əzilmiş, yandırılmış, gözləri çıxarılıb, qulaqları kəsilmişdir. |
| 37 | **Abışov Əli Əbdül oğlu** | — | bədənin küt travması, skelet sümüklərinin çoxlu sınıqları. |
| 38 | **Əzimov Natiq Abbasqulu oğlu** | — | kürək nahiyəsinin güllə yarasından həlak olub. |
| 39 | **Səfəyeva Gözəl** | — | bədənin müxtəlif nahiyələrinin güllə yarasından həlak olub. |

## XOCALI SOYQIRIMI QURBANLARININ AİLƏLƏRİNƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜRACİƏTİ

Əziz Xocalılar!

Hörmətli həmvətənlilər, iki il öncə, 26 fevral 1992-ci ildə Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi olduq. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanılan Xocalı şəhərini yerlə yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığılmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Mənəvi, fiziki itkimiz əvəzolunmaz dərəcədə ağırdır. Təəsüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın siyasi həyatında mövcud olmuş hərc-mərcliklər, anarxiya, milli taleyimizə biganə siyasi ambisiyalar, hakimiyyət oyunları və siyasi qruplar arasında münaqişələr də həyatımızda baş verən bütün faciələrdə az rol oynamamışdır. Nəticədə tariximizə qara səhifələr yazılmış, xalqımızın qəlbinə sağalmaz yaralar vurulmuşdur. Respublikanın hüquq-mühafizə orqanları gü-nahkarların aşkar edilməsi istiqamətində ardıcıl iş aparır. Əmin ola bilərsiniz ki, törədilmiş cinayətin məsuliyyətindən heç kəs yaxa qurtara bilməyəcəkdir.

Dünyada hər şeyin, dərdin də, əzabın da bir sonu var. O cümlədən, məcburən qatıldığımız müharibənin də. Xalqımızı əmin etmək istəyirəm ki, müqəddəs vətənimizin real müstəqilliyi və torpaqlarımızın düşmən tapdağından azad olacağı gün uzaqda deyildir. Hamımızın sıx bırliyilimizlə biz bu ağır tale sınağından qələbəyə çıxacaq və hər kəs öz doğma od-ocağına qayıdacaqdır.

Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Bu gün ölkəmizin hər yerində Xocalı qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir. Xocalı soyqırımı qurbanlarının müqəddəs rühları qarşısında bir daha baş əyir, onların qohumlarına və bütün
Azərbaycan xalqına başsağlığı verirəm.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**1 mart 1994**

## "XOCALI SOYQIRIMI QURBANLARININ XATIRƏSİNƏ SÜKUT DƏQİQƏSİ ELAN EDİLMƏSİ HAQQINDA"

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1992-ci il fevral ayının 26-da Ermənistan silahlı qüvvələri Azərbaycan xalqına qarşı misli görünməmiş Xocalı soyqırımını törətmişlər. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycan dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədilə qərara alıram:

Hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 fevral 1997-ci il**

## "XOCALININ MÜDAFİƏSINDƏ FƏRQLƏNMİŞ ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA"

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

l.Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında erməni qəsbkarlarına qarşı mübarizədə, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində xüsusilə fərqlənərək şücaət və mərdlik göstərdiklərinə, Vətən qarşısındakı borclarını şərəflə yerinə yetirdiklərinə görə aşağıdakılara "**Azərbaycanın Milli Qəhrəmanı**" adı verilsin.

| | |
|---|---|
| Mövsüm Şahin oğİu Məmmədov | Şuşa polis şöbəsinin əməkdaşı |
| Ələsgər Xanlar oğlu Novruzov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Füzuli Salah oğlu Rüstəmov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |

| | |
|---|---|
| Araz Bahadur oğlu Səliraov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |

II. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, torpaqlarımız erməni təcavüzündən müdafiəsində, Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində fərqləndiklərinə görə aşağıdakılar "**Azərbaycan Bayrağı**" ordeni ilə təltif edilsinlər:

| | |
|---|---|
| Bəxtiyar Qulu oğlu Aslanov | Xocalı sakini! |
| Firdovsi Fazil oğlü Vəliyev | hərbi qulluqçu (ölümündən sonra). |
| Taleh Zəkara oğu Quliyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| İbrahim Nəriman oğlu Əzizov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü |
| Firidun İsa oğlu Əliyev | Xocalı polis bölməsinin əməkdaşı. |
| Xəzani Kərəm oğlu Əsgərov | Şuşa polis şöbəsinin əməkdaşı (olümündən sonra). |
| Elman Camal oğlu Məmmədov | Xocalı rayon İcra Hakimiyyətin başçısı |
| Elburus Azad oğlu Məmmədov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Xosrof Bilal oğlu Məmmədov | Ağdam özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Sərvər Məhəmməd oğlu Rəcəbov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Xəqani Siyavuş oğlu Səlimov | Xocalı polis bölməsinin əməkdaşı |
| Elxan Nəsib oğlı Səfiyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Əliyar Kamran oğlu Usubov | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| Rövşən Qaçay oğlu Həsənov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Mürşüd Səməd oğlu Hüseynov | Xocalı sakini (ölümündən sonra). |

III. Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında, erməni işğalçılara qarşı mübarizədə Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində igidlik göstərərək vətəndaşlıq borclarının vicdanla yerinə yetirdiklərinə görə aşağıdakılar "**İgidliyə görə**" medalı ilə təltif edilsinlər:

| | |
|---|---|
| Taleh Umudvar oğlu Abbasov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Mahir Tanrıverdi oğlu | Abdullayev Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Elşad Qiyas oğlu Abışov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Habil Mövsüm oğlu Abışov | Xocalı sakini (ölümündən sonra). |
| Rasira Mirsalam oğlu Ağayev | Kosalar polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| Ziyadxan Salah oğlu Allahverdiyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |

| | |
|---|---|
| | (ölümündən sonra). |
| İlham Baxşeyiş oğlu Allahverdiyev | Xocalı sakini(ölümündən sonra). |
| Etibar Baloğlan oğlu Allahyarov | Xocalı sakini (ölümündən sonra). |
| Bəhmən Yaqub oğlu Bağırov | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| Elşən Həsən oğlu Bağırov | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra), |
| Namiq Məhəmməd oğlu Bilalov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Əli İmran oğlu Vəliyev | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra) |
| İlham Süleyman oğlu Qarayev | Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı. |
| Yaşar Qaytaran oğlu Qasımov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| İslam İdris oğlu Quluyev | Xocalı sakini (ölümündən sonra). |
| Natiq Vəliyəddin oğlu Quliyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Zöhrə Lətif qızı Quliyeva | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Yelmar İsgəndər oğlu Əbdülov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Arif Xanlar oğhı Əliyev | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra), |
| Eldar Kəriş oğlu Əliyev | Xocalı sakini (ölümündən sonra). |
| Əbülfət Əli oğlu Əliyev | Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| İlham Bahadır oğlu Əliyev | Xocalı sakini (ölümündən sonra). |
| Sərxan İslam oğlu Əliyev | Xocalı polis bölməsinin əməkdaşı. |
| Namiq Şahmalı oğlu | Xocalı ozünümüdafiə dətəsinin döyüşçüsü. |
| Faiq Şahmalı oğlu Əliməmmədov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Eldar Aslan oğlu Zeynalov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Malik Ağayar oğlu İmani | Xocalı sakini (ölümündən sonra). |
| Ziyəddin Savalan oğlu İsgəndərov | Ağdam polis şöbəsinin əməkdaşı (ölümündən sonra). |
| Bəhram Mətləb oğlu İsmayılov | Xocalı polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| Firuz Samran oğlu Kərimov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Murad Şəfa oğlu Mehdiyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sorıra). |
| Fikrət Buruzlu oğlu Mehdiyev | Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| ƏIi Mürsəl oğlu Mehrəliyev | Xocalı sakini (ölümündən sonra). |
| Sadiq Oqtay oğlu Mədətov | Xocalı polis bölməsinin əməkdaşı. |

| | |
|---|---|
| Razmik Suren oğlu Məmmədov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Rasif Salman oğlu Məmmədov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Sərvər Yelmar oğlu Məmmədov | Kosalar özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Murad Cərail oğlu Məhərrəmov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Şahid Lətif oğlu Muradov | Xocalı polis bölməsinin əməkdaşı. |
| Natiq İsmayıl oğlu Nağıyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Ramiz Kamal oğlu Nəsirov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Felmar Şahmar oğlu Rzayev | Xocalı sakini. |
| Eldar Əmir oğlu Rüstəmov | Xocalı sakini (ölümündon sonra). |
| Zakir Kamran oğlu Usubov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Zahir Əbilqasım oğlu Usubov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü |
| Canan Binnət oğlu Fərzəliyev | Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı (ölümündən sonra). |
| Davud Məşdi oğlu Haqverdiyev | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Yaşar Hacı oğlu Hacıyev | Xocalı polis bölməsinin əməkdaşı. |
| Rza Lətif oğlu Hacıyev | Xocalı hava limanında xətt polis bölməsinin əməkdaşı. |
| Bəhmən Salman oğlu Hənifəyev | Xocalı sakini (ölümündən sonra). |
| Mehdi Ramil oğlu Həsənov | Xocalı sakini (ölümündən sonra). |
| Yamən Kazım oğlu Həsənov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü. |
| Şöhrət Usub oğlu Həsənov | Xocalı sakini (ölümündən sonra). |
| Hətəm Qurban oğlu Hümbətov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra), |
| Çingiz Usub oğlu Hüseynov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra). |
| Vaqif Rəsul oğlu Şükürov | Xocalı özünümüdafiə dəstəsinin döyüşçüsü (ölümündən sonra), |
| Murad Əliş oğlu Şükürov | Xocalı sakini. |

**Heydər Əlıyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 fevral 1997-ci 11.**

## "AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA"

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xulyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürüst torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı aitında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cumhuriyyəti yaradıldıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi

məqsədilə Fövqəladə İstintaq Komissiyasnın yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımı, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya içtimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-də iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cumhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azerbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kompaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübüt etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalq"ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSRİ-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına ənqəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəsilimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırıldırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-cı illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycan Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də Azərbaycan rəhbərliyi öz mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürüst hərəkətinin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid ölmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı sürətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhüriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə qərara alıram:

1. 31 mart Azərbaycanlıların Soyqırım Günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, şəhəri, 26 mart 1998-ci il**

## XOCALI SOYQIRIMININ ONUNCU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜRACİƏTİ

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Bu gün mən xalqımızın tarixində kədərli və faciəli bir səhifə olan Xocalı soyqırımı münasibətilə sizə müraciət edirəm. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-miilətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və Sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur, Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş

verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar. Əslində, o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafıəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdir.

| 107. | Quliyev Natiq Vəlyəddin oğlu | 1972 |
| 108. | Qarayev Usubəli Süleyman oğlu | 1961 |
| 109. | Əbdülov Məzahir Yaqub oğlu | 1960 |
| 110. | Səlimova Tamilə Ağamalı qızı | 1936 |
| 111. | Səlimov Xəzər Səyavuş oğlu | 1974 |
| 112. | Məmmədov Şövkət İbad qızı | 1964 |
| 113. | Cəfərov Samir Tacir oğlu | 1987 |
| 114. | Bidzinov Zeynali Məmməd oğlu | 1926 |
| 115. | Boranov Maqsud Alı oğlu | 1928 |
| 116. | Abbasova Həmayıl Canış qızı | 1940 |
| 117. | Abbasova Suqra Əliş qızı | 1917 |
| 118. | Vəliyeva Nazilə Kamil qızı | 1966 |
| 119. | Vəliyev Ağaasəf Zakir oğlu | 1986 |
| 120. | Vəliyeva Güldan Zakir qızı | 1989 |
| 121. | Hüseynov Vüqar Hilal oğlu | 1971 |
| 122. | İlyasov Məhəmməd İlyas oğlu | 1940 |
| 123. | Əhmədova Sərfınaz Muxtar qızı | 1900 |
| 124. | İlyasov Əhməd Məmməd qızı | 1968 |
| 125. | Əhmədov Natiq İlyas oğlu | 1968 |
| 126. | Əliməmmədov Faiq Şahmala oğlu | 1969 |
| 127. | Məmmədov Məmməd Rəhim oğlu | 1935 |
| 128. | Məmmədov Söhbət Məmməd oğlu | 1976 |
| 129. | Binəliyev Əlili Gülalı oğlu | 1967 |
| 130. | Binəliyev Cabbar Gülalı oğlu | 1969 |
| 131. | Bədirov Əli Rəis oğlu | 1968 |
| 132. | Məmmədov Aydın Qurban oğlu | 1964 |

| | | |
|---|---|---|
| 133. | Şahverənov Məhərrəm Çodar oğlu | 1930 |
| 134. | Nəsirova Tatyana Dimitriy | 1952 |
| 135. | Budis Dimitriy Nikolayevna | 1930 |
| 136. | Hümbətova Simuzər Cənnət qızı | 1976 |
| 137. | Hümbətov Muğan Cəlil oğlu | 1973 |
| 138. | Hüseynov Hüseyn İsmayıl oğlu | 1934 |
| 139. | Hüseynov Əziz Alış oğlu | 1956 |
| 140. | Hüseynova Xoşbəxt Hüseyn qızı | 1963 |
| 141. | Hüseynova Süsən Hüseyn qızı | 1971 |
| 142. | Hüseynova Emma Hüseyn qızı | 1969 |
| ,143. | Hüseynov Zöhrab Hüseyn oğlu | 1971 |
| 144. | Əzizov Mehman Qüdrət oğlu | 1959 |
| 145. | Cəfərov Nüsrət Fazil oğlu | 1975 |
| 146. | Həşimov Şövkət Şükür oğlu | 1943 |
| 147. | Ağayev Vidadi Səmcadin oğlu | 1960 |
| 148. | Şahmuradov Namiq Əmirxan oğlu | 1965 |
| 149. | Ələsgərov Məzahir Məhərrəm oğlu | 1969 |
| 150. | Əliyev Ayaz Elman oğlu | 1971 |
| 151. | Zeynalov Osman Bayadur oğlu | 1959 |
| 152. | Rzayev İldırım Barat oğlu | 1970 |
| 153. | Quliyev Şükür Bərxudar oğlu | 1949 |
| 154. | Quliyeva Məxmər Xanlar qızı | 1930 |
| 155. | Hüseynova Qızbəs Mərdan qızı | 1934 |







































## XOCALININ MİLLİ QƏHRAMANLARI

**Əlif Lətif oğlu Hacıyev** - 1953-cü il iyunun 24-də Xocalı şəhərində anadan olmuşdu. 1960-1970-ci illərdə Xocalı orta məktəbini, 1970-1971-ci illərində Stepanakertdə OADKYC nəzdindəki avtomobil məktəbini bitirmişdir. 1971-1973-cü illərdə Minsk şəhərində hərbi xidmətdə olmuşdur. 1974-1984-cü illərdə Belorusiya SSR Daxili İşlər Nazirliyinin və Azərbaycan SSR DQMV Dİİ orqanlarında müxtəlif vəzifələrdə işləmişdir.

1976-1979-ci illərdə M.V.Frunze adına SSRİ DİN-nin Xüsusi Orta Milis Məktəbində təhsil almışdır. 1981-ci ildə təhsilini SSRİ DİN-nin Akademiyasının Leninqrad fakultəsində davam etdirmişdir. 1982-ci ildə xidmət yerini Azərbaycan Respublikasına dəyişməsi ilə əlaqədar təhsilini Akademiyanın Rostov vilayətindəki məktəbində davam etdirmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili İşlər Şöbəsində işləyərkən millətçi ermənilər tərəfindən ona qarşı dəfələrlə təxribatlar edilmişdi. Hətta Əlifə cinayət işi də açılmışdır. Lakin 1988-cı il Dağlıq Qarabağ hadisələrinin başlanması ilə Əlif Hacıyevə qarşı ermənilər tərəfindən edilən qatı cinayətin üstü açılmış, o bəraət qazanmış və öz işinə bərpa edilmişdir.

1990-cı ildə Əlif Hacıyev Xocalıya qayıdır. Dağlıq Qarabağda yaradılmış Təşkilat Komitəsində fəaliyyət göstərir. O, nə qədər ki, Xankəndində işləyirdi, ermənilər ondan çəkinir və onu oradan uzaqlaşdırmağa çalışırdılar, azərbaycanlılar isə sevinirdilər ki, Əlif onların arasındadır.

O vaxt Əlif Hacıyevə çox məsuliyyətli bir iş – Xocalı şəhərində yerləşən hava limanının təhlükəsizliyinin təmin edilməsi tapşırıldı. Həmin vaxtlar Əlif Hacıyevin fəaliyyəti bütün Azərbaycana səs salmışdı. Onun başçılıq etdiyi milis dəstəsi Ermənistandan gələn təyyarələrə nəzarət edir, onlar vasitəsilə daşınan sərnişinləri və yükləri yoxlayırdı, qanunsuz hərəkətlərin qarşısını alırdılar.

Eyni zamanda, gecə-gündüz Xocalının müdafiəsi üçün bütün qüvvəsi ilə çalışırdı. Xocalı faciəsi gecəsi Əlif erməni daşnakları ilə vuruşdu, dinc əhalini müdafiə etməyə çalışdı və xalq, Vətən uğrunda qəhramanlıqla həlak oldu. Əlifın göstərdiyi qəhramanlıq, qorxmazlıq xocalıların xatirəsində əbədi yaşayacaqdır.

O müdhiş gecədə Əlifin qardaşı Süleyman da həlak oldu.

**Tofiq Mirsiayab oğlu Hüseynov** -1954-cü ildə Xocalıda dünyaya göz açıb. Xocalıda orta məktəbi qurtardıqdan sonra Ağdamdakı kənd təsərrüfatı texnikumunu bitirmişdir.

1974-1976-cı illərdə hərbi xidmətini Qazaxıstanın Ayanquz şəhərində keçirmişdir. Hərbi xidmətini bitirdikdən sonra doğma Xocalıya qayıdır. Tofiq ailənin birinci övladı olub. Atası Mirsiyab, anası Minəş övladlarını Vətənə, torpağa məhəbbət hissi ilə tərbiyə etmişdilər. Tofıq hərbi xidmətdən qayıtdıqdan sonra oxuduğu Xocalı məktəbin də hərbi müəllim işləyir. 1981-ci ildə Xocalı Xalq Təhsil şöbəsinin hərbi işlər üzrə inspektoru təyin edilir. 1988-ci ildən başlayaraq Dağlıq Qarabağ məsələsi Qarabağın bütün Azərbaycan kəndləri, o cümlədən Xocalı şəhəri üçün də ağır günlər idi. 1991-ci ildə Tofıq Hüseynovun təşəbbüsü ilə "Xocalı özünümüdafiə batalyonu" yaradılır. Tofiq batalyon komandiri olur. Bir gündə olsa öz evində rahat yatmır. Hər gün döyüş, hər gün Xocalı üzərinə hücüm var idi. Ancaq bütün bünlar xocalıların döyüş ruhunu sındıra bilmədi. Düz 4 il Xocalı özünümüdafiə batalyonunun köməyi ilə müdafiə olundu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecəyə qədər. Xocalı özünümüdafiə batalyonu, onun komandiri Tofiq Hüseynov son nəfəsinədək qəhrəmancasına vuruşdu. Tofıqin göstərdiyi igidlik, sonra isə şəhid olması onun sağ qalan döyüş dostlarını sarsıtdı. Tofıq Hüceynov Azərbaycanın "Milli qəhramanı" adına layiq görüldü. Cəmi 38 il yaşadı. O, bu qısa, lakin mənalı həyat yolu qəhrəmanlıqla başa catdı. O, sanki anadan qəhraman doğulmuşdu. O rnüdhiş gecədə təkcə Tofıq Hüseynov yox, onun ailəsi də – həyat yoldaşı Məxmər, atası Mirsiyab, anası Minəş, qardaşı Bakir faciəli şəkildə həlak oldular. 3 övladı yadigar qaldı Tofıqin: Yasəmən, Əfsanə və Murad. Hər üçü əmisi Akif Hüseynovun himayəsi altında böyüyürlər.

Xocalının bu igid oğlunun məzarı Bakıda Şəhidlər xiyabanındadır.

**İnqilab Ələkbər oğlu İsmayılov** –1962-ci ildə Xocalıda doğulmuşdur. Orta məktəbi Xocalıda bitirmişdi. 1981-ci ildə orduya çağrılır. Hərbi xidməti bitirdikdən sonra doğma şəhəri Xocalıya.qayıdır. Çox çalışsada Xankəndində milis sıralarına daxil ola bilmədi. Bundan sonra İnqilab Xocalıda südçülük-tərəvəzçilik sovxozunda fəhlə kimi işə düzəlir. Fyni zamanda texniki peşə məktəbini, mexanizatorluq ixtisasına yiyələnir.

1988-ci ildə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Oarabağda başlanan mitinqlər vəziyyətin getdikcə ağırlığından xəbər verirdi. 90-cı ildə rayon statusu alan Xocalıda güclü tikinti işləri gedirdi. O vaxtlar xocalılar həm də əhalinin müdafiəsini təşkil etmək üçün gecə-gündüz iş aparırdılar. Bu məqsədlə 1990-cı ildə İnqilab İsmayılov Xocalı polis şöbəsində işə düzəlir. Bu elə vaxt idi ki, hər gün Xocalıya ermənilər tərəfindən hücüm edilir, günahsız insanlar qətlə yetirilirdi. İnqilab o vaxt Xocalı şəhərinin hərbiləşdirilmiş mühafizə dəstəsində fəaliyyət göstərirdi. O, evə gec-gec gəlır. Döyüş postunu bir an belə nəzarətsiz buraxmırdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə rusların 366-cı motoatıcı alayı və erməni-rus hərbiçiləri birlikdə xocalılara divan tutdular. Meşələr, düzlər insan meyitləri ilə dolmuşdu. Sağ qalan xocalılar, o cümlədən İnqilab İsmayılov yaralı-ların və meyidlərin daşınmasında fədakarlıq göstərir, ermənilərdən qisas alacağı dəqiqəni gözləyirdi. Xocalı şəhid şəhər olmaqla əhalisi də şəhid oldu. Bundan sonra İnqilab xocalıların qisasını almaq üçün Ağdam ətrafındakı gedən döyüşlərdə qəhrəmancasına döyüşür. Onun son döyüşü Daşbaşı yüksəkliyində oldu. O yüksəkliyi götürmək üçün İnqilab 25-dək erməni əsgərini məhv etdi, ancaq özü də qəhrəmancasına həmin döyüşdə həlak oldu.

## CEYRAN ANANIN BAYATILARI

Ceyran ana Milli Qəhrəman İnqilab İsmayılovun anasıdır. Ceyran ana həmin müdhiş gecədə oğlunu, nəvəsini və yaxın qohumlarını itirmişdir. Həmin gündən ürəyindəki dərdi öz bayatıları ilə səsləndirən ana oğul dağına dözə bilməyərək dünyasını dəyişmişdir,

Boz dağı gəzməyə gəlin,
Gülləri üzməyə gəlin,

Ay oğul nə gəzirsən,
Qola düymə düzürsən,

Qalxın, atam oğulları,
Məzarım qazmağa gəlin.

Dağda duman yeri var,
Qaşda kaman yeri var,
Bozdağdan əl çəkmərəm
Orda güman yeri var,

Bozdağa gedən gəlməz,
Bilmərəm nədən gəlməz,
Üzülər qatarından,
Çıxar cərgədən gəlməz.

Yaylağın yeri bəlli,
Yeləni- yeli bəlli,
Bozdağda oğlum qalıb,
Hər yanda yeri bəlli.

Gözüm yolda qalıbdı,
Bozdağda nə gəzirsən?

Bozdağdan aqrar başım,
Torpağa damar yaşım,
Nolabir gün görəydim,
Budu gəldi qardaşım.

Elə yaman ağlaram,
Suya sünbül bağlaram,
Oğlum Bozdağda yatır,
Onçun yaman ağlaram.

Bozdağda badam olmaz,
Yeməyə badam olmaz,
Mən oğlumu istərəm,
Paltardan adam olmaz.

Bozdağın qarı mənəm,
Gün vursa, ərimərəm,
Qəbrimi yaxşı qazın,
Cavanam, çürümərəm.

Buxarı quram oldu,
Yandıqca qurum oldu,
Bozdağda düşüb qaldı,
Anana zülüm oldu.

Dumansan, dön aşağı,
Çiskinsən, yen aşağı,
Bozdağda bəsti qaldın,
İndi isə ən aşağı.

Bu yolun yeddi qatı,
Top-top sürülər atı,
Xocalının Bozdağı,
İnqilab amanatı!

## ELİN ZİYALI OĞLU

**Şöhrət Usub oğlu Həsənov**
1944-cu il dekabrın 23-də Xocalıda dünyaya göz açmışdı. İkinci dünya müharibəsinin ağır illərində doğulan Şöhrət atasını erkən itirmiş, anasının himayəsində böyümüşdü. Uşaqlığı müharibədən sonrakı çətin iqtisadi dövrə təsadüf etsə də, o, işləməyə və oxumağa meyilli olub. 7-illik təhsili əvvəlcə Xocalıda, orta təhsili Xankəndindəki Nizami adına 4 saylı məktəbdə bitirdikdən sonra Bakıya gəlir, Neft-Kimya Texnikumunu bitirir. Təcrübə mıqsədilə bir il paytaxtda qahr. Neft buruqlarında işləməklə öz təcrübəsini artıran Ş.Həsənov buruqların birində quyu qazılarkən ustasına həmin quyudan neft yox, qaz çıxacağını təkidlə deyir. Doğrudan da çox keçmir ki, bu quyudan qaz çıxır.

Yeganə övladını Bakıya oxumağa göndərən anasının gözü yol çəkir. Hər gün yuxuda Bakıya gəlir. Bir gün, Şöhrət anasının xəstə olduğu barədə məktub alır. Məktubda yazılır:

Yaram qan verəndə gəl,
Xoruz ban verəndə gəl,
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl,

Şöhrət bayatını oxuyan kimi Xocalıya qayıdır və bundan sonrakı həyatını Xocalıya bağlayır. Qarabağın bu ziyalı oğlunun kökü Qarabağ xanlığının vəziri və qarabağ tarixçisi Mirzə Camal Cavanşir nəslindən gəlir. Bəlkə də soyundan, kökündən irəli gəlirdi bu qədər elinə, mədəniyyətə və torpağa bağlılıq.

Şöhrət Həsənov çox qısa ömür, cəmi 48 il, lakin mənalı və şərəfli həyat yolu keçdi.

Şöhrət Həsənovun həyat fəaliyyətinə və döyüş yoluna nəzər salarkən bu qısa ömür çərçivəsində çalışqanlığı ilə seçilen, fıtri istedada malik olan bir insan, canlı ensiklopediya olduğu göz önündə canlanır. Belə insanlar həyatda uzun ömür sürməsələr də, yaşadıqları qısa zaman çərçivəsində fəaliyyətləri ilə yaddaşlara həkk olunurlar. Onun ən ağrılı yeri Qariabağ idi, çünki boya-başa çatdığı Xocalı torpağının XX əsrdə 3 dəfə yerlə-yeksan olduğunu bilərəkdən böyük narahatçılıq keçirirdi. Həmişə ayıq-sayıq olan, üstündə gəzdiyi torpağı göz bəbəyi kimi qoruyan elin bu ziyalı oğlu xalqı tərəfindən hörmətlə sevilən insan olub. Məlumdur ki, Xocalıda yeganə qəzet olan "Xocalının səsi" qəzeti nəşr edilirdi. Qəzetə adı da Şöhrət vermişdi. Onun işıq üzü görməsində, ardıcıl nömrələrinin çıxmasında bu insanın rolu böyük idi. Ş.Həsənov həmişə deyərdi ki, Xocalının səsini susdurmaq olmaz.

Ermənilər Xcalını məhv etmək üçün həmişə fursət axtarırdılar. Azerbaycanlılara qarşı ermənilər həmişə öz çirkin əməllərini davam etdiriblər. Belə bir fakta diqqət yetirək.

1966-cı ildən sonra onlar Qəhrəman bəyin tut bağından yuxarı, Daşaltı istiqamətində Qala yolunun altında Xocalının ulu qəbiristanlığını dağıdırlar. 1905-1906-cı illərdə Xocalı həmin yerdə yerləşirdi. Ermənilər o vaxt Xocalını tamamilə yandırmışlar. Sonra xocalılar 1-2 km aralıda, indiki Xocalının yerində şəhər saldılar. Qəbristanlıq isə köhnə yerində qaldı. 1966-cı ildə ermənilər həmin dağıdılmış qəbristanlığın yerində ferma tikirlər. O vaxt Şöhrət müəllim bu haqsızlıqlara dözə bilmədi. O, Bakıya, Moskvaya teleqramlar vurur, Bakıdan göndərilən nümayəndə heyətinin tərkibi ermənilərdən ibarət olduğu üçün məsələni ört-basdır edirlər. Ermənilərin yaşadığı Yeni Noragüğ kəndi də azərbaycanlıların qəbristanlığının yerində salınmışdır. Həmin kəndin salınması ilə bağlı Şöhrət Həsənov qəzet və jurnallarda öz yazılarını verirdi.

1986-cı ildə isə ermənilər Xocalıda olan daş kurqan qəbirləri sokübyerində qaraj tikmək istəyirlər. O vaxt Şöhrət bir el oğlu kimi Azərbaycan televiziyasına məlumat verib bildirir ki, Xocalıya tarixçilərin gəlməsi vacibdir.

1988-ci ildə ermənilərin Qarabağda yaratdıqları gizli komitələr Qarabağın Ermənistana verilməsi üçün imzalar toplamağa başlayır və Əsgəran rayonunda geniş bir iclas keçirilir, Əvvəlcə söz alıb Badaranın məktəb direktoru Babayan çıxış edır, Deyir ki, Qarabağ tarixən heç vaxt Azərbaycanın ərazisi olmayıb. Bu məkrli çıxışın sonunu gözləməyən Şöhrət müəllim çıxış edir Babayana Qarabağ bölgəsinin qədim tarixi haqqında dərs verir. Bu vaxt iclasa gələn ermənilər Şöhrətlə əlbəyaxa olurlar. Məhz həmin vaxt Ş.Həsənov 1989-cu ildə "Gənclik" jurnalının 2-ci nömrəsində Dağlıq Qarabağın Azərbaycana məxsusluğunu, ermənilərin buraya sonralar köçürüldüyünü sübuta yetirən "Tariximizin daş yaddaşı" adlı məqalə dərc etdirir.

1989-cu ildə ermənilər 3751 nəfər azərbaycanlını aldadıb bir siyahıya qol çəkdirirlər. Əslində isə bu Qarabağın Ermənistana birləşdirilməsi məsələsi barədə sənəd imiş. Hadisədən vaxtında xəbər tutan Şöhrət müəllim həmin siyahını məhv edir. Əsgəran rayon partiya komitəsinin katibi Qriqoryan xəbəri eşidən kimi Şöhrəti "millətçi" adlandırır və məsələ qaldırır ki, o, Xocalıda tutduğu vəzifədən azad olunsun. Lakin Xocalı camaatı həmrəylik nümayiş tdirib, onun işdən çıxarılmasının qarşısını alırlar.

Məkrli ermənilər yadlarından heç nəyi çıxarmamışdılar. Rayonun mühasirəsi başlayan gündən bütün Xocalı sakinləri kimi Şöhrət Həsənov da milli özünümüdafiə batalyonuna yazılır, gecə-gündüz döyüşür, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə dörd bir tərəfdən mühasirəyə alınmış şəhər 5-6 saat müddətində süqut edir. Şöhrət Həsənov da ağır yaralanır. Yaralı halda ikən ona həmyerlisi Kamal Abışov rast gəlir. Kamal çox məcbur edir ki, birtəhər qalxıb bununla getsin. Lakin o, yerindən tərpənə bilmir, yaralı haida düşmənlərə əsir düşür. Eimənilər onu tutub sağ qolunu və sağ qıçını kəsir, sağ gözünü çıxarmaqla ağır işgəncələrə məruz qoyurlar. Ermənilər Ş.Həsənovu öldürərkən cibindən

ancaq Xocalı əhalisinin siyahısı çıxır. Mənfur düşmənlərimiz həmin siyahının "boyeviklər"in siyahısı adlandırırlar. O müdhiş gecədə Xocalının sakinləri, o cümlədən Şöhrətin yaxın qohumları əsir düşür!.

Şöhrət Həsənovla Kamalın axırıncı görüşündən yadigar qalan bu sözlər oldu: "Get mənim ailəmə de ki, mən qurd-quşa yem olmağımdan qorxmuram. Ancaq mənim meyitimi yağıların tapdağı altında qoymasınlar".

O dəhşətli, müdhiş gecədə Xocalıda qətlə yetirilmiş insanların-qadınların, uşaqların, qocaların meyitləri meşədə, şuma səpələnmiş halda qaldı. Şöhrətin meyitinin axtarılmasında onun həyat yoldaşı Mehriban xanım qız övladları, yaxınları, Xocalının baş həkimi Eldəniz Allahverdiyevin böyük xidməti olmuşdur. Övladları-həkim Almaz, Ruhiyyə Həsənovalar atalarının meyitinin axtarılması zamanı keçirdikləri sarsıntılardan uzun müddət özlərinə gələ bilmədilər. Bir aydan sonra meyit tapıldıqdan sonra Ağdamda Uzundərə deyilən yerdə torpağa tapşırılır. Mehriban xanım həyat yoldaşının qəbrinin orada qalması ilə razılaşa bilmir. Ona görə də ailəsi ilə birgə meyiti çıxarıb Bakıda, Şəhidlər Xiyabanında dəfn edirlər. Ölümündən sonra Şöhrət Həsənov Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunur.

Elin ziyalı oğlu eldən getdi. Əsl vətənpərvər, xeyirxah bir insan idi Şöhrət. Cəmi 48 il yaşadı, lakin ürəklərdə iz qoyub getdi. Bu istedadlı insan həmişə sözündə, bütün yazılarında ancaq və ancaq türkçülüyü, milli adət-ənənələrimizi təbliğ edirdi:

Ankaranın daşına bax,
Gözlərimin yaşına bax,
Erməni türkü əsir alır,
Sən dünyanın işinə bax.

Hər dəfə Şəhidlər Xiyabanında Şöhrət Həsənovun qəbrini ziyarət edərkən bitib-tükənməyən arzularının vaxtsız solduğunu ürək ağrısı ilə hiss edirəm.
Rahat yat, əziz qardaş!

## MƏZARSIZ ŞƏHİD

1956-cı ildə Mirsiyab Hüseynovun ailəsində ikinci oğlan dünyaya gəldi. Qohum-qardaş çox sevindi. İkinci oğlan – adını **Bakir** qoydular. O, uşaqlıqdan özünün ağlı, kamalı ilə seçilirdi. Bakir Xocalıda orta məktəbi bitirib, Ağdam kənd təsərrüfat texnikumuna daxil olur. Texnikumu bitirdikdən sonra hərbi xidmətə çağrıldı. Hərbi xidməti müvəffəqiyyətlə başa vurub doğma Xocalıya qayıtdı. Burada işə girdi. Ata-anasına kömək etməyə başladı. Bir qədər sonra onu Xocalıya avtobazaya mühəndis vəzifəsinə dəvət edirlər.

Bakir işləyə-işləyə sənədlərini Azərbaycan Neft Akademiyasına verir. Birinci kursu bitirib ata-anasının yanına gəlir. Burada o, hamının hörmətini qazanır.

Ağdamda oxuduğu günlərdə gözü tutduğu, bəyəndiyi qızla ailə qurdu. Həyat yoldaşı Nəzakət onunçün hər şey idi. O, özünü xoşbəxt sayır, səadətli günlər yaşayırdı. Tezliklə bir-birinin ardınca iki övladı dünyaya gəldi. Samirə və Samir gül balalar. Həm onların, həm də nənə və babanın dünya sevinci idilər.

Qarabağda 1988-cı il hadisələri başlayanda Xocalıda bir nəfər də olsun öz evini tərk etmədi. Hər gün vəziyyət ağırlaşırdı. Bakir özünümüdafiə batalyonuna yazıl-dı. Özünümüdafiə batalyonunun komandiri olan qardaşı Tofıqlə birlikdə gecə-gündüz döyüşürdü. Həmin 26 fevral gecəsi Bakir səngərdə idi. O, güclü atəşləri, hər tərəfdən mühasirəni görüb tez evə gəlir. Yaşlı atası Mirsayib dayını və anası Minəş xalanı götürüb meşəyə qaçır. Şahidlərin söylədiklərinə görə Bakir çalışırdı ki, atası-anası həmyerlilərindən ayrılmasınlar. Lakin kəskin soyuq havada sürətlə getmək, yaşlılar üçün çətin idi. Soyuq, qoca yaşlı adamları karxdırırdı. Onlar taqətdən düşür, yolda qalırdılar.

Beləcə o dəhşətli, müdhiş gecənin faciəsi Hüseynovlar ailəsinə də ağır faciələr gətirdi. Bakir ermənilərlə atışmada şəhid oldu. Onunla bərabər atası Mirsiyab, anası Minəş, bacısı Elza, qardaşı , batalyon komandiri Tofiq və onun həyat yoldaşı Məxmər də şəhid oldular. Xocalı faciəsi neçə-neçə ailəni beləcə büsbütün məhv etdi. Bakir də bir çox həmyerlisi kimi şəhidlik zirvəsinə ucaldı.

## İLK MƏCBURİ KÖÇKÜNLƏR XOCALIDA MƏSKUNLAŞDILAR

1988-ci il 13 fevral. Həmin gün Qarabağın Xankəndi şəhərində uzun illərdən bəri hazırlanmış mitinq başlandı. Həmin gündən Qarabağın qara günləri orada yaşayan azərbaycanlıların isə didərginliyi ilə başa çatdı. Dağlıq Qarabağda, xüsusən Xankəndində tikilib-yaradılmış nəhəng fabrik və zavodlar öz iş ahəngini itirdi. Bu fabrik və zavodlar 80-cı illərdə tikilmiş, köhnələri isə bərpa edilmişdi. Ən çox azərbaycanların işlədiyi ipək kombinatı, ayaqqabı fabriki, kondesator zavodu və digər müəssələr idi. Mitinqin ilk günlərindən zavod və fabriklərdə işləyən ermənilər işi dayandırıb küçələrə axışdılar. Tətil hərəkatı, Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi vəziyyətinin guya aşağı olması, ermənilərin incidilməsi və s. barədə şüarlar yazıb divarlara yapışdırırdılar. Şüarlarda Dağlıq Qarabağ Ermənistana birləşdirilsin, indiyə qədər Ermənistan bizim sosial-iqtisadi vəziyyətimizi yaxşılaşdırır, belə olan halda biz Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşdirilməliyik fikirləri də səslənirdi.

İlk baxışdan ermənilərin bu hərəkətı, mitinqə belə şuürlu surətdə hazırlaşmaları adamda lap şübhə doğurdu. Dağlıq Qarabağda yaşayan 56 min azərbaycanlının nəzər-diqqəti bu məsələyə cəlb olunmuşdur. Mən o vaxt Xankəndindəki 6 saylı orta məktəbdə müəllimə işləyirdim. Bizimlə birlikdə ermənilər də işləyirdi. O vaxt onlar bizə müəmmalı gələn fikirlər söyləyirdilər ki, bizim azərbaycanlılarla heç bir işimiz yoxdur. Heç bir erməni onlara toxuna, xətirlərinə belə dəyə bilməz. Bununla yanaşı isə azərbaycanlılar iş yerlərinə buraxılmır və əmək haqları verilmirdi.

Dağlıq Qarabağ Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərarı üzrə Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərin qəbul etdikləri qərarlar barəsində SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı verildi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR-in və Emənistan SSR-in sərhədlərinin və Konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün hesab edir. Daha sonra Dağlıq Qarabağda yaranmış vəziyyəti düzəltmək və ciddi nöqsanları aradan qaldırmaq üçün Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət heyətinin və SSRİ Nazirlər Sovetinin qərarlarında Dağlıq Qarabağ Muxtar Vilayətində iqtisadiyyatın, mədəniyyətin daha da inkişaf etdirmək, zəhmətkeşlərin sosial rifahını yüksəltmək üçün böyük tədbirlər nəzərdə tutulurdu. Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR ilə əlaqələrini genişləndirmək üçün lazımi şərait yaradılması planlaşdırılırdı. Bir tərəfdən ermənilərin vəziyyəti yaxşılaşır, digər tərəfdən azərbaycanlılar isə öz evlərində qorxa-qorxa yaşayırdılar.

1988-ci il 18 sentyabr. Dağlıq Qarabağın mərkəzində Xankəndi şəhərində azərbaycanlırlara divan tutuldu. Ermənilər Sabir küçəsi, Kərgicahan, Xocalı istiqamətlərində eyni vaxtda hücuma başladılar. Azərbaycanlılar heç vaxt fikirlərinə belə gətirə bilməzdilər ki, torpağımızda yer verdiyimiz, suyumuzu içən, çörəyimizi yeyən ermənilər bir gün onlara qarşı nankorluq edəcəklər. O gecə çox ağır məşəqqətli bir gecə idi. 16 mindən çox azərbaycanlının taleyi başlı-başına buraxılmışdı, Evləri yandırıldı, əllərinə keçən azərbaycanlılara işgəncə verib öldürürdülər. Bu missiyanı Yerevandan, Sumqayıtdan gələn saqqallılar yerinə yetirirdilər.

Üç gün meşələrdə gecələyən azərbaycanlıların ilk ümid yeri Xocalı Şuşa, Kosalar və Kərkicahan oldu. Bütün Xocalı sakinləri və şəhərin icra başçısı Elman Məmmədov

Xocalıya üz tutan insanları qayğıkeşliklə qarşılayıb onları yerləşdirdi. Elman Məmədovun təşəbbüsü ilə Xocalıda qaçqın və məcburi köçkünlər üçün böyük bir qəsəbə salındı. Xocalıya Xankəndindən məcburi qovulmuşlarla bərabər, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınlar, Özbəkistanın Fərqanə vi-layətindən qovulmuş məshəti türkləri də məskunlaşmışdılar.-1990-cı ildən şəhər statusu almış Xocalı günü-gündən böyüyüb və böyük bir tikinti meydançasına çevrilmişdi. Gecə-ğündüz tikilirdi Xocalı.

Xocalı 1988-ci ildən 1992-ci il fevralın 25-nə qədər Xankəndinin bütünlükdə bütün azərbaycanlı kəndlərindən didərgin düşənlərin ümid yeri idi. Heç vaxt təsəvvürə belə gətirmək olmazdı ki, bir gün Xocalı süqut edəcək.

Beləliklə, Xankəndinin yerli azərbaycanlı sakinləri uzun illər tikib qurduqları, yaratdıqları hər şeydən bir anın içərisində əl çəkməli oldular. 1988-ci ildən 1992-ci ilə qədər Qarabağ münaqişəsi Qarabağın azərbaycanlı kəndlərinin soyqırımı ilə başa çatdı. Xocalıya pənah gətirən ailələr indi də o ağır məşəqqətli günləri ürək ağrısı ilə xatırlayırlar.

**Aidə Rzayeva**. O günləri mən həyəcansız yada sala bilmirəm. Qarabağ münaqişəsi mənim həyatımda ən ağır izlər buraxdı.

Həmin dövrdə mən Xankəndində ayaqqabı fabrikdə işləyirdim. Bir neçə il işlədikdən sonra fabrikin yataqxanasında ev aldım. Onu da qeyd edim ki, azərbaycanlıların fabrikdə işləməsi, qeydiyyata düşməsi çox çətin idi. Çox böyük çətınliklə qeydıyyata düşdüm. Bir il yaşamamışdım ki, ermənilər bizi öz torpağımızdan didərgin saldılar Ermənilərin gecə, yəni 1988-ci il sentyabrın 18-də gecə saat 9-da azərbaycanlılara qarşı hücumu ilk olaraq Sabir küçəsindən başlandı. O, gecə mən öz ailəmlə birlikdə yaxınlıqda yerləşən Eldar dayımın evinə getdim. Bir neçə ailə bir yerə yığıldıq. Müxtəlif yerlərə məlumat verdik. Ancaq o gecə bizim harayımıza çatan olmadı. Hər tərəfdən erməni evlərindən əhatəyə alınmış dayımın evində gecələyə bilmədik. Kosalar meşəsinə üz tutduq. Gecənin zülməti, kömək istəyən insanların səsi, qışqırığı, harayı adamı vahiməyə salırdı. Səhərə yaxın kəndə çatdıq.

Bir neçə gündən sonra hadisələr sakitləşdiyi zaman mən öz evimə geri döndüm. Evimdən heç bir əsər–əlamət qalmamışdı. Ev qarət edilmiş, paltarlarımız, sənədlərim isə yandırılmışdı. Mən evimdən didərgin düşdüm.

Biz Xocalıya pənah gətirdik. Atalar misalı var, deyərlər "Yağışdan çıxdıq, yağmura düşdük". Ermənilər hər gün Xocalını top atəşinə tuturdular. O gecənin hiss həyəcanını yaşayan övladım Nərminə Qasımova şəhid oldu. 6 aylıq körpəm Ceyhun Qasımov ağır yaralandı. Bu hadisələrdə biz insanlar sağlamlığımızı itirdik. Özüm I qrup əliləm. Üz tutub gəldiyim Bakı şəhəri mənim üçüncü pənah gətirdiyim yerdir, ancaq elimizin azad olacağı günü səbirsizliklə gözləyirəm.

**Qəmbərovlar ailəsi** ilə Xankəndində qonşu yaşayırdıq. Çox sakit ailə idi. Hər tərəfdən qonşularımız ermənilər idi. **Qarasalan** kişinin və onun ailəsinin bütün qonşular arasında böyük hörməti vardı. 1988-ci i sentyabrın 18-iə Xankəndində baş verən hadisələr şəhərdə yaşayan azərbaycanlıların hamısını şoka saldı. Eşidilən həyəcanlı səsdən eyvana çıxdım. Qarasalangil tərəfdən güclü yanğın gördüm. Qadınlar, uşaqlar qışqıra-qışqıra ağlayır, haray çəkirdilər. Çox keçmədi ki, bir neçə azərbaycanlı ailəsinin evi yandırıldı. Bu vəhşiliklər qarşısına evı-eşıyı ataraq bamımız meşəyə və Kərkicahan qəsəbəsinə üz tutduq. Evsiz-eşiksiz gecələyən yüzlərlə insan çıxış yolu tapa bilmirdi, sual qarşısında qalmışdı. Doğulduqları yeri bir dəfəlik tərk etsinlər, yoxsa qayda-qanunun bərpa olunmasını gözləsinlər? Nəticədə isə bütün didərginlər Xocalıya pənah gətirəsi oldular.

1988-ci ildən sonra Xocalıda başlanan tikinti və abadlıq işləri erməniləri çox narahat edirdi. Xankəndindən, Ermənistandan və Özbəkistandan qovulrnuş soydaşlarımızın Xocalıda məskunlaşması isə onları daha da hiddətləndirirdi. Bu insanların qarşılanmasına, yerləşdirilməsinə, onların ailə məişət məsələrinin həll olunmasına xocalılar qayğı göstərir və icra başçısı Elman Məmmədov şəxsən nəzarət edirdi.

Bu zəhmətkeş insanların, belə bir gözəl ailənin soyqırımın qurbanı oiacağını fıkirləşmək belə mümkün deyildi. Xocalıda şəhid olan 8 ailənin ikisi Xankəndində yaşayan ailələr idi. Gələn bütün köçkünlər kimi Qəmbərovlar ailəsi də Xocalıda yenidən ev-eşik tikib qurdular, firavan yaşamağa başladılar. Lakin bu firavanlıq uzun sürmədi.

1992-ci il  fevralın 25-dən 26-na keçən gecə- ermənilərin Xocalıya hücumu nəticəsində həlak olanların arasında Qəmbərovlar ailəsi də var idi. Ailənin başçıları Qaraslan və Validə, üzvləri Səfər, Mətanət, Emin, Esmira, və Nad:r Qəmbərovlar faciənin qurbanı oldular. Yalnız Rauf və bacısı bu ailənin yadigarı kimi qalmışlar.

**Məmmədov İbad Əliş** oğlunun ailəsi Xankəndində Martuni küçəsində, 46 saylı evdə yaşayırdı. Öz ailəsi, övladları və nəvələri ilə firavan ömür sürən İbad Məmmədov ağlına gətirə bilməzdi ki, ömrünün ahıl çağında başı belə müsibətlər çəkəcəkdir. Həyat yoldaşı Səltənət, qızları Şövkət, Mətanət hardan biləydilər ki, bunların müsibətli günləri irəlidə imiş. Həmişə mehriban qonşu hesab etdikləri ermənilər nankor çıxdılar. Duz-çörəyi itirdilər. 1988-ci il 18 sentyabr faciəsi zamanı Məmmədovlar ailəsinin də evləri yandırıldı. Özləri isə didərgin düşdülər. Ümid yeri Xocalıya gəldilər. İbad Məmmədov həyat yoldaşı Səltənət qızı Şövkət, Mətanət hərəsi öz ailəsi ilə birlikdə yeni ev tikdilər. Xocalıda açılmış fabrik və zavodlarda işə düzəldilər, işlədilər. Bağ saldılar, bostan əkdilər. Bərəkətli Xocalı torpağına təbiət hər şeyi bəxş etmişdir.

İbad kişi, hardan biləydilər ki, Böyük Vətən Müharibəsindən sağ-salamat öz Vətəninə geri dönəcək, ancaq öz məmləkətində başına dəhşətli fəlakətiər gələcəkdir. Hər şey İbad Məmmədovun gözləri önündə baş verirdi. İbad kişi bu məşəqqətlərə dözə bilmədi və Xocalı hadisəsindən 4 ay qabaq qəflətən dünyasını dəyişdi. Fevralın 25-dən 26-na keçən gecə bütün xocalılar kimi İbad kişinin ailəsi də meşəyə üz tutdu. O dəhşətli gecədə İbad Məmmədovun ailəsindən həyat yoldaşı Səltənət, oğlu Arif, qızları Şövkət, Mətanət nəvələri Səbuhi, Səlim, Cahangir oğlu, Samir Cəfər oğlu həlak oldular. Məzarları yoxdur.

**Məmmədov Arif İbad oğlu** Xankəndində doğulmuşdu, uşaqlığı və gəncliyi burada keçmişdi. Təbiətcə çox sakit insan idi və Bərdədə tanınan, hörmətli Ələsgər kişinin qızı, özü kimi sakit Məlahət xanımla ailə qurmuşdu. Onların 2 övladı dünyaya gəlmişdi. Fatima və Fuad. Ancaq onları axıradək böyütmək Arifə qismət olmadı.

Xankəndindən ermənilər tərəfindən didərgin salınan digər azərbaycanlı ailələri kimi Arif də Xocalıya pənah gətirdi. İşə başladı. Xocalı Toxuculuq kombinatında sürücü işlədi. Elə Xocalıya gəldiyi gündən könüllü olaraq özünümüdafiə batalyonuna yazıldı. Hamı kimi o da gözləyirdi ki, Ermənistanın elan edilməmiş savaşı başa çatacaq, o da canından əziz sevdiyi balaları Fatimə və Fuadın əlindən tutub, xanımını götürüb doğma ata-baba yurdu – Xankəndinə dönəcəkdir.

26 fevral 1992-ci il. Ermənilər bütün istiqamətlərdən Xocalı üzərinə hücuma keçdilər. 5-6 saat ərzində şəhər yerlə yeksan edildi, vəhşiləşmiş ermənilər körpəyə, qocaya rəhm etmədi. Həmin gecədə qətlə yetirilən 613 nəfərin meşələrə, düzənliyə səpələnmiş meyidləri arasında Arif Məmmədov da var idi. O, gecə ağır yaralanan Arif qəhrəmancasına həlak oldu.

O, gecə Arif əzizlərindən, ailəsindən, anasından və bacılarından ayrı düşdü, 10 ildən çoxdur ki, ailəsinin, övladlarının gözü yoldadır. Qarabağ torpağının azad olunacağı günü gözləyir övladları. Gözləyirlər ki, atasının doğulduğu, böyüdüyü, gəzdiyi yerləri, onun Ağdamda Şəhidlər xiyabanındakı qəbirini ziyarət etsinlər. Təəssüf ki, Ağdam da 1993-cü ildən ermənilərin işğalı altındadır.

Məlahət xanım övladları Fatimə və Fuada ataları Arif haqqında, onun Xocalının müdafiəsində keçdiyi şərəfli yoldan danışır. Arif xatirələrdə yaşayır...

**Quliyev Oqtay Gülməmməd  oğlu** 1970-ci ildə Xankəndində doğulmuşdu. Orta məktəbi Xankəndindəki Nizami adına 4 saylı məktəbdə bitirmişdir. Rusiyanın Saratov şəhərində hərbi xidmətini başa vurduqdan sonra doğma şəhəri Xankəndinə qayıtdı. İşlədi. İşləyə-işləyə təhsilini davam etdirmək istəyirdi. Lakin məkrli qonşularımızın nankorluğu ucbatından təhsilini davam etdirə bilmədi.

Xankəndində "Kərpiçli məhəlləsi" deyilən yerdə yaşayırdılar. Ailədə 4 qardaş idilər. Haqqında söhbət açdığım Oqtay bu evin böyük oğlu idi. Atası Gülməmməd kişi həmişə oğlanları ilə fəxr edirdi. Vətənə məhəbbət, torpağa məhəbbət ruhunda böyüdürdü övladlarını. 1988-ci ildə başlanan Qarabağ oyunu hamı kimi bu yeniyetmələrin də həyatında ağır izlər buraxdı. Xankəndində yaşayan Oqtay, Rəsul kimi yeniyetmələrin hamısı öz

torpağının vurğunu idilər. Elə bu səbəbdən də 1988-ci il 18 sentyabr hadisəsindən sonra Xankəndinin azərbaycanlıları öz ata-baba yurdlarından didərgin düşdülər. Evləri yandırıldı, əmlakları isə qarət edildi.

O müdhiş gecədən bir neçə gün sonra Gülməmməd kişi Şuşaya gəlir və qərara alır ki, Xankəndinə qayıdana qədər burada yaşasın. Doğma yurddan, eldən uzaqlaşmaq ona çox çətin idi. Ailə müvəqqəti olaraq Şuşada məskunlaşdı

Şuşa 1988-ci ildən 1992-ci ilə kimi həm yerli əhali, həm də Şuşaya pənah gətirilənlər tərəfindən ləyaqətlə qorunurdu. Oqtay Quliyev də bu Şuşanın müdafiəsində, döyüşlərdə cəsarətlə iştirak edirdi. Şuşa hər gün Xankəndi istiqamətdən ermənilər tərəfindən toplardan, reaktiv qurğulardan atəşə tutulurdu. Şuşanı bu təhlükədən qurtarmaq məqsədilə sərt şaxtalı bir gündə, 1990-cı il yanvarın 25-də Daşaltı əməliyyatı keçirildi. Bu döyüş Şuşanın müdafiəsində ən çətin anlardan oldu, ağır itkilər verəsi olduq, say seçmə igid oğullarımız, o cümlədən Oqtay Quliyev şəhid oldular.

**Ouliyev Rəsul Gülməmməd oğlu** 1965-ci ildə "Xankədində doğulmuşdu. Orta məktəbi orada bitirmişdir. Yuxarıda haqqında danışdığım şəhid Oqtay Quliyevin qardaşıdır. Rəsul Şuşanın müdafiəsində mərdliklə iştirak etmişdi. O, Şuşaya atılan mərminin partlaması nəticəsində ağır yaralanmış və şəhid olmuşdu. Məzarı Şuşadadır.

**Əliyeva Sara Asif qızı** 1964-cü ildə Xankəndində doğulmuşdu. Orta məktəbi başa vurduqdan sonra Pyatiqorski Xarici Dillər İnstitutunu bitirmişdi. Təyinatla Xankəndinə işə göndərilmişdi. 1983-cü ıldə Almaniyanın Drezden şəhərində təhsilini davam etdirmiş, 2 il orada oxuduqdan sonra Vətəninə qayıtmış, Xankəndində müəllimə kimi fəaliyyətə başlamışdı. Müəllimlik fəaliyyəti onu daha çox elmi axtarışa, tədqiqata cəlb etmişdi. Odur ki, təhsil aldığı ali məktəbin aspiranturasına daxil olur və Xankəndindəki Pedaqoji institutda öz ixtisası üzrə dərs deyirdi.

Elmi-tədqiqat işi Sara xanımın məşgul olduğu əsas sahə idi. Öz biliyi, bacarığı, fərasəti ilə seçilən xanım idi. Bitib, tükənməyən arzuları böyük idi. Çalışırdı ki, tədqiqatını tezliklə başa çatdırsın. Elmi işlə bağlı növbəti dəfə 1990-cı ildə Bakıya gəlir və işlərini səhmana saldıqdan sonra Qarabağa qayıdır. Ağdam-Şuşa yolu bağlı olduğundan azərbaycanlılar yeganə nəqliyyat vasitəsi kimi vertolyotdan istifadə edirdilər. 28 yanvar 1990-cı ildə ermənilər tərəfindən Qarabağ səmasında vurulan vertolyotda 47 nəfər faciəli səkildə həlak oldular. Sara xanım da həminvertolyotda idi. Qarabağ elinin ziyalı qızı beləcə şəhid oldu. Məzarı Şuşadadır.

**Rəşidov Adil Məhəmməd oğlu** 1941-ci ildə Xankəndində anadan olmuşdu. Mühasibat texnikumunu bitirmişdi. Xankəndi Şəhər Sovetində təftişçi-mühasib işləyirdi. 1988-ci il 18 sentyabr hadisəsindən sonra Adil öz ailəsi ilə birlikdə Bakı şəhərinə gəlir. Lakin sonradan o, doğulduğu elə yaxın olmaq üçün Xocalıya köçməyi qərara alır. 1991-ci ilin avqustunda Adil öz ailəsi ilə Xocalıya pənah gətirir. Xocalıda işləməyə başlayır. Lakin Xocalıda heç bir il də yaşamaq ona nəsib olmadı.

1992-ci ilin o müdhiş gecəsində, ermənilərin hücumundan daldalanmaq üçün Adil ailəsi ilə birlikdə evin zirzəmisində gecələməli olurlar. Əsirlikdən qayıdan Cəlil kişi söyləyir ki, həmin gecə zirzəmidəki insanlar səhər açılanda şəhərdəki dağıntını görüb dəhşətə gəlirlər. Adil və oğlu Nazim ilə Xocalının küçələrində ermənilərə rast gəlirlər və təslim olmaq istəmirlər. Adilin nifrətlə ermənilərə hücum çəkməsi, oğlu Nazimin də atasına kömək çıxması ata-balanın qətlə yetirilməsi ilə nəticələnir. Fevral ayının 25-i Rəşidov Nazim Adil oğlunun ad günü idi, lakin 20 yaşı tamam olan bu gəncin arzuları nakam qaldı.

## ATAMI, ANAMI GÖZLƏYİRƏM

İndi Xocalıdan olan uşaqların hansı birindən soruşsan, ağlı kəsən hər kəs o müdhiş gecənin dəhşətlərindən danışacaqdır. Onlar eyni zamanda həmin gecə həlak olmuş

yaşıdlarının da adından danışmaq ixtiyarına malikdirlər. Ən ağrılı isə həmin gecə valideynlərini itırmış uşaqları dinləməkdir. Hər iki valideyini itirmiş 25 uşağın hamısının taleyi eynidir. Onlardan biri də **Xəlilova Həmayıl Tahir qızıdır**.

Xocalı hadisəsindən sonra Bakı şəhərinə gələndən sonra bu uşaqla görüşdüm. O vaxt onun 6-7 yaşı olardı. Ancaq düşüncəsi, danışığı adamı kövrəldirdi. Sən demə, bu uşaq bir anda belə o faciəli gecəni unuda bılmır. Həmayılın dediklərindən:
"Biz üç bacı idik. Həmin günlər mənim yaddaşıma əbədi həkk olunub. Bız ailəmizlə birlikdə meşəyə qaçdıq. Atam mənim əlimdən tutmuşdu. Bacımın birini anam, birini isə nənəm götürmüşdü. Bir az keçmışdık ki, uşaqlar ağlamağa başladılar. Atılan mərmilərdən gecə elə bıl aydın səhərə çevrilmişdi. Atılan mərmilər, güllələr göydən yağış kimi yağırdı. Xeyli getmişdik ki, anamdan, nənəmdən ayrı düşdük. Mən atamın əlindən tutmuşdum. O gecə elə bir təbiət qan ağlayırdı. Meşəyə çoxlu qar yağmışdı. Şaxta adamı kəsirdi. Atam gah mənim əlimdən tutur, gah da döyüşürdü. Biz səhər açılana qədər qaçdıq. Hündür bir təpənin üstündə ermənilər atamı güllə ilə vurdular. Atam yıxıldı. Mən atamın yanında oturdum. Atamdan soruşdum ki, ağrıyan yerin varmı, mənə "Matı" deyərdi, dedi: "Yox, Matı, heç bir yerim ağrımır". Atam uzanıqlı halda qalmışdı. Bizə yaxın olan Kamal dayı ona kömək etmək istədi. Ancaq o, ayağa dura bilmədi. Atam xahiş etdi ki, bu uşağı apar. Mən atamdan bir az aralanmışdım ki, atam məni geri çağırdı: "Mənimlə görüşməmiş gedirsən?" O mənim üzümdən sonuncu dəfə öpüb dedi ki, Matı balası get, mən də gələcəyəm. Bu mənim atamla son vida görüşüm, son atalı anlarım idi."

Həmayıl danışır, həyacanımı boğa bilmirəm. Axı uşağı necə ovundurmaq olar. Uşağı atası ya da anası ovundura bilər. Heç kəsin nəvazişi ata-ana nəvazişini əvəz edə bilməz...
Sən böyü, başa çat Həmayıl. Sən yaşadıqca, valideynlərinin də xatirəsi yaşayacaqdır. Sən təkcə özünün yox, itirdiyin doğmalarının da əvəzinə yaşamalısan. Biz torpağımız uğrunda mübarizə aparmaq üçün yaşamalıyıq, xatirələrimizi yaşatmalıyıq.
Bu da bir taledir. Sənin xoşbəxt günlərin qarşıdadır.

## ANA DÖZÜMÜ, ANA QƏTİYYƏTİ

Qarabağın qədim yaşayış məskənlərindən biri olan Xocalıda Xəlilovlar ailəsini tanıyanlar çox idi. Böyük hörmətləri, məhəbbətləri ilə insanların yaddaşında qalmışlar. 1988-ci il "Qarabağ oyunu", Ermənistanın elan olunmamış müharibəsi, hamı kimi Həsrət ananı, Qaçay əmini də narahat edirdi.

Qaçay Xəlilov, onun oğlanları Tahir, Yaşar, kürəkəni Rəşid ilə birlikdə özünümüdafiə batalyonda döyüşürdülər. 1992-ci il fevralın 25-dən 26–na keçən o müdhiş gecəni hər bir Xocalı ailəsi öz gözü ilə yaşadı. Həmin gecəni ağır xatirələrlə yaşayan, faciədən yan keçməyən həmsöhbətim Həsrət anadır. Üzünə baxdıqca elə düşünürsən ki, on il bundan əvvəlki hadisə lap elə indicə baş verir.

Danışır, danışdıqca xəyalı itirdiyi əzizləri ilə bırlikdə o yerlərə yenidən səyahət edir.

**Həsrət Xəlilova**: "Gecə saat 11 idi. Birdən evlərimiz hər bir tərəfdən atəşə tutuldu. Özümüzü meşəyə atdıq. O gecə elə qar yağmışdı ki, şaxta qılınc kimi adamı kəsirdi. Arxadan atılan güllələr, top atəşi bizi bir-birimizdən ayrı saldı. Həyat yoldaşımdan, oğlumdan, gəlinimdən ayrı düşdüm. 20 günlük körpə qız uşağını belimə aldım. 4 yaşlı Lalə nəvəm isə gəlinim Zərifədə qaldı. Böyük nəvəm Həmayıl isə atası Tahirin əlindən tutmuşdu. Bir az keçməmişdi ki, ayağım sürüşdü. Bir də gördüm uşaqla birgə dərənin dibinə düşmüşəm. Bundan sonra hamımız bir-birimizi itirdik. Qadınların, uşaqların, qocaların naləsi, çığırtısı yeri-göyü lərzəyə salmışdı. Qaranlıq gecə, soyuq, qalın meşə, hər tərəfdən əli avtomatlı birləşmiş rus-erməni qoşunu və onlara qoşulmuş muzdlular bizi qırırdılar. O gecə göydən yerə yağan qar qana boyanmışdı. Səhərə qədər yol gəldik. Ağdamlılar bizə köməyə

gəl-mişdilər. Belimdəki uşaq acından qışqırırdı. O ağladıca mənə elə gəlirdi ki, bu körpənin nə atası, nə anası gələcək, bunu sən böyüdəcəksən Həsrət...Həsrət...Həsrət!

Ağdama çatana qədər mən bu fikirlərdən ayrıla bilmirdim. Ağdama çatdım. Lakin ah-vaylı günlərim bundan sonra başladı. İtkinlərimiz, şəhidlərimizi nə deyib çağırım heç özüm də bilmirdim. Bir neçə gün keçdi. Gəlinimdən xəbər tutdum ki, erməni cəlladları onu güllələmişlər. 4 yaşlı qızı Lalə isə adyal götürüb anasının üstünə örtür ki, rahat yatsın. Ermənilər kənardan bunu müşahidə edəndən sonra uşağı da güllələyirlər. Sonra xəbər tutdum ki, ermənilər həyat yoldaşım Qaçay Xəlilovu da güllələmişlər. Onlar meyidlərin başının dərisini soymuş, gözlərini çıxarmış, bədənlərini eybəcər hala salmışdılar. Beləliklə mən ən yaxın, ən əziz adamlarımı itirdim. Bir neçə gündən sonra, yəni martın 9-da oğlum Tahirdən xəbər gəldi ki, qızı Həmayilin əlin-tutub getdiyi yerdə avtomatdan açılmış atəş nəticəsində ağır yaralanmış, 6 vaslı uşağın yanında oturub elə bil ki, kimsə gözləyirmiş ki, uşağı ondan yola salsın. Kamala rast gəlır uşagı ona verır".

Beləcə, Xəlilovlar ailəsi belə bir ağır faciəni yaşamalı olublar. Həyat yoldaşını, oğlunu, gəlinini, iki qız nəvəsini, kürəkənini itirən Həsrət ananın fikri həmişə faciələrlə yaşayır.

Xəliloviar ailəsindən şəhid olanların məzarı Ağdamda şəhıdlər xiyabanındadır. O da erməni tapdağı altındadır. Bütün bunların hamısı ən ağır faciədir.

## ƏSİRLİK İZTİRABLARI

1. **Abbasov Salman Məşədi oğlu** 1940-cı ildə doğulub.

"Pircamal kəndində ermənilər bizi girov götürdülər. Heç bir səbəb olmadan dinc adamları - bacım Abbasova Məryəm Məşədi qızını, gəlinim Abbasova Gülzar Gülalı qızını (8 aylıq hamilə idi) və digər 25 adamı avtomatla güllələdilər. Bizi kəndin mal tövləsinə apardılar. 7 nəfər cavan oğlanı qarşıya çıxararaq gözümüzün qarşısında güllələdilər. Onlardan dördü məshəti türkü, üçü isə azərbaycanlı idi. Gündə ikı dəfə bizi ağacla, avtomatın qundağı ilə döyürdülər. İki nəfər yaralı (adını demir) döyülərkən öldürüldülər.

Əsgəran rayon hebsxanasında erməni əskəri avtomatın qundağı ılə vuraraq dörd sağ qabırğamı sındırdı. Bir erməni avtomatın qundağı ilə donub qaralmış ayaq barmağıma elə bir güclü zərbə endirdi ki, iki barmağım ayağımdan qoparaq ayrıldı. Həmin anda huşumu itirdim".

2. **Salmanov Məhəmməd Adışirin oğlu** 1952-ci ildə anadan olub.

"Hadisənin səhəri günü, 1992-ci il fevralın 27-de meşə ilə Ağdam istiqamətində gedərkən ermənilər məni tutdular. Avtomatın qundağı, təpiklə, yumruqla yıxılana qədər döydülər... Ermənilərdən biri soruşdu ki, yoldaşın necə oldu? Mənimlə birlikdə qaçan Xocalı sakiniTahirlə meşedə bir-biriınizi itirmişdik. Dedim ki, onu məndən qabaq tutdunuz, siz bilərsiniz. Erməni silahlılarından biri "Bax, gör budur?" deyib kolluqdakı meyidi mənə göstərdi. Mən göstərilən yerə baxanda Tahirin meydini gördüm. Onun meydini eybəcər hala salmışdılar, başını, qulaqlarını və digər orqanını kəsmişdilər."

3. **Hümbətov Cəlil Hümbətəli oğlu** 1934-cü ildə anadan olmuşdur.

"Xocalı soyqırımı zamanı oğlum Muğan və gəlinim Südabə Rəşid qızı, eləcə də həyat yoldaşım Firuzə və qızım Simuzəri ermənilər gözlərimin qarşısında güllələyib öldürdülər."

4. **Abbasov Qədim Məmmədvəli oğlu** 1942-ci ildə anadan olmuşdur.

"1992-ci il fevralın 26-da 150 nəfərə yaxın Xocalı sakini ilə bərabər Əsgəran rayonunun Dəhrəz kəndində ermənilər tərəfindən girov götürülmüşdür. Onları kəndin fermasına yığaraq üstlərində axtarış aparmış, qadınların qızıl əşyalarını, kişilərin isə pul və silahlarını yığmışdılar.

Fevralın 28-də qadın və uşaqlar azad edilərək Ağdama yola salınmış, kişilərdən 20 nəfəri seçilərək Xankəndi həbsxanasına göndərilmişdir. Həbsxanada qaldığı 46 gün ərzində Q. Abbasov digər xocalılarla birlikdə mütəmadi işgəncələrə məruz qaldığından ayağının biri

iflic olmuş., hərəkətdən qalmışdır. Qeyd etdiyinə görə hər gün saat 21 radələrində beş-altı erməni hərbçisi kameraya girib avtomat və tapança qundağı, ağac və rezin dəyənəklə gecə saat 04.00 radələrinə qədər girovları amansızcasına döyüb incitmişlər".

5. **Kərimov Əbülfət Rəşid oğlu** 1960-ci idə anadan olub.
Abbasov Qədimlə bir kamerada saxlanılmışdır və onun işgəncələrlə bağlı dediklərini təsdiq edir. İşgəncələr zamanı onun əl barmaqları və qabırğalarının çoxu sındırılmışdır. Ona 10 ədəd iynə vurmuşlar ki, onların təsirindən Kərimovda hal-hazırda ürəkgetmə və əsəbilik yaranmışdır.

6. **Nəcəfov Vüqar Əli oğlu** 1960-ci ildə anadan olub. "Bizimlə birlikdə girov götürülən qadınlara, uşaqlara ağsaqqallara işgəncələr verdilər, yanımızda Əhməd adlı məshəti türkünün başını kəsdilər. Sonra məni Xankəndinə aparıb bir tövlədə zəncirlə bağladılar. Tez-tez məni lomla döyürdülər. Bədənimin bir neçə yerinə bıçaq zərbəsi vurdular".

**7. Məhərrəmov Murad Cəmil oğlu.** "Naxçivanik kəndinə yaxınlaşanda hava işıqlaşdı və ermənilər camaatın çıxdığını gördülər. Naxçivanik yolunu BTR-lə kəsdilər. Demək olar ki oradakı camaatın çoxu qadın və uşaqlar, qocalar idi. Buna baxmayaraq ermənilər vəhşicəsinə bizi dörd tərəfdən güllə yağışına tutmuşdular. Ölənlərin sayı-hesabı yox idi... Faciədən sonra biz vertolyotla meyidləri götürməyə gedəndə qadınları körpə uşaqla qucağında güllələnmiş, bəzilərinin əzaları kəsilmiş olduğunu gördük. Kişilərin bir çoxunun sifətləri işgəncəyə məruz qalmış, onların qulaqları burunları və barmaqları kəsilmişdi. Hətta Təvvəkkül adlı birinin ayaq və əllərini məftillə bağlayaraq yandırmışdılar".

**8. Sadıqova Züleyxa Şahmalı qızı** 1947-ci ildə anadan olub.
"Əsgəran rayon milis şöbəsinin təcridxanasında saxlanarkən ermənilər bizə işgəncələr verirdilər. Onlar bizi döyür, təpikləyir, təhqir edirdilər. Əsirlərə tanımadığımız zəhərləyici dərmanlar verirdilər".

**9. Usubov Ramiz Hüseyn oğlu** 1943-cü ildə anadan olub. "Xankəndi təcridxanasın da bizi ac-susuz saxlayır, hər gün döyürdülər. Mənimlə birlikdə saxlanılan Aslanov Qəyyumun qızıl dişlərini çıxardılar. Boyu uzun adamları diz çökməyə məcbur edirdilər ki, təpik ağızburnuna yaxşı çatmır. Əsirlikdə saxlanılan bir nəfər güllə yarası almışdı, yarası soyuqladı, baxımsızlıqdan vəfat etdi".

**10. Ağayarov Yunis Behbud oğlu** 1930-cu ildə anadan olmuşdur.
"Məni Əsgəran milis şöbəsində paltarsız, ac susuz saxlayır, bir tikə çörək verəndə də onun üstünə tüpürürdülər. Hər gün bizi taxta və rezin dəyənəklə döyürdülər. Orada saxlanılan girovlara guya soyuq-dəyməyə qarşı iynələr vururdular. Sonra onların hamısı vəfat etdi. Mənim və Allahverdiyev Mirzənin qızıl dişlərini adi çəngəllə çıxartdılar, yumruqla vurub qalanlarını qırdılar. Xocalıda yaşayan Cabbar kişinin oğlu və qızı da girov idi. Oğlan namus üstündə erməniyə cavab qaytardığına görə yerə yıxıb başını kəsdilər. "

**11. Hacıyev Qənahət Məhəmmədəli oğlu** –1937-ci ildə anadan olub.
"Bizim yanımızdan 13 nəfər oğlanı seçib apardılar. Xankəndi milis şöbəsində ermənilər bizi ac-susuz, şüşəsi olmayan otaqlarda paltarsız saxlayırdılar. Demək olar ki, hər gün müsəlman olduğumuzu bəhanə edərək rezin dəyənəklə, çəkmələrin dabanı ilə başıma döyür, mismarlı taxta ilə bədənimə, əllərimə vururdular. Ayaqlarımda işgəncənin izləri qalıb. Mənimlə saxlanılan Abbasov Qədimi, Abbasov Elbrusu, Yusifov Ramizi də eyni qaydada döyüb işgəncə verirdilər. Xankəndindəki beşmərtəbəli bir binanın zirzəmisində saxlanarkən mənim yanımda sərxoş ermənilər təxminən 15-16 yaşlarında bir oğlanın qolunu kəsdilər, sonra isə bıçaqla öldürdülər. Bir qadının da qarnını kəsib diri pişik saldıqlarını gördüm".

**12. Nağıyev Məhəmməd Ağalar oğlu** 1953-cü ildə onadan olub.
"Mənimlə birlikdə saxlanılan 13 nəfəri çıxarıb biz saxlanılan binadan bir az aralıda onlara avtomatdan atəş açdılar".

**13. Paşayeva Kubra Adil qızı** 1938-ci ildə anadan olub.
"...Kətik meşəsinə girəndə sol qolum və qıçımdan güllə yarası aldım. Ermənilər bizi tam mühasirəyə almışdılar. Mən kolluqda gizləndim və öz gözlərimlə həyat yoldaşım Paşayev Şura Tofiq oğlu, oğlum Paşayev Elşad Şura oğlunun ermənilər tərəfindən avtomat silahla öldürüldüyünü gördüm. Sonra bizi girov götürərək Əsgəran milis şöbəsinin zirzəmisində yerləşdirdilər. Həmin gecə 30-40 nəfərə yaxın əsir düşmüş Milli Ordu əsgərinin kəsilmiş

başları indi də gözümüzün qabağındadır. Zirzəmidə olduğum müddətdə ermənilər cavan qız və gəlinlərin başlarını divara vurab huşsuz vəziyyətdə yaxın qohumlarından ayırırdılar. Susuz qalan uşaqlara su vermirdilər. Hamını ac saxlayırdılar. Hər axşam öldürmək məqsədi ilə gəncləri seçib aparırdılar".

**14. Abışov İntizam Niyaz oğlu**

1970-ci ildə anadan olmuşdur.

"Əsgəran rayon milis şöbəsində girov saxlandığım vaxt ermənilər tərəfindən dəfələrlə işgəncələrə məruz qalmışam. Belə ki, ermənilər sərxoş vəziyyətdə kameraya girib heç bir səbəb olmadan hamını, o cümlədən məni rezin dəyənəklə huşumu itirənədək döyürdülər. Sonra şaxtada üstümüzə soyuq su töküb ayıldır, təzədən döyürdülər. Bizi soyuq otaqlarda ac-susuz saxlayırdılar. Mənimlə birlikdə olan Xocalı sakinləri – qardaşlarım İlham və İlqar, Səadət və İbrahim kişini də eyni qaydada döyüb işgəncələr verirdilər ".

**15. Abışov İlqar Niyaz oğlu** 1964-cü ildə anadan olub.

"Bizi Əsgəran milis şöbəsinə gətirdilər. Bizdən əvvəl orada Natiqin olduğunu gördük. Ermənilər Natiqi döyərək bədən xəsarəti yetirmişdilər. Səkkizinci gün erməni nəzarətçisi nəfəslikdən qardaşım İlhama dedi ki, sən xoşuma gəlmirsən, başını çıxar. Qardaşım başını çıxardanda vurub yardı. "

**16. Hüseynov Elgiz Çingiz oğlu** 1978-ci ildə anadan olub.

"Bizi kəndin mağazasına yığarkən əlavə adamlar da gətirdilər. Onlardan 3 nəfər bakılı əsgər, Ələsgər müəllim və Həsən yadımdadır. Həsəni yaralı olmasına baxmayaraq Maksim adlı bir erməni yaman döyürdü. Xankəndindəki xüsusi məktəbin binasında olarkən Əsgəranın hərbi komissarı, kapitan rütbəli üstümüzdəki qızılları hədələyərək aldı. O, bizi tez-tez döyürdü. Vidadi adlı girovu erməni qəbirstanlığına apardılar və sonra gəlib bizə onun başını kəsdiklərini dedilər."

**17. Allahverdiyev Mirzə Saleh oğlu** 1952-ci ildə anadan olub.

"Girov düşən kimi ermənilər məni avtomatın qundağı ilə, təpiklə möhkəm döydülər. Bir erməni daşla başımdan elə vurdu ki, huşumu itirdim. Ayılarkən özümü tualetdə suyun içində gördüm. Oradan məni bayıra çıxarıb yenidən dubinka, təpik və ağacla bərk döyüb, təxminən 12 nəfərə qədər xocalıların saxlandığı kameraya saldılar. Orada mən Əsgəran milis şöbəsində olduğumuzu bildim. Əsgəran milis şöbəsində məni döyərək qabırğalarımı qırdılar, qızıl dişlərimi yumruqla yerə töküb qalanlarını bıçaqla çıxardılar. Bizi Əsgəranda bir neçə gün aç-susuz saxladıqdan sonra Əsgəran rayonunun Noragüğ kəndindəki birmətəbəli evin zirzəmisinə apardılar. Həmin zirzəmidə bizdən başqa adam yox idi. Bir gün qaranlıq soyuq zirzəmidə ac-susuz qaldıqdan sonra bizə döşək əvəzinə saman verdilər. Hər gün günortadan sonra iki-üç erməni gəlib bizi bir-bir çölə çıxarıb vəhşicəsinə döyürdülər. Həmin işgəncələrin izləri mənim döş qəfəsimdə, əlimdə və başımda qalıb."

**18. Məmmədov Suren Heydər oğlu** 1942-ci ildə anadan olub.

"Əsirlikdə olduğum müddətdə çoxlu sayda azərbaycanlının ermənilər tərəfindən öldürülməsinin şahidi olmuşam."

**19. Əzizov Arif Qüdrət oğlu** 1956-cı ildə anadan olub.

"Ermənilər əsirlikdə atamı döyüb gözlərini kor etmişlər, kürək nahiyəsindən güllə vurmuşlar. Bunun nəticəsində atam 1995-ci ildə vəfat etmişdir.

**20. Aslanov Qəyyum Bəhram oğlu** 1939-cu ildə anadan olub.

"Xankəndi milis şöbəsinin təcridxanasında əsir saxlandığım müddətdə erməni hərbiçiləri tərəfindən hər gün vəhşicəsinə döyülərək təhqirlərə məruz qalmışam. Erməni hərbçiləri tərəfindən çəngəllə ağzımdan 4 dişim çıxarılmış, 8 qabırğam qırılmış, baş sümüyümdə çat əmələ gəlmişdir. Əsirlərin bəzilərini yara basmışdı. Çox pis şəraitdə saxlanırdılar. Ermənilər hərbi çəkmələrini əllərinə geyib onunla əsirləri döyürdülər. O dərəcədə döyürdülər ki, sağ qalmağımıza inanmağımız gəlmirdi. Onlar bütün bunları qaranlıqda edirdilər".

**21. Səlimova Nənəş Səməd qızı** 1930-cu ildə anadan olub.

Xocalının işğalı zamanı üç oğlu - Fəxrəddin, Araz, Mikayıl, qızları - Şəhla, Xumar və həyat yoldaşı Səlimov Bahadır Mikayıl oğlu faciədən qurtara bilməmişlər. Bahadur oğlu Mikayılla meşədə qətlə yetirilmişdir. Nənəş 2 oğlu - Araz və Fəxrəddin, qızları Şəhla 3 uşağı ilə və Xumar Əsgəran rayonu yaxınlığında ermənilər tərəfindən girov götürülmüşlər.

Nənəşin gözü qarşısında ermənilər Arazı tikə-tikə doğrayıblar, sonra onun ətindən yeməyə məcbur ediblər. Üç gün fermada saxlanıldıqdan sonra dəyişdirilmişdir.

**22. Əmirova Xəzəngül Təvəkkül qızı** 1983-cü ildə anadan olub.
Xocalının işğalı zamanı ermənilər onun ailəsini girov götürüblər. Faciə zamanı onun anası Raya və 7 yaşlı bacısı Göyçə güllələnmişdir. Uşaqlarının gözü qarşısında atası Əmirov Təvəkkülü ağaca bağlayıb aramaturla döydükdən sonra benzin töküb yandırıblar.

**23. Talıbova Ağca Alxan qızı** 1910-cu ildə anadan olub.
Xocalının işğalı zamanı Xankəndinə gedən yolda on nəfərin başının kəsilməsinin şahidi olub.

## BİR NƏSLİN İTKİSİ

Xocalı torpağının əsilli, nəsilli sakinlərindən biri də Şükür Məmədovun ailəsi idi. Xocalıda fıravan, xoşbəxt günlər yaşamışdılar. Oğul-uşaq sahibi idilər. Bu nəslin ömürlərinin ixtiyar cağlarını yaşayanlar Qarabağda baş verən bir çox hadisələrin şahidi olmuşdular. Ata-babalarından ermənilərin naxələfliyi, imkan tapan kimi arxadan zərbə vurduqlarını, onların zaman-zaman müsibətlər törətdikləri barədə eşitmişdilər.

XX əsrin sonlarında "Qarabağ kartı"nın yenidən ortaya atılması və hadisələrin get-dikcə uzanmasını görən yaşlı xocalılara aydın idi ki, ermənilərin nəsə məkrli planları vardır. Lakin onlar gəlmələr tərəfindən doğulduqları doğma torpaqdan qovulacaqlarını belə ağıllarına gətirə bilməzdilər.

O faciəli günlərdə doğınalarını, yaxınlarını, elini obasını itirən insanlardan təkcə Xocalının yox, bütün Qarabağın sayılan, seçilən ziyalılarından olan **Bəkir Məmmədovun** dediklərindən: "Bəli, bu faciədə mən öz qardaşlarımı, qohumlarımı itirdim. Qardaşım Vaqifin ailəsi tamamilə məhv edilmişdir. Həmin müdhiş gecə Vaqif həyat yoldaşı Afilə müəllimə, oğlanları Ceyhun, Azər və Niyaməddin ilə bütün xocalılar kimi meşəyə üz tuturlar. Bir gün də olsun Xocalını tərk etməyən insanlar həmin gün güclü hərbi texnikanın, raket qurğularının dəhşətli hücümüna məruz qaldıqlarından şəhərdən çıxmağa məcbur oldular. Qardaşının ailə üzvülərinin hamısı meşədə qətlə yetirilmişdir.

**İkinci qardaşım Oqtay** öz ailəsini müdafiə edərək əlindəki təklülə silahı ilə axırıncı gülləsinə kimi düşmənlə döyüşür. Hücum edən bir neçə erməni məhv edir. Ancaq düşmən onu əsir götürə bilir. Oğlanlarını gəbərtdiyi erməni arvadı, əlindəki avtomatla Oqtayı qətlə yetirir. Bu hadisəni mənə Xankəndində saxlanılan Xocalı əsirləri söyləmişlər.

**Dayım Əliyev Əyyub San oğlu, qaynatam Məhəmməd əmi, qaynanam Bağdad** xala da ömürlərinin ixtiyar çağında həmin gecə vəhşicəsinə qətlə yetirildilər. Bu günə kimi onların məzarları da yoxdur.

Bu hadisədən sonra həm Xocalının, həm də qardaşlarımın dərdlərinə dözməyən atam Şükür İsmayıl oğlu, anam Abuzəndə Sarı qızı vəfat etdilər. Valideyinlərimin ölümünə səbəb oğullarının, nəvələrinin şəhid olması idi. Bu günə kimi taleyi hələ də məlum olmayan Xocalı qohumlarım çoxdur.

Biz hələ də Qarabağımızı erməni yağılarından azad edə bilməmişik. Qarabağda həyatdan nakam getmiş insanların ruhları bir an da olsun mənə rahatlıq vermir.

Xocalı faciəsini yaşatmaq, dünyaya çatdırmaq üçün Xocalı Xeyriyyə Cəmiyyəti yaratdım. Bakıda yaşadığım evin zirzəmisində (Nəsrəddin Tusi 22) "Xocalı yaddaşı" muzeyini yaratmışam. Muzeydə həmin gecə şəhid olan insanların foto şəkilləri, müxtəlif vaxtlarda qəzetlərdə çap edilmiş məqalə və sənədlərdən ibarət stendlər təşkil edilmişdir. Nəyə gücüm çatırsa, onu edirəm və son nəfəsimə kimi də edəcəyəm. Yaratdığım Qarabağ "Xeyriyyə" evində hər il Xocalı faciəsi ilə bağlı tədbirləri keçirirəm.

"Yaddaş" cəmiyyəti Azərbaycanın Milli qəhrəmanı Əlif Hacıyev adına diplom təsis etmişdir. Xocalı tədbirlərində iştirak, xocalı faciəsini dünyaya çatdırılmasında yaxından iştirak edən bir qrup insanlara verilmişdir.

11 ildir biz Xocalı faciəsini Xocalısız qeyd edirik. Sabaha ümüdümüzü itirmirik. İnanırıq ki, torpaqlarımız işğaldan azad olacaqdır!"

## İKİNCİ HƏYAT – SALATIN ƏHMƏDOVA

Xocalı, 1991-ci il. Hamı səksəkəli müharibə şəraitində yaşasa da, həyat öz ahəngində davam edirdi. Xocalıda yeni uşaqlar doğulur, dünyaya məsum körpələr gəlirdi. Günlərin birində, yəni 1991-ci il yanvarın əvvəllərində Qarabağ münaqişəsindən silsilə məqalələr yazmış, tez-tez münaqişə zonasında olan Azərbaycanın gözəl jürnalist qızı Salatın Əsgərova Xocalıya gəlir. Xocalı hava limanında onu çox hərarətlə qarşılayırlar. Gənc jurnalist Xocalı hava limanın rəisi Əlif Hacıyev və onun işçiləri ilə səmimi görüşdü. Söhbət zamanı Salatın gənc polis Yelmardan soruşur ki, övladın varmı? O cavab verir ki, 2 qızım var. Biri də namizəddir. Salatın gülə-gülə deyir. Əgər oğlun olsa mənim oğlum Ceyhunun adını, qızın olsa mənim adımı qoyarsan.

1991-ci il iyunun 12-də Yelmarın üçüncü qızı dünyaya gəlir. Adına igid jurnalist Salatının adını verirlər. Ancaq Salatın bu uşağı -körpə Salatını görmədi. Xocalıya səfəri onun axırıncı gəlişi oldu. İstedadlı, cəsarətli jurnalist Dağlıq Qarabağda və onun ətrafında baş verənləri obyektiv işıqlandırmaq üçün gecəli-gündüzlü bölgələrdə olur, obyektiv reportajlar hazırlayırdı. 1991-ci il yanvarın 9-da Şuşanın Qala dərəsi kəndi yaxınlığında iş başında Salatın Əsgərova erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildi. Xalqımız bu igid qızının, alovlu vətənpərvər jurnalistinin şücaətini yüksək qiymətləndirdi. Ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Balaca Salatın isə o vaxt hər şeydən xəbərsiz, sakitcə böyüyürdü. Atası, anası onun qayğısını çəkirdi. Ancaq nə Xocalının, nə xocalıların o müdhiş, faciəli gecədən xəbəri yox idi. Xocalılar özləri-özlərini müdafiə edir, respublika rəhbərliyindən kömək gözləyirdilər. Hər bir Xocalı sakini üçün o dəhşətli gecədən danışmaq çox çətindir. 1992-ci ilin fevral ayı çox sərt, qarlı-boranlı şaxtalı başlamışdı. Tez-tez işıqların söndürülməsi, Xocalı üzərinə edilən hücümlar ağır günlərdən xəbər verirdi.

**Müşgünaz Əhmədova** o dəhşətli, müsibətli 26 fevral gecəsini belə xatırlayır:
"Gecədən xeyli keçmiş güclü atışma başladı. Biz qadınlar uşaqlarımızı götürüb evlərin zirzəmisinə girdik. Lakin çox çəkmədi ki, vəziyyətin ağırlaşdığını görüb çaylaq deyilən yerə, Qar-qar çayına üz tutduq. Çaylağa tərəf qaçarkən bir təhər Xocalı rabitə şöbəsinə girdik. Ağdama, Bakıya zəng vurduq. Səsimizə səs verən, kömək göndərən olmadı. Bundan sonra əlacsız qalıb meşəyə üz tutduq.

Təqribən 200-dən artıq adam meşəyə tərəf gedirdik. Qorxudan səsimizi çıxara birmirdik. Ancaq südəmər körpələrin səsini kəsmək olmurdu. Uşaqların səsi gələn tərəfi ermənilər güllə-boran edirdilər. İnsanlar ölə-ölə, qarın üstünə səpələnmiş halda qalırdı.

Dəstəmizdə Milli Müdafiə batalyonun döyüşçüləri, qocalar, uşaqlar qadınlar vardı. Gecənın qaranlığında, meşənin içərisində hara getdiyimizi bilmirdik. Ac körpələrin çığırtısını eşidən ermənilər dəstəmizi snayper və atıcı silahlarından atəşə tutdular. Mənim balaca körpəmsə ovunmaq bilmirdi. Səs salmaq isə olmazdı. Bizimlə gedən insanların həyatını xilas etmək üçün məcburiyyətdə qaldım. Çarəsizlikdən bir yolum qaldı. Salatın adı verdiyim körpəmi belimdən açıb gücsüz donmuş əllimlə boğdum. Bələkdə boğduğum uşağımı ağacın dibinə qoymağa əlim gəlmədi. Yenidən kürəyimə bağlayıb yolumuza davam etdik. İkinci gün idi ki, ac-susuz meşədə qar yeyir, yolumuzu azmış halda qalmışdıq. Üçüncü gün ermənilər bizi girov götürdülər. 200-dən artıq xocalıları Dəhrəz kəndinə apardılar. Əli silahlı döyüşçülərdən

12 nəfəri və birdə qocaları saxladılar. Bir hissəsini isə danışıqlardan sonra buraxdılar. Həmin gün yanımda olan Mahirə xala mənə dedi ki, kürəyindəki uşaq tərpənir. İnanmadım. Çox çətinliklə, donmuş halda körpəmi açdım. Körpə Salatın qaralmış və göyərmiş halda bələkdə tərpənirdi. Bu ilahi möcüzə idi. Tez körpəni açıb əmizdirməyə başladım, ancaq taqətsiz, üç gün ac qalan ananın südü hardaydı? Körpə Salatınımın sağ olduğunu gördükdə bir az bədənim isindi. Ancaq qorxu, həyəcan içərisində idim, nələr olacağını bilmirdim. Bununla belə uşaqdan ayrılmamağı, hətta ölümü belə birlikdə qarşılamağı qərara aldım.

Həmin gecə həyat yoldaşım Yelmar həlak oldu. Əsirliyin 3-cü günü dəstəmizdən bir xeyli insan buraxıldı. Qalanlarını ermənilər ananı-baladan, qardaşı-bacıdan ayırıb harasa apardılar. Dördüncü gün Ağdamın Gülablı kəndinə çatdıq. Bizi Ağdam xəstəxanasına gətirdilər. O gün ermənilər xəstəxananı Alazan silahlarından güclü atəşə tutdular və gecə bizi evlərdə yerləşdirdilər. İki ayağımı don vurmuşdu. Həkimlər dedilər ki, əgər belə xəstələr Bakıya çatdırılmasa, ayaqları kəsiləcəkdir. 4 gün həm ac qalan, həm də boğulan körpə Salatının vəziyyəti isə çox ağır idi. Bizi Bakıya xəstəxanaya göndərdilər. 3 ay körpə Salatınımla müalicə olundum. Təcili yardım xəstəxanasının həkimləri ayağımı müalicə etdilər, körpə Salatınıma isə yeni həyat verdilər.

O vaxtdan illər keçib. Bu gün ikinci həyat yaşayan Salatın artıq böyüyüb 5-ci sinifdə oxuyur. Artıq o müdhiş gecənin bütün faciələrini bilir. Salatına Tofıq Mütəllimov, Paşa Qəlbinur şer həsr ediblər. Körpə qızcığazın gözəl nitqi, şerə müsiqiyə böyük həvəsi var. O, həm də musiqi təhsili alır. Qabiliyyətli, istedadh bir gələcəyi olan Salatın balaya ikinci həyatda sağlamlıq, aydın səma, xoşbəxt gələcək arzulayırıq və arzu edirik ki, o jumalistimiz Salatın Əsgərovanın adına layiq, qorxmaz, mərd böyüsün. Anasına, xalqına həmişə başucalığı gətirsin".

## ELMAN MƏMMƏDOV – Millət vəkili

1950-ci ildə Xocalıda anadan olub. İxtisasca riyaziyyatçıdır. Adi müəllim, məktəb direktoru və digər rəhbər vəzifələrdə çalışıb. Xocalının İcra başçısı kimi çətin ancaq məsuliyyətli vəzifədə işləyibdir.

Xocalılar Elman müəllimi özlərinin pənah yeri, güman yeri sayıblar. Ona görə ki, o bütün dövrlərdə, hansı vəzifələrdə çalışmasından asılı olmayaraq həmişə xalqla bir olub, onların istək və arzularına mənəvi dayaq olubdur. 1988-ci ildə Qarabağ münaqişəsinin odu–alovu içərisində 4 il, yəni 1992-ci ilə kimi yağı düşmənlərə qarşı vuruşmuş, mübarizə aparmışdır. Xocalı yağı düşmənlərin əlinə keçdikdən sonra Elman müəllim didərgin düşmüş həmyerlilərinə sığınacaq tapmaq üçün gecəni-gündüzə qatır. Xocalı məcburi köçkünləri respublikanın 48 rayonuna səpələnib. Belə ağır günlərdə Xocalı caamatı ilə əlaqə saxlamaq, onların sosial, məişət həyatlarının qayğısına qalmaq, onlara həyan olmaq, əl uzatmaq asan iş deyildi. Bu insandan təkcə yorulmamazlıq, böyük enerji yox, bir də sonsuz vətənpərvərlik, can yanğısı tələb edirdi. Bütün bunlar isə Elman müəllimdə var.

İcra başçısı, demək olar ki, gecəli-gündüzlü yollarda idi. O, hər rayonda saatlarla həmyerliləri ilə görüşür, onların ən kiçik tələblərini öyrənir. Çatışmamazlıqları aradan qaldırmaq üçün səy göstərir. Bütün işləri yoluna qoyduqdan sonra digər rayona yollanırdı. Elman müəllim həmyerlilərlə görüşəndə, söhbət edəndə həmişə onlara təsəlli verir, tezliklə yurd-yuvalarına qayıdacaqlarını söyləyirdi. Axı hər bir köçkünün mənəvi dayağa ehtiyacı var. Mənəvi dayağın, xoş sözün, gələcəyə ümidlə baxmağa çağırış hər şey idi hər bir Xocalı üçün. 2000-ci ildə Elman müəllimə xalq çox böyük etimad göstərdi, o, Azərbaycan Respublikasınm Milli Məclisinə üzv seçildi.

Elman müəllim Milli Məclisin üzvü kimi ictimai-siyasi fəaliyyətini daha da genişləndirdi. İndi o, Xocalı dərdini, Dağlıq Qarabağ faciəsini təkcə respublikada deyil,

Azərbaycandan çox-çox uzaqlarda, Avropada, Amerikada, Asiyada söyləyir. Bu gün Xocalının vətənpərvər oğlunun gur səsi xarici ölkə parlamentlərində eşidilir. O, Xocalı faciəsi barədə həqiqətləri minlərlə insanlara çatdırır, Ermənistanın terrorçu, işğalçı dövlət olduğunu bəyan edir. Bu da xocalılara, və eləcə də bütün Azərbaycana xidmətidir. Onu da deyək ki, Elman müəllim bu geniş fəaliyyətindən vaxt tapan kimi, öz həmyerliləri ilə görüşür, onların dərdinə məlhəm olur.

**FATMA AKTAŞ – Avrasiya, Türk, Azəri, Qafqaz Qadınlar Vəqfinin başkanı**

Türkiyədə doğulmuşdur. 2 yaşından Hollandiyada yaşayır Soy kökü əslən Qarabağdandır. Ötən əsrin əvvəllərində babası, anası Qarabağı tərk etməli olmuşdu. Hələ o vaxt nənəsindən Qarabağa köçürülmüş ermənilərin əhaliyə qarşı törətdikləri qırğınlar haqqında eşitmişdir.

**Fatma xanımm dediklərindən**: "Nənəm Əslixan xanım ömrünün 50 ilini Şuşada yaşamışdı. O mənə deyirdiki, Qarabağ təbii şəraitinə, iqliminə və coğrafi mövqeyinə görə Azərbaycanın ən gözəl, dilbər guşələrindən biridir. O, Şuşanın Avropa ölkələri ilə ticarət əlaqələrindən, şer və müsiqi gecələrindən söhbət açardı. XX əsrin əvvəllərində Qarabağda baş verən qırğından, millətimizin çəkdiyi əziyyətdən ürək ağrısı ilə danışırdı. Mən bir dəfə də olsun Şuşanı görməmişəm, ancaq həmişə Qarabağ, Şuşa adı gələndə ailəmizdə elə bil ki, həsrətimiz, kədərimiz təzələnir. Doğma Qarabağ elimizin dərdi, problemi, ermənilər tərəfindən Azərbaycanlı əhalisinin didərgin salınması biz xaricdə yaşayanları çox narahat edir.

İndi fevral ayıdır. Hər il bu ayı çox üzgünlüklə qarşılayırıq. Mən Xocalı faciəsindən bir gün qabaq yuxuda rəhmətlik nənəmi gördüm Əslixan xanım – nənəm mənə dedi ki, qalx, əl-ələ verin düşməni bu sərhəddən o yana buraxmayın.

Bundan bir gün sonra Xocalı soyqırımının baş verməsi xəbərini aldıq. Xocalı faciəsi Hollandiyada yaşayan biz azəri türklərini çox kədərləndirdi. Biz səhəri gün nümayişlər keçirdik. Görüşüb, rastlaşdığımız insanlara izah edirdik ki, Ermənistan Azərbaycana təcavüz etmişdir, ermənilər Xocalıda dinc insanları qətlə yetirmişlər.

Biz indi də burada – Hollandiyada bu sahədə işlərimizi davam etdiririk. Xocalı faciəsi ilə bağlı Azərbaycandan aldığım sənədləri çalışdığım Hollandiya Milli Məclisinin bir sıra komissiyalarına təqdim etmişəm. Biz çalışırıq ki, Xocalı soyqırımı öz həqiqi qiymətini alsın. Bunun üçün müvafıq hüquqi sənədlərin hazırlamnası gərəkdir. Bu sənədlər dünyanın bütün parlamentlərinə yayılmasına ehtiyac vardır. Əgər biz hamımız – dünyanın hər yerində yaşayan soydaşlarımız birləşsək Azərbaycanın Qarabağ probleminin həllində irəli addım atmış olarıq.

Bundan sonra ən yeni tarixmiz olan Xocalı soyqırımının dünyaya tanıtmaq üçün hələ çox işlər görməliyik. Bu məqsədlə görüşlərin, konfransların keçirilməsinə, təbliğatımızın gücləndirilməsinə ehtiyac vardır.

Xocalıda qətlə yetirilmişlərə Allahdan rəhmət diləyib, bir daha üzüldüyümü bildirirəm.

**ATAKİŞİ ATAKİŞİYEV** – Xocalının sabiq prokuroru.

Zaman Azərbaycan xalqına ötən əsrdə çox böyük müsibətlər gətirmişdir, Azərbaycanın dilbər güşəsi olan Qarabağımızı ələ keçirmək üçün yağı qonşular həmişə fürsət gözləmişlər. Ermənilər belə imkandan bir neçə dəfə istifadə etmişlər. Nəticə-də torpağımız əldən getmiş, dinc insanlarımız isə şəhid olmuş, didərgin düşmüşlər.

Mən hər dəfə Xocalı hadisəsini yada salıb xatırlayarkən özümü şəhid olan insanlardan biri sayıram. Necə oldu ki, biz Xocalıda bu insanları qoruya bilmədik. Axı 4 il müddətində bir gün də olsun xocalılar evlərində rahat yatıb-durmadılar. Biz tarixdə baş verən faciələrimizi unutmuşduqmu? Yoxsa təsəvvürümüzə gətirmirdik ki, birləşmiş rus-erməni hərbi birləşmələri, 366-cı motoatıcı alay və bir də xaricdən gələn muzdlular azərbaycanlı qanına susayıblar?

Biz hələ də qocaya, uşağa, qadına güllə atıb qətlə yetirən dövləti-Ermənistanı təcavüzkar kimi dünyaya tanıda bilməmişik. Meşələrdə, torpağın üstünə yıxılıb ağır, yaralı halda can verən insanları buldozerlə kürüyüb dayaz quyuya tökən ermənilər, insan hüquqlarını qəddarcasına pozan Ermənistan bir cinayətkar kimi beynelxalq məhkəməyə cəlb edilməlidir!

Hər şeyin hökmünü verən zamandır. Əhalisi, torpağı şəhid olan xocalıların əziz xatirəsi əbədi yaşayacaqdır. Baş vermiş bu faciələr ibrət dərsi olmalıdır. 11 il keçməsinə baxmayaraq, hələ çox qaranlıq məqamlara aydınlıq gətirilməlidir. Deyilməli, yazılmalı məsələlər çoxdur.

Xocalı şəhidlərinin ruhları qarşısında baş əyir, sağ qalanlara səbr diləyirəm.

**AQİYƏ NAXÇIVANLI** – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət idarəçilik Akademiyasının "Siyasi idarəetmə"fakultəsinin dekanı, fəlsəfə elmləri namizədi, dosent.

1992-ci ilin 26 fevral günü Bakıda zahirən sakitlik idi. Azərbaycan televiziyası Xocalıda cəmi 3 nəfər ölüb deməklə ictimaiyyəti aldatdı. Lakin bir neçə gün keçəndən sonra çox dəhşətli xəbərlər eşitdik. Eşitdik ki, Xocalı şəhəri yerlə-yeksan olub. Bu xəbər yadıma düşəndə sanki elə bilirəm ki, Xocalı hadisəsi indi baş verib. Hər gün xəstəxanalara yaralılar gətirilirdi. Bizim də borcumuz yaralılara baş çəkmək, onları bir az ovundurmaq idi. Lakin xəstəxanada görüşdüyüm xocalılardan eşitdiklərim məni dəhşətə gətirdi. Orada körpələri, qocaları, qadınları erməni quldurları amansızcasına gülləıəmişdilər. Qırmızı imperiyanın cəlladları Bakıda 20 yanvar qırğınını törətdilər. Lakin onlar millətimizin əzmini iradəsini qıra bilmədilər. Bu bir həqiqətdir ki, 20 yanvar faciəsinin davamı Xocalı faciəsidir. Birləşmiş rus-erməni hərbi birləşmələri Xankəndində yerləşən 366-cı motoatıcı alayın iştirakı ilə Xocalını yandırdılar, əhalini qırdılar. Xocalı çox müsibətlərin şahidi olmuşdur. Lakin bəlkə heç bir vaxt belə vəhşiliyi görməmişdi. Erməni faşizminin dünyada misli bərabəri yoxdur. İndi xocalılar öz vətənlərindən didərgin düşərək köçkünlük günlərini yaşayırlar. Bizim isə mübarizəmiz davam edir və etməlidir. Biz dayanmadan Xocalı faciəsini dünyaya yaymalıyıq. Dünya ermənilərin əsl üzünü tanımalıdır.

Xalqımız bu müsibəti heç zaman unutmayacaqdır.

**ƏLƏMDAR QULUZADƏ – şair**

## SALAM, XOCALI DƏRDİM

Mən qoynunda doğuldum,
sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən.
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim
– Salam Xocalı dərdim!

Qırxqız mehin mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi.
Qoynuna qısılanda qolların uzun idi,
Sənə ana deyərdim, mənə oğui deyərdin –
Salam Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Ələyənlər ələyib əyilməzləri əyir.
Yetim uşaq görəndə yaralarım göynəyir,

Bu dərd tək nıənim olsa ürəyimdə çəkərdim –
Salam Xocalı dərdim!

Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun.
Sağlığını istəyir axı borclu borclunun,
Sənin dərdin olmasa bəlkə çoxdan ölərdim,
-Salam Xocalı dərdim!

Məni daş tək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur.
Üzümə bahar doğmur, üzümə payız doğur,
Əlim əlinə dəysə ayağını öpərdim
– Salam Xocalı dərdim!

Mən qanımı görmüşəm düşmənin qaşığında,
Eşqim dəli olubdu həsrət yaraşığında.
Tonqal çatacağam mən bu dərdin işığında,
Sevincim inciməsin, mən dərdimə güvəndim
– Salam Xocalı dərdim!

Ürəyin ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var.
Sevincin sirri bəlli, dərdin möcüzəsi var,
Pəncər kimi biçilib, xəncər kimi göyərdim –
Sağ ol Xocalı dərdim!
Sağ ol Xocalı dərdim!
Salam Xocalı dərdim!

## XOCALI FACİƏSİ İLƏ BAĞLI MƏLUM OLMAYAN HƏQİQƏTLƏR

(məxfi arayışın şərhi)

Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidmətinin başçısı, polkovnik Armaik Mamukyan iddia edir ki, Xankəndində, ümumən Dağlıq Qarabağ ərazisində, eləcə də Yerevanda heç bir azərbaycanlı əsir yoxdur. 2000-ci ilin dekabr ayının 16-da isə Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki, cənab Vladimir Romanoviç Savelyevin Birləşmiş Millətlər Təşkilatına ünvanlanmış məktubunda isə Ermənistan ərazisində əsirlərin sayından, düşərgə zonalarından bəhs olunur.

"Cianak" qəzeti (Türkiyə erməni diasporunun qəzeti) 1992-ci ilin fevral hadisələrini, qanlı qırğını şərh edərək yazır: "...Biz vəcdə gəldik. Ermənilərə öz dədə-baba torpaqları uğrunda vuruşmaq üçün güc və qüvvət verilmişdi. Bu işdə Allahın razılığını görürdük. Və vuruşurduq. Azərbaycanlılar isə bizim qədər torpaq istəyə bilmədi. Məhəbbət və Vətən sevgisi olduğu üçün biz qalib gəldik... Bakıdan da xəbərdarıq. Orada torpaq uğrunda yox, sülalə və vəzifə, səltənət və şöhrət uğrunda daha çox güc sərf olunur. Çünki, Bakıda da bilirdilər ki, bu torpaqlar bizimdir, bizim dədə-babalarındır... Bu barədə rus zabiti Vladimir Savelyev adlı birisi meydanda atılan topların yanında bizdən sorğu etdi. O, bizim müxbirdən tələb edirdi ki, bu yerlərdən çıxıb getsin..." (1992-ci il, 24 fevral).

Vladimir Savelyev 02270 nömrəli (Dağlıq Qarabağda) hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlanı toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına ...

sonda Baş Kəşfiyyat İdarəsinə "Məxfi arayış"ını təqdim edir. O, son arayışların "zabit Puqaçov" imzası ilə göndərib. Hər halda araşdırmalarımızın nəticəsi olaraq bu arayışın mətni ilə tanış olduq.

Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək, fakt və sənədlərdə "Agentura" gücü ilə əidə etdiyi informasiyalarda bütün olub keçənlərin şərhini verib etiraz edir:"...Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmərəm, Qoy azərbaycanlılar məni bağışlasınlar ki bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də MN-ə, BKİ-nin generallarına göndərdim, Oxuyun – dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi..."

Polkovnik B.R.Savelyev məxfi arayışında yazır: "...Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş Ali Baş Komandandır...

Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə... belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları orduda kartof kisələrinin, soğan və ətin...oğurlanıb oğurlanmaması ilə maraqlanır, əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi. Azərbaycan ordusunun BQ-də hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik genişlənirdi. Bu qoşun birləşmələrində hər şey Azərbaycan əleyhinə idi. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdiiər...

Məlumat aldıq ki, Azərbaycanda Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədlər üçün "müharibə kartından" yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Azərbaycanın Ali Baş Komandanının, bir qismi də müxalifətin və nəyə xidmət etdiklərini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər..."

Fransada çıxan "Frans katolik-ekklezia" – aylıq jurnalında "Hücumdan öncə" yazısını çap etdirən erməni jurnalisti Berain Siracyan yazır: "...Xocalını gözlərimlə gördüm. Döyüşən, hər qarış torpaq uğrunda vuruşan artsaxlıların igidlikləri məni valeh etdi. Amma mən torpaq uğrunda gedən vuruşmanın bu tərzdə aparılmasının tərəfdarı deyildim... hər yerdən qan iyi gəlirdi. Qar, buz üstündəki qalaqlanmış kimsəsiz cəsədlərdən qorxdum... Qorxdum ki, bu qan üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın...Bu gün ruslar bizimlədir. Bəs sabah?.. Biz tənha qala bilərik...Digər tərəfdən Xocalıda vuruşanların, erməni qardaşlarının gözlərindəki alovun sönməyəcəyinə də şübhəm yoxdur. Bu alov Vətən torpağı üçün yandırılmış ocağın alovlarıdır. Belə alovlar isə heç vaxt sönmür..."

(1992-ci il, 12 mart) ,

Halbuki 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış "Asala" erməni terrorçu təşkilatı bir qrup üzvü – 26 nəfərlik dəstə, mayor Aşin Simonyanın başçılığı ilə Xankəndinə təşrif gətirmişdi. Onlar başdı-başına buraxılmış 366-cı alayın içərisində asanlıqla öz dayaqlarını qura bildilər. Polkovnik Yevgeni Zarviqarova nəqd 36 min ABŞ dollarını tanışlıq üçün "hədiyyə" etdilər. Məlumata görə, 23–cü diviziyanın komandiri, general-mayor Boris Budeykin polkovnik Zarviqarovu buna görə ittiham da edib. Dördüncü ordu komandanlığı qarşısında onun "zabit şərəfinə xəyanəti" üstündə azad olunmasını, qovulmasını tələb edib.

Lakin bütün bu ittiham və tələblərə baxan yox idi. Çünki qanunlar işləmirdi artıq.

Polkovnik V.Savelyev "Məxfi arayış"ında yazır: "" Əslində millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı polk ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda polkun ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı...

Polkovnik 1992-ci ilin aprel ayının 12-də MN-nə göndərdiyi məktubda isə bunu da yazır ki, öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətlərini təyin edən sənədlərdən 46-nı nömrələyib, Azərbaycanın MN-nə, Prezident Aparatına göndərdim. Mənə cavab gəldi ki,

biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da oradan yola salmışdım. Amma dərk edə bilmirdim ki. Azərbaycan hərbi kəşfiyyatı nəyi araşdırır...

1992-ci il fevral ayının 19-da isə İrəvanın Teatr meydanında Firdos Ərəbyan adlı bir erməni emissarı (Livan) Dünya ermənilərinin "iqtisadi gəlir mənbəyi" kimi ad çıxarmış "Qaragin" erməni mərkəzində on üç nəfər varlı ermənininin imzaladığı məktubu oxudır "...Oyanmış xalqa eşq olsun! Müdrikliyini, ağıl və idrakını dərk edən babalarımızın, əcdadlarımızın külünü təzədən alışdıran erməni qəhramanlarını alqışlamaqla yanaşı, onlara dünya ermənilərinin salamlarını yetirirəm. Parisdə, Kölndə, Romada, Vaşinqtonda, Küveytdə, Londonda, Moskva və Ankarada, Tehran və Latın Amerikasında...ayağa qalxan ermənilər sizinlədir... Biz isə hər cür yardıma hazırıq..."

İki milləti qarşı-qarşıya qoyan bu "millət qəhrəmanları" bir məsələni dərk etmirdilər ki, heç kəsin qanı yerdə qalmır. Edilən cinayətlər üçün, tökülən qanlar üçün cavabdehlik və məsuliyyət nə Vaşinqtonun, nə Londonun... üsütndə qalırdı. Bütün bu vəhşiliklərin cavabdehliyi İrəvanın üstündə idi... Bunu isə sadəcə dərk etmək lazım idi. Necə ki, kəşfiyyatçı V.Savelyev bunları görür və dərk edirdi.

RF-nın MN-nin BRİ-yə ünvanlanmış "Məxfi arayış"ında isə polkovnik Zarviqarov və başqa vəzifəli şəxslər isə polka atəş açan döyüş nöqtələrini ləğv etmək haqda ordu və dairə komandanlığının rəsmi icazəsilə Xocalı istiqamətində gedən əməliyyatlarda ermənilərlə birləşdi. Nəticədə bir gün ərzində 49 nəfər azərbaycanlı meydanlara yığılıb güllələndi... Qərargah rəisi, podpolkovnik Sergey Kraulenin verdiyi tapşırığa əsasən, birinci motoatıcı batalyonun komandiri, polkovnik Arkadi Moiseyev, 2-ci batalyonun komandiri mayor Serj Ohanyan, 3-cü batalyonun komandiri mayor Qavril Nabokix, kapitan İshaq Lixodeyn...Xankəndini atəşə tutmaqla yanaşı, ayrı-seçkilik edir, dinc əhalini zonalarından uzaqlaşdırarkən ermənilərlə daha çox məşğul olurdular. Köçürmə zamanı (bu yarımçıq qaldı) 58 nəfər azərbaycanlı öldürüldü..."

Öldürülən azərbaycanlılar isə adəti üzrə dəfn olunmuşdular. Onları yarım metr qazılmış çalalara atıb, üstünü torpaqlayırdılar. Polkovnikin qeydlərinə görə, axşamlar belə çalaların ətrafında "itlərin və çaqqalların səs-küyündən, dartışmalarından" qulaq tutulurdu, adam vahimələnirdi. Hər yerdən laxtalanmış qan və ölmüş cəsəd iyi gəlirdi.

Bu arada Livanda fəaliyyət göstərən erməni diasporu tərəfindən radikal mövqeyi ilə seçilən "Ramkavar" partiyasının liderlərindən olan Rafael Messeyan (Qriqoryan) Beyrutda çıxan "Zartunk" ("Oyanma") qəzetində "Bir erməni yardımı" yazısında qeyd edir: "Xocalı uğrunda vuruşan, döyüşə atılanları unutmaq, yaddan çıxarmaq biz ermənilərə yaraşan iş deyil. Onlara – o igidlərə yardım edir. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları "Artsax yardım fondu" təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür. Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Süleyman öz ticarət mərkəzindən gələn illik gəliri...Parisdə "Erməni ana dili" cəmiyyətinin üzvləri topladıqları ianələri...Xocalı qəhrəmanları üçün ayırdılar..." (1992-ci il, 24 mart)

1992-ci il fevral ayının 4-də isə Roma Papası II İohanın Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə (!) və rus qoşun birləşmələrinin generallarına məxfi məktubu daxil olur. Roma Papası erməni müdafiə dəstələrinə "Allahdan aldığı gücü" (?) göndərirdi. Ruslara isə bu vuruşmanın "dini bir vuruşma" olduğunu xatırladır, onlara dua edəcəklərini açıqlayırdı. Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşmanı "Dini vuruşma...Din uğrunda vuruşma" kimi qiymətləndirib yazır: "...İmkan olarsa, Xocalıya gəlib orada həlak olan erməni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm..."

Polkovnik V.Savelyev "Məxfi arayış"ında yazır: "...Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm...Bu necə vətəndir? Bu necə ordudur? ...Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğası vurdular...

Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyindən qorxuram... "lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Həmin ərəfədə Fransadan gəlmiş "Operator-II" özəl studiyasının erməni əməkdaşları isə (Cül Barelyan, Şerin Sitaryan) Xocalı ətirafında

qalaqanmış meyitlərin yandırılmasını lentə köçürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Kareblinkovun verdiyi məlumata görə bu yer"...Xocalının şimal-şərq hissəsində kiçik təpəçikləri olan bir yer idi..."

Xocalı faciəsini "işıqlandırmaq" (ermənilər buna qəhramanlıq deyirlər) üçün Xankəndinə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi general Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: "...Azərbaycanlılar günahsız erməniləri qırırılar..."

Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da "...çox düşünüblər". Nəticədə birinci batalyonun qərərgah rəisi, mayor Abram Çitçiyan mayor Ə.Nabokix və kapitan İ.Lixodey hərbi əməliyyatlarda bilavasitə vuruşublər. Zabit İ.Karabelnikovun məlumatına görə A.Çitçiyan 13 nəfərlik "Babayevlər ailəsini... güllədən keçirib..." Ona 1993-cü ildə Fransa erməni di-asporu tərəfindən 150 min dollar mükafat və ən böyük "Kilsə mükafatı" verilib. A.Çitçiyan 1994-cü il sentyabr ayının 2-də Fransaya mühacir edib və orada yaşayır.

366-cı polkun sıravi qulluqçusu, rabitəçi Afik İsbeliyevin məlumatına görə isə, o, fevralın 24-də (1992) kapitan İ.Lixodeyin komandasında topçu dəstəsində vuruşub və Xocalının işğalında iştirak edib.

-Siz necə vuruşurdunuz? – sualına belə cavab verib:

-Biz həm də qorxurduq. Ölümdən qorxurduq. Əlimizə keçənləri məhv edirdik. Bəzən küləkdən tərpənən ağaclar, xışıldayan yarpaqlarda bizi qorxuya salırdı... mən bilmirəm Azərbaycan xalqı məni bağışlayarmı?.. Anam azərbaycanlılara qarşı ermənilərlə əlbir olub vuruşduğum üçün, məndən imtina edib... Artıq evə gedə bilmirəm, hamı məndən üz döndərib. Amma məni məcbur etdilər. Əmr verdilər. Biz isə əmrə tabe idik... Məni artıq heç kəs bağışlamır... ("Bir erməni məzarı" – müəllif: Əbdül Fateh. "Beyrut" nəşri. 1994-cü il).

A.İsabeliyev bunu da deyir ki, ermənilər ruslara məxsus hərbi texnikanı satın almışdılar. Bir avtomat "Kalaşnikov" 1500 dollara idi...

Fevral ayının 25-dən 26-na keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev "Məxfi arayış"ında qeyd edir: "Üçüncü batalyon Xocalı işğal olunan gecə, müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı polk isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. "Böyük Ermənistan" adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu hələlik açıq qalmış məsələdir".

1992-ci il mart ayının 19-da (müsəlman təqvimində bu gün Novruz günü, bahar bayramı idi) Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik bir qəbirstanlıq salındı. Orada 54 nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn edildi. Ermənilərin Fransa Diasporunda telekanal müəllifi Surik Şaqenyan bü mənzərəni elə həmin günün axşamı İranın, Türkiyənin Moskvanın, Yerevanın, Vaşinqtonun, Londonun, Parisin, Bonnun telekanallarına çıxartdı. Ermənilərin öldürülmüş azərbaycanlıların meyitlərinə etdikləri hörmət və ehtiramdan...(?), təşkil olunmuş dəfn mərasimindən danışdı. Bakıda isə hələ heç kəs hadisələrin, Xocalıda baş vermiş faciənin səbəblərini araşdıra bilmirdilər. Yaradılmış deputat komissiyasından tutmuş, müxalifət partiyalarınadək hamı iflic vəziyyətində idi hakimiyyət çat vermişdi. Təhlükəsizlik orqanları öz informasiya mönbələrinin – əsas güclərinin düşüncə və ağıllarını itirmişdi. Təhlükəsizlik sisteminin bir qrupu müxalifətlə necə deyərlər "əhd-peyman" bağlamışdılar. A.Mütəllibov hakimiyyəti cəmiyyətdə və dövlətdə siyasi gücünü artıq itirmişdi. O, öz ehtiraslarının, komandasındakı fitnə-fəsadın qurbanı olmuşdu.

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini tesvir edib yazırdı: "...Xocalı işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itifdi... Nazirlər isə Baş Nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar..."

Polkoynik V.Savelyev daha sonra yazırdı: "...Polkun çıxarılmasında hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:

- General-polkovnik Qromov
- General-leytenant Qrekov
- General-leytenant Ohanyan

- İ.Andranov – deputat
- Polkovnik Y. Zarviqarov (sonra general oldu)
- Polkovnik O.Kraule...

Dördüncü ordu 23-cü motoatıcı diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratdı. 23 motoatıcı diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb edirdi. Onları isə kim idi eşidən?!"

RF hərbi əks kəşfiyatının rəisi işləmiş, polkovnik V.Savelyev məsələləri şərh edərək qeyd edir: "...1992-ci il fevral ayının 23-dən hərbi şəhərcik "Qrad" qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov poikun daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdiriiməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmamalı) təkid edib ki, artilleriya diviziyası, zenit artilleriya diviziyası, tank rotası, texnikası saxlanılsın. Nəticədə ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd "PDM", 3 əded ZSU-23-4, 8 ədəd D-30 və xeyli digər döyüş texnikası ələ keçirdilər..."

Həmin gün ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində "Asala" terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allahverdiyan 24 nəfər rus zabitinə və əsgərinə pul mükafatlarını elan etdi. Məsələn, dəstənin önündə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə "Asala" yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Və yaxud həmin gün sıravi Anastas S.İvanova 10 min dollar təqdim etməklə İrəvanda onu gözləyən "Hunday" markalı avtomobilin sənədlərini verdi...

Nəticədə erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar, "Döyüş müqavilələri"də imzalandı.

Yadınıza salım ki, bütün bunlar, yəni ermənilərlə ruslar arasında olan bu hərbi bağlaşmaların bir qismi şifahi sərəncamlarla edilirdi.

Bunun üçün hər sərəncamın, general sözünün öz qiyməti var idi. Məsələn Xankəndi şəhərindəki 463-cü Əlahiddə Kimyəvi-mühafizə Batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat Batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfindən vuruşması barədəki əmrin qiyməti 18 min dollar idi.

Polkovnik V.Savelyev "Məxfı arayışı"nda bütün bunlara toxunaraq yazır: "...Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı ve şəxsi heyəti dağlar arasındakı "Çapar" dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü sürətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyev və şəxsi heyətə pul təklif edilərək birlikdə vuruşmağa çağırılıblar... "

Qeyd edim ki, Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında "İvanın vəhşi batalyonu" kimi tanınıb.

Araşdırmalarımıza görə, 366-cı alaydakı hərbi texnika və silahların 85 faizi ermənilərin əlinə keçib. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd zirehli jilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı ölçüdə), 146 ədəd tapança...ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylandı.

Fransa senatı isə Xocalı ilə bağlı heç bir məlumatın olmamasından gileyləndi və bütün günahları Azərbaycanın Fransadakı diplomatik korpusunda gördü. Və bu ilin fevral ayının 14-də bu da məlum oldu ki, Fransada "Xocalı faciəsini" ermənilərin faciəsi kimi təbliğ edib tanıdıblar. Bizim səfarətxanaya gəlincə, onları sadəcə geri çağırıb ittiham etməkdən başqa... ayrı heç nə qalmırdı. Digər tərəfdən erməni diplomatı O.Ter-Qriqoryanın 1992-ci ilin aprel ayında İrəvanın Teatr meydanındakı çıxışında deyirdi: "...Erməni təbliğatı Bakının diplomatik mərkəzlərində artıq özünə istənilən mövqeyi tutub..." (?) Bunun isə ətrafında düşünmək lazım idi.

Diplomat çıxışının bir yerində isə xatırladır ki, ermənilərlə rusların dostluğunun sınmayan sütunları var. Diplomat Ter-Qriqoryan deyir:

"...Hələ 300 il bundan qabaq ermənilər I Pyotrdan xahiş etdilər ki, yadelli işğalçılara qarşı vuruşanda onlardan da iştifadə etsinlər... Əgər Moskvada (təkcə şəhərin özündə) 1959-cu ildən 18,4 min nəfər erməni var idisə, indi bu rəqəm 47 min nəfərdir...RF-nin xaricdəki diplomatik korpuslarında çalışanların sayı 142 nəfərdir. Onların 59 nəfəri jurnalist kimi fəaliyyət göstərir..."

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşövun əmrilə yandırıldı. Polkovnik V.Savelyev isə "Məxfi arayışın"da bütün bunlara toxunaraq xatırladır: "...Ermənilər ruslara məxsus "02-19-MM" nömrəli "Kamaz"la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular... İnsanın insana olan nifrəti burada həddini aşmışdı, Kim yaratmışdı bunu, dərk edə bilmirdim... mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək- tək məhv edən və bından həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm:

Polkovnik B.Baymukov – arxa cəbhə üzrə polk komandirinin müavini. .
Polkovnik İ.V.Moiseyev – birinci batalyonun komandiri.
Mayor S.İ.Ohanyan – ikinci batalyonun komandiri.
Mayor E.A.Nabokix – üçüncü batalyonun komandiri.
Mayor V.İ.Citçiyan – birinci batalyonun qərərgah rəisi.
Mayor V.Q.Hayriyan – polkun kəşfiyyat rəisi.
Baş leytenant O.V.Mirzaxayzarov – rota komandiri.
Baş leytenant S.V.Xrinxua – kəşfiyyat bölməsinin rəisi.
Baş leytenant V.N.Qarmaş – tank rotası komandiri.
Baş leytenant H.T.Hakopyan – rota komandiri.
Baş leytenant V.İ.Valilovski – rota komandiri.
Baş leytenant A.B.Lısenko – bölmə komandiri.
Baş leytenant V.A.Azarov – batereya komandiri.
Baş leytenant İ.S.Abraimov – tank əleyhinə batareya komandiri.
Leytenant O.V.Balezni – üçüncü tank rotasının komandiri.
Leytenant A.V.Smakin – tank bölməsinin komandiri.
Leytenant S.İ.Raçkovski – mühəndis-istehkam rotası komandiri.
Leytenant V.İ.Bondaryev – kəşfiyyat rəisinin müavini.
Leytenant A.İ.Kulov – radio kimyəvi bölməsinin rəisi.

(eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər)"

1992-ci il fevral ayının 24-də saat 21.15 dəqiqədə general rütbəsi almış Y.Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir. O, çıxışında göstərirdi: "...Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya (?) yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər... Xristianlığa qarşı bir yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq".

Bakıda isə Ali Baş Komandan A.Mütəllibov cənabları tərəfindən vəzifələr bölünür, səriştəsiz kadrların sərəncamları verilirdi. Kadrlar isə hər şey demək idi. Əslində polkovnik V.Savelyevin – vicdanlı rus kəşfiyyatçısının "Məxfi arayışı" səriştəli, haqsızlıqla barışmayan bir zabitin ən böyük etirafıdır. Bu etirafların, misli olmayan bu tarixi sənədlərin Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına göndərilməsini təmin etməliyik. Bu isə vacib bir iş olaraq qalır.

**Rövşən Novruzoğlu**
**"Respublika" qəzeti, 25 fevral 2001-ci il**

## BAĞIŞLANILMAYAN BİR CİNAYƏT VARSA, 0 DA VƏTƏNƏ XƏYANƏTDİR

Xocalı soyqırımından artıq 10 il keçir. Düz 10 ildir ki, biz XX əsrin ən dəhşətli kütləvi terror hadisələridən biri kimi xalqımızın və bəşəriyyətin tarixinə daxil olmuş Xocalı faciəsinin qurbanlarının xatirəsini dərin hüzn və kədər hissi ilə yad edir, onu doğuran səbəb və şəraiti dərk etməyə çalışırıq.

Düz 10 ildir ki, mövcudluğumuzu, varlığımızı, mənliyimizi, namusumuzu, insanlığımızı, bir sözlə, özümüzü və cəmiyyətimizi sarsıdan və zəhərləyən qanlı terror aktı haqqında düşündükcə, istər-istəməz beynimizdə min bir sual dolaşır – xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı necə baş verdi? Axı, xocalıların günahı nə idi? Bəs Azərbaycan xalqı və respublikanın rəhbərliyi harada idi? İnsanlığa qarşı misli görünməmiş bu cinayətin baş verməsində kimdir günahkar? Necə oldu ki, qəhrəman və müdrik Azərbaycan xalqı bu soyqırımın qarşısını ala bilmədi, əksinə, özü bu soyqırıma məruz qaldı. Xankəndində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının bilavasitə iştirakı ilə Ermənistan hərbi birləşmələrinin günahsız mülki əhaliyə – qocalara, qadınlara, uşaqlara amansızcasına divan tutmalarına vadar edən, rəvac verən kimlər idi? Axı sən özün bü qəddar terror aktına necə qıydın İlahi? Suallar çoxdur, suallar suallar doğurur, amma nə fayda?

Ümumiyyətlə, XIX və XX əsrlər bütövlükdə Azərbaycan xalqının həyatına tarixin ən qanlı fəlakət və faciələrlə dolu əsrlər kimi daxil olmuşdur. 1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri tarixi torpaqlarımızın bölünməsinin, Azərbaycan xalqının parçalanmasının, qısa bir müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsinin, torpaqlarımızın zəbt edilməsinin təməlini qoymuşdur.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail olmaqla kifayətlənməyərək, "Böyük Emıənistan" dövləti yaratmaq məqsədi güdən mənfur və çirkin planlar həyata keçirməyə başlamışlar. 1905- 1907-ci, 1917-1920-ci və s. illərdə azərbaycanlılara qarşı açıq şəkildə xüsusi qəddarlıqla genişmiqyaslı qanlı aksiyalar həyata keçirərək, insanları diri-diri yandırmaqdan belə çəkinməmişlər. Bütün bunlar XIX əsrin əvvəllərindən davam etmiş, ən nəhayət 1988-ci ildən qondarma Dağlıq Qarabağ probleminin ortaya atılmasıyla nəticələnmişdir.

1988-ci il fevral ayının 12-də ermənilər "Miatsum" (yəni birləşmək) şüarı ilə ilk dəfə olaraq Xankəndində açıq nümayişə çıxdılar.

O dövrdə Sovetlər İttifaqının və eləcə də Respublikanın rəhbərliyi tərəfindən heç bir təsirli tədbir görülmədi, əksinə, hadisələrin sonrakı inkişafı göstərdi ki, separatçıların "Böyük Ermənistan" dövləti yaratması ideyasına elə Moskvada dəstək verilmiş, Sovetlər İttifaqının rəhbərliyi də bu ideyanın reallaşmasına hər cür yardım etmişdir. Hadisələrin ilk günlərindən qətiyyətli, uzaqgörən, müdrik və vətənpərvər rəhbərə böyük ehtiyac duyulurdu. Xankəndi, Quşçular, Malıbəyli, Cəmilli, Meşəli hadisələri nə bizə, nə də respublikanın

rəhbərliyinə dərs olmadı. Baş verən ilkin hadisələrdən çox ciddi nəticələr çıxarmaq əvəzinə, başqa amallarla yaşadıq.

Xocalı çox mühüm hərbi strateji əhəmiyyətə malik olmaqla bərabər, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yolunda yerləşir ki, onun işğal olunması Əsgəranla Xankəndinin arasında olan yolun açılması və azərbaycanlıların nəzarəti altında olan yeganə aeropotun ələ keçirilməsi demək idi. Deməli, Xocalı alınmaz bir qalaya çevrilməliydi, lakin əfsuslar olsun ki, Respublika rəhbərliyinin apardığı səriştəsiz siyasətin nəticəsində bu baş vermədi. Xocalı və xocalılar öz taleyinin ümidinə buraxıldı. Sanki Xocalı və xocalılar Azərbaycana, Azərbaycan xalqına deyil, başqa dövlətə və xalqa mənsub idilər. Əks təqdirdə onlara divan tutulacağı barədə edilən çox ciddi xəbərdarlıqlar qulaqardına vurulmazdı, xocalıların ahnalələri, kömək diləmələri cinayətkarcasına cavabsız qalmazdı.

Məhz Respublika rəhbərliyinin apardığı yarıtmaz siyasətin nəticəsiydi ki, 1991-ci il oktyabr ayından Xocalı mühasirədə olduğundan, avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi isə vertolyot olmuşdu. Sonuncu mülki vertolyot Şuşa şəhəri üzərində vurulduğundan, (həmin vertolyotda 40 nəfər həlak olmuşdu), bu nəqliyyat növünün də fəaliyyəti dayandırılmışdı. Şəhərə elektrik enerjisinin ve-rilməsi tamamilə kəsilmişdi. Şəhər yalnız əhalinin mətinliyi və onu qoruyanların qəhrəmanlıqları sayəsində yaşamış və ermənilərin bütün hücumlarına davam gətirmişdi. Şəhərin müdafiəsi isə yerli özünümüdafiə milis və milli ordunun döyüşçüləri tərəfindən təşkil edilmiş, onlar isə ən müasir silahlarla silahlanmış düşmənə qarşı yalnız ov tüfəngləri ilə silahlanmışdılar. Fevral ayının ikinci yarısından Xocalı erməni silahlı dəstələri tərəfindən mütəmadi olaraq artilleriya və ağır texnikadan atəşə məruz qalmışdı.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə xarici havadarlari tərəfindən silahlandırılmış erməni hərbi birləşmələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının bilavasitə iştirakı ilə Xocalı şəhərinin işğalını həyata keçirdi.

Bu hadisə İran-İslam Respublikasının Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin vasitəçilik missiyası ilə regiona gəlməsi zamanı baş vermişdi. O, fevral ayının 25-də Bakıda Azərbaycan rəhbərliyi ilə görüşmüş, fevral ayının 27-də isə Dağlıq Qarabağa, bundan sonra isə Ermənistana getməli idi. Missiya ilə əlaqədar tərəflərin razılığı ilə fevral ayının 27-dən mart ayının 1-dək 3 günlük atəşkəs elan edilməsinə baxmayaraq, erməni tərəfi buna məhəl qoymamışdı. Feyral ayının 12-də də eyni vəziyyət olmuşdur. Həmin vaxt münaqişə zonasında vəziyyətlə tanış olmaq və onun tənzimlənmə yollarını axtarmaq üçün ATƏT-in nümayəndələri Dağlıq Qarabağa gəlmiş, sonra isə onlar Bakıya və Yerevana getməliydilər. Buna da məhəl qoymayan erməni ekstremistləri fevral ayının 12-də Şuşa rayonunun Malibəyli və Quşçular kəndlərini zəbt edib həmin kəndləri yandıraraq talan etmiş-dilər. Yalnız Malıbəyli kəndindən öldürülənlərin, yaralananların və girov götürülənlərin sayı 50 nəfərə qədər olmuşdur.

Artilleriya və ağır hərbi texnikadan atəşə məruz qalmış Xocalıda güclü yanğın başlamış, fevral ayının 26-sı səhər saat 5-ə qədər şəhər tamamilə alova bürünmüş, tam qarət olunmuş, demək olar ki, Xocalı səhəri yerlə-yeksan olaraq xəritədən silinmişdi. Şəhərdə qalan əhali öz doğma evlərini tərk edərək yaxınlıqdakı yeganə azərbaycanlılar yaşayan Ağdam şəhərinə çatmaq ümidilə irəliləmişlər. Amma onların bu ümidi də, faciə ilə nəticələnmiş, erməni separatçıları Naxçıvanik kəndi yaxınlığında dinc əhaliyə amansız divan tutmuşdular. Cinayətkar erməni hərbi birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar ol-muşlar, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur. 200 nəfərin ayaqları soyuqdan qanqrena olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdılar.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, qafalarının dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir.

İşğal nəticəsində dövlətə və əhaliyə milyardlarla manatlıq maddi ziyan vurulmuşdur.

Bu rəqəmləri yazarkən öz daxili hisslərimi, ürək ağrılarımı boğa bilmirəm. Çünki bu adi rəqəmlər deyil, bu rəqəmlər vəhşiliyə məruz qalmış bir insan həyatıdır. Övlad toyu görmək əvəzinə övlad dağı görmüş ata-analar, ailə və övlad nəvazişi görməyən bacı-qardaşlar, arzuları gözündə qalmış qohum-əqrəbalar, ən nəhayət – həyatın dadını belə dadmamış körpələrimizdir.

Bütün bünların törədiləcəyi barədə dəqiq məlumata malik olan respublikanın rəhbərliyi tərəfindən faciənin törədilməsinə imkan yaradıldı. Öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət orqanları tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmiş, mühasirə vəziyyətində olan şəhəri və onun sakinlərini xilas etmək üçün heç bir iş görməmiş, öz vəzifə borclarının yerinə yetirilməsinə cinayətkarcasına məsuliyyətsiz yanaşmışlar.

Xocalı soyqırımı iqtidarda olanların, eləcə də iqtidarda olanlarla hakimiyyətə can atanların arasında baş verən hərc-mərcliyin Respublikadan yaranan əsl anarxiyanın, hakimiyyətin iflic və iflasının, Dağlıq Qarabağ və onun ətrafında baş verən siyasi oyunların, habelə hər birmizin biganəliyinin məntiqi nəticəsi idi ki, bunu da tarix bizə heç vaxt bağışlamayacaqdır. Dağlıq Qarabağ və onun ətrafında Azərbaycan xalqına qarşı ilk gündən baş verən faciələr bizi də oyatmadı. Erməni separatçılarına və onların himayədarlarına qarşı ciddi tədbirlər görülmədi. Xankəndi və onun ətrafında baş verənlər, soydaşlarımızın vəhşicəsinə öldürülməsi, qəbirstanlıqlarımızın dağıdılması, evlərimizin yandırılması, 20 yanvar hadisələri, vertolyotda igid və seçmə oğullarımızın məhv edilməsi, bir-birinin dalınca rayonlarımızın satqıncasına verilməsi və özümüzün öz torpağımızda didərgin düşməyimiz, analarımızın, bacılarımızın, körpələrimizin, əsir düşmüş qız və gəlinlərimizin ah-naləsi belə bizi ayıltmadı.

Sanki bu bizim respublikada və bizim xalqa qarşı törədilmirdi! Bir insan ölümünü belə faciə hesab edən, Topxana meşəsində bir ağacın kəsilməsinə dözməyib respublikanı lərzəyə gətirən sanki biz deyildik!

Qanlı cinayət haqqında xəbər dərhal olmasa da, tədricən bütün dünyaya yayıldı, soyqırımın miqyası imkan vermədi ki, onun izi gizlədilsin. Azerbaycan, Rusiya, Fransa və diger dövlətlərin jurnalistlərinin mərdliyi və qorxmazlığı sayəsində hadisələrin nəticəsi olduğu kimi lentə alınmış və dünyanın əksər televiziya kanalları ilə göstərilmişdir.

Tanınmış Azərbaycan jurnalisti, Azərbaycan televiziyasının müxbiri, sonralar öz peşəkar borcunu yerinə yetirərkən cəbhədə həlak olmuş Çingiz Mustafayev gördükləri haqda belə yazmışdı: "İlk dəfə fevral ayının 28-də iki hərbi vertolyotun müşayətilə hadisə yerinə gəldik. Havadan gördük ki, böyük bir sahə insan meyitləri ilə doludur. Təyyarəçilər vertolyotu yerə endirməyə qorxurdular, çünki həmin ərazi ermənilərin nəzarəti altında idi. Buna baxmayaraq, yerə enəndən sonra biz vertolyotdan çıxdıq və bu zaman güclü atəşə məruz qaldıq. Bizimlə olan milis əməkdaşları meyitləri vertolyotlara götürməli idilər ki, onları qohumlarına versinlər. Milis əməkdaşları cəmi 4 meyit götürdülər, qalanlarını götürmək mümkün olmadı. Gördüyümüz dəhşətdən şok veziyyətinə düşmüşdük. İki nəfər isə huşunu itirmişdi.
Həmin hal mart ayının 2-də də baş vermişdi. Göstərilən tarixdə biz xarici jurnalistlərlə birlikdə hadisə yerinə gəlmişdik. O zaman meyitlər daha dəhşətli hala gətirilmişdi. Bir neçə sutka içərisində onların üzərində təhqiredici hərəkətlər edilmişdi".

**Jan-İv Yunet (jurnalist, Fransa) yazırdı:**
"Biz Xocalı faciəsinin şahidi olmuşuq. Yüzlərlə ölənlərin meyitlərini görmüşük. Onların arasında qadınlar, qocalar, uşaqlar və Xocalının müdafiəsində duran adamlar var idi. Bizim ixtiyarımıza vertolyot verilmişdi. Hündürlüyə qalxaraq havada gördüklərimizi kameraya çəkirdik, Xocalı və onun ətrafını lentə alırdıq. Bu zaman erməni hərbi birləşmələri bizim vertolyotu atəşə tutdular və biz məcburiyyət qarşısında qalıb çəkilişi yarımçıq qoyaraq geri

qayıtdıq. Mən müharibə haqqında çox eşitmişəm, alman faşistlərinin qəddarlığından oxumuşam, ancaq ermənilər dinc əhalini və 5-6 yaşlı uşaqları öldürməklə vəhşilikdə onları belə arxada qoymuşdular. Biz xəstəxanalarda, vaqonlarda, hətta uşaq baxçaları və məktəblərin otaqlarında çoxlu sayda yaralıların olduğunu görmüşük".

**V.Belıx ("İzvestiya" qəzetinin müxbiri, Rusiya) yazırdı**:
"Zaman-zaman Ağdama meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi".

**Leonid Kravets (mayor) yazırdı**:
"Fevral ayının 26-da növbəti uçuş zamanı gözümə yerdə al-qırmızı ləkələr dəydi. Surəti azaltdım, bu zaman bort-mexanik qışqırdı ki, "yerdə uşaqlar və qadınlar var." Mən artıq özüm 200–ə yaxın meyit görürdüm. Onların arasında əli silahlı adamlar gəzirdi.

Sonra biz meyitləri götürmək üçün vertolyotla həmin yerə getdik.
Bizimlə Xocalıdan olan milis kapitanı da getmişdi. O, meyitlərin arasında öz dörd yaşlı oğlunu başı əzilmiş halda görəndə havalanmışdı. Başqa bir uşağın başı kəsilmişdi. Qadınların, qocaların və uşaqların meyitləri hər yana səpələnmişdi"
Erməni hərbi birləşmələrinin yuxarıda qeyd olunan vəhşilikləri aşağıda göstərilən bir neçə xarici mətbuatda da öz əksini tapmışdır.

**Fayneyşl Tayms, 14 may 1992-ci il.** "General Pyankovun məlumatına görə 366-cı alayın 103 nəfər hərbiçisi Dağlıq Qarabağda ermənilərlə birlikdə vuruşmaq üçün qalmışlar.

**"Krasnaya zvezda" qəzetinin 11 mart 1992-ci il** tarixli nömrəsində dərc olunan "Karabax: voyna do pobednoqo kontsa" məqaləsində açıq-aydın etiraf olunur ki, 366-cı motoalayın hərbi qulluqçuları pul və xarici valyuta hesabına Xocalının işğalında ermənilərlə birlikdə iştirak etmiş və alayın hərbi texnikasını erməni separatçılarına təhvil vermişdilər.

**Valer Aktuel, 14 may 1992-ci il.** "Dağlıq Qarabağda ermənilər Suriya və Livanda "Asala" təşkilatı tərəfindən gətirilmiş ən müasir silah və vertolyotlardan istifadə etmişlər".

Əsir düşmüş Xocalı sakini Səriyyə Talıbova sonralar xatırlayırdı: "Bizi erməni qəbirstanlığına gətirdilər. Burada baş verənlərdən danışmaq mənim üçün çox çətindir...4 cavan məhsəti türkünün və 3 azərbaycanlının erməni quldurunun qəbirləri üstündə başlarını kəsdilər. Bundan sonra uşaqları valideynlərinin gözü qarşısında işgəncə ilə öldürdülər. Sonra meyitləri buldozerlə çalaya kürüdülər. Qandan doymamış bu insanabənzər vəhşilər iki milli ordu geyimində olan azər-baycanlının bıçaqla gözlərini çıxardılar..."

Bu cür yazıların siyahısını davam etdirmək mümkündür.

Dəhşətlisi odur ki, Xocalı soyqırımı barədə dünyaya car çəkmək əvəzinə, faciənin əsl həqiqətləri barədə Respublika rəhbərliyi hakimiyyəti itirmək, xalqın hiddətini qazanmaq qorxusundan əhaliyə dərhal məlumat vermədi. Müxalifət isə Xocalı soyqırımını, erməni qəsbkarlarının vəhşilikləini, terrorçuluğu ifşa etmək əvəzinə, hakimiyyət uğrunda mübarizə aprırdı. Sanki belə də olmalı idi. Başqa cür də ola bilməzdi. Belə ki, hər iki tərəfi düşündürən yalnız hakimiyyət hərisliyi idi. İqtidar xocalıların qanı bahasına yalnız öz hakimiyyətini saxlamaq, müxalifət isə hakimiyyətə gəlmək barədə düşünürdülər. Axı Xocalıda soyqırıma məruz qalanlar nə onların ata-anaları, nə bacı-qardaşları, nə də qohum-əqrəbaları idi. Bu hakimiyyət hərisliyinin acı nəticəsi isə Xocalıdan sonra Kəlbəcər, Şuşa, Laçın və digər yaşayış məntəqələrimizin işğal olunmasma gətirib çıxardı.

Bəli, Xocalı faciəsi nə Xatındır, nə də Sonqimi. Xocalı müsibəti daha dəhşətlidir. Bu nəinki bizə, bütün türk dünyasına qarşı törədilən dəhşətli soyqırımıdır.

Xocalı soyqırım XX əsrin sinəsində açılan ən dərin qanlı şırım, xalqımızın tarixinə yazılmış ən müdhiş səhifələrdən biridir.

Fikrim son illərdə bu hadisələrə barışmaz mövqe nümayiş etdirən Azerbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Azərbaycan xalqına Xocalı soyqırımın 9 illiyi ilə əlaqədar etdiyi müraciəti ilə davam etdirmək istərdim:

"Bu gün xalqımızın və bəşəriyyətin tarixində ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuş Xocalı faciəsinin qurbanlarının xatirəsini dərin hüzn və kədər hissi ilə

yad edirik. 1992-ci il feralın 26-da ən müasir silah və texnika ilə təchiz olunmuş erməni hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə yeksan etdilər. Yüzlərcə günahsız mülki əhaliyə –qadınlara, qocalara, uşaqlara amansızcasına divan tutdular. Xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı bir cinayət idi. Əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırım aktı törədilmişdir. Amma Xocalı soyqırımı bunların ən dəhşətlisi olmuşdur".

Beləliklə, cənab Prezidentin müraciətindən də göründüyü kimi, bütünlükdə Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı müsibəti erməni millətçilərinin məqsədyönlü soyqırım siyasətinin nəticəsidir. Etnik təmizləmə siyasəti aparan erməni millətçi-separatçıları zaman-zaman kütləvi qırğın törədərək, Ermənistandan sonuncu azəbaycanlını da zorakılıqla didərgin saldıqdan sonra, onlar Azərbaycan ərazisinin işğalına başladılar. Sivil dünya birliyinin bu qəddarlığın qarşısını almağa cəhd göstərməsi, ermənilərin vəhşi əməllərinə və qanlı təcavüzünə antiinsani bir akt kimi siyasi-hüquqi qiymət verməməsi, onların ərazimizin işğalı hesabına monoetnik "Böyük Ermənistan" dövləti yaratmaq niyyətlərini daha da azğınlıqla gerçəkləşdirməyə ruhlandırdı. Nəticədə, Azərbaycan Respublikasının ərazisinin 20%-i işğal olundu, bir milyondan çox qaçqın dözülməz şəraitdə yaşamaq Xocalı faciəsində iştirak edən ermənilərin və onların havadarlarının əməlləri insan hüquqlarının kobud surətdə pozulması, beynəlxalq hüquq aktlarına həyasızcasına məhəl qoyulmamasının müşayət olunması ilə bərabər, Cenevrə konvensiyası, İnsan Hüquqlarının ümumi bəyənnaməsi, Mülki və siyasi, habelə iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq faktlara, Uşaq Hüquqları Bəyənnaməsi, fövqəladə vəziyyət və hərbi münaqişələr zamanı qadın və uşaqların qorunması haqqında Bəyənnamə və digər Beynəlxalq hüquq aktlarına ziddir.

Çox təəssüflər olsun ki, bu günədək dünya ölkələri bu faciəyə düzgün münasibət bildirməmiş, soyqırım kimi tanımamış, biganəlik göstərmişlər. Çoxsaylı şahidlərin, foto və kinolentləri olan faciəni soyqırım kimi tanımamaq heç bir demokratik dövlətə baş ucalığı gətirməz. Bunu tarix də onlara bağışlamaz. Əksinə, ermənilərin heç bir sübutu olmayan uydurmalarına inanaraq, bir sıra dövlətlər qərarlar qəbul etdilər ki, guya "mədəni", "məzlum" xalqı türklər qırıblar. Bəs bu "mədəni", "məzlum xalqın Xocalıda, Dağlıq Qarabağ və onun ətrafında törətdikləri soyqırım deyildimi? Bir gecənin, bir neçə saatın içində bir şəhərin yox edilməsi, şəhərin əhalisinin qəddarcasına, xüsusi amansızlıqla məhv edilməsi – onların diri-diri yandırılması, başlarının kəsilməsi, dərisinin soyulması, gözlərinin çıxarılması soy-qırım deyildimi? Soyqırım deyilsə, bəs onda nədir?! Bizim ümdə vəzifələrimizdən biri də məhz Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırım kimi tanınmasına nail olmaqdan ibarətdir.

Təsadüfi deyil ki, Türkiyə Böyük Millət Məclisinin sədri Ötnər Izgi Azərbaycan Respublikasına rəsmi səfəri zamanı yaxın günlərdə Türkiyə Böyük Millət Məclisində ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımı ilə bağlı məsələnin müzakirə olunacağına və bu aksiyanı pisləyən müvafiq qərar qəbul ediləcəyini vurğulamışdı. Türk qardaşlarımızın atacağı bu addım digər ölkələr üçün də örnək olmalıdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Xocalı şəhərinin qəhrəman müdafiəçiləri təpədən dırnağadək müasir silahlarla silahlanmış düşmən qarşısında özlərini itirməmiş, qeyri-bərabər döyüşdə əsil qəhrəmanlıq və şücaət nümunələri göstərmişlər. Cənab prezident tərəfindən onların bir neçəsinin fəxri adlara, orden və medllara layiq görülməsi barədə müvafıq fərmanlar vermişdir. Hər il fevral ayının 26-sı Xocalı faciəsi dövlət səviyyəsində qeyd olunur.

Xocalılar çəkdikləri ağrı və iztirablara barxmayaraq, onlar gələcəyə böyük ümidlər bəsləyirlər. Əmindirlər ki, öz doğma yurdlarına qayıdacaq, ondan da gözəl Xocalı tikəcəklər. İndi isə qonaqpərvər, ürəyiaçıq Xocalı camaatı sıxıntı içindədirlər. Respublikanın 48 rayonunda məskunlaşıblar.

Cənab prezident Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll olunması üçün səy və bacarığını, təcrübəsini əsirgəmir. Bu bir nəticə verməzsə, müharibə yolu ilə biz işğal altında olan torpaqlarımızı tam azad edib öz məğrurluğumuzu bir daha sübut etməliyik.

Azərbaycan torpağı işğal altında qala bilməz! Bu bizim Vətən uğrunda şəhid olanların ruhunun, gələcək nəsillərin və tarixin qarşısında olan müqəddəs borcumuzdur. Bunun üçün isə güclü dövlət, güclü ordu və sarsılmaz vətəndaş birliyi lazımdır.

Nəhayət, hər birimiz dərk etməliyik ki, bağışlanılmayan bir cinayət varsa, o da Vətənə xəyanətdir!

**Əhməd Həsənov**
**Xocalı rayon prokuroru, kiçik ədliyyə müşaviri**
**"Azərbaycan" qəzeti, fevral 2002**

## QONDARMA "ERMƏNİ GENOSİDİ" VƏ XX ƏSRİN XOCALI FACİƏSİ

Son illərdə ermənilərin ortaya atdığı problemlərdən biri də "genosid" sözüdür. Onlar dünya ictimaiyyətinə özlərini "yazıq" və "əzabkeş" bir millet kimi tanıdır, türklər tərəfindən genosidə məruz qaldıqlarını bəyan edirlər. Bu pərdə altında da başqalarının ata-baba torpağını qoparıb "Böyük Ermənistan" yaratmağa çalışırlar.

Məlum olduğu kimi V əsrdən başlayaraq erməni tarixçiləri əsərlərində qonşu dövlətlərə qarşı (əvvəlcə Azərbaycana, sonralar isə Osmanlı dövlətinə – H.M) ərazi iddiaları sürmüş və üç dənizi əhatə edən (Qara dəniz, Aralıq dənizi və Xəzər dənizi) "Böyük Ermənistan" yaratmaq ideyasını ortaya atmışlar. Erməni millətçiləri müxtəlif tarixi dövrlərdə vəziyyətdən istifadə edərək məqsədlərini həyata keçirməyə cəhd göstərmişlər. Onlar məqsədlərinə çatmaq üçün məqam gözləmiş və fürsət düşdükcə müxtəlif vasitələrə əl atmışlar. Belə vasitələrdən biri də XX əsrin ortalarından başlayaraq böyük dövlətlərin himayəsinə sığınıb, onların əli ilə məqsədlərinə çatmaq idi. Belə məqamlardan istifadə edən ermənilər "erməni soyqırımı" məsələsini ortalığa çıxara bildilər.

"Erməni məsələsi" ilk dəfə 1878-ci ildə Avropa dövlətlərinin Berlində keçirilən konqresində irəli sürülmüşdür. Bu məsələ hazırda ümumdünya statusu aldığından ermənilərlə qonşu olan və ermənilərin əlaqə saxladığı bütün xalqlar üçün təhlükə yaradır.

Bəs, "erməni məsələsi" nə deməkdir? XIX-XX əsrlərdə Türkiyənin şərq vilayətlərində Rusiyanın vitse-konsulu olmuş V.F.Mayevski xatirələrində göstərmişdi ki, "erməni məsələsi"nin birinci mahiyyəti konkret Türkiyədə erməni qiyamı, digər mahiyyəti isə Qafqazda erməni-azərbaycanlı müharibəsidir. Ermənilər üçün bu məsələ "həyat" və "ölüm" məsələsidir.

Bəs ermənilər üçün məsələnin mahiyyəti nədir? "Böyük Ermənistan"ın əzəli torpaqlarını köçəri barbarlar (türklər nəzərdə tutulur-HM) tutmuşdular. Bu gün ədaləti bərpa etmək olar. Bunun üçün bütün dünya ictimaiyyəti səylərini birləşdirib, işğalçıları cəzalandırmalı və onları tarixi erməni torpaqlarından qovmalıdır. Həmin torpaqlar hansılardır? Qərbi Ermənistan (indiki bütün Türkiyə və Suriya), Şərqi Ermənistan (indiki Azərbaycan, Ermənistan, Gürcüstan və İranın bir hissəsi), Şimali Ermənistan (Stavropol, Krasnodar, Rostov və Voronejə qədər bütün Qafqaz).

Aparılan tədqiqatlar göstərir ki, 387-ci ildə Ermənistan Roma ilə Sasanilər arasında bölüşdürülərək dövlətçiliyini itirdikdən sonra ermənilər bütün bu illər ərzində öz dövlətini yaratmağa, müstəqillik əldə etməyə, nəinki Asiyada, həm də Avropada terrorçuluq hərəkatını genişləndirməyə, "Daşnaksütyun", "Qnçak" partiyalarının köməyi, Rusiyanın, İngiltərənin, Fransanın vasitəçiliyi ilə Türkiyədə muxtariyyət almağa cəhd göstəriblər. Bu məqsədlə ermənilər 1874-1876, 1894-1896 və 1917-ci illərdə Türkiyədə qanlı qırğınlar törətmişlər. Onlar 1905-1906, 1918-1920-ci illərdə Azərbaycanda da bu cür qırğınlara yol vermişlər.

1915-ci ildə Türkiyədə baş vermiş qondarma erməni genosidinin mahiyyəti nədir? Belə bir genosid olubmu? Birinci dünya müharibəsi başlayanda Osmanlı dövləti Almaniya

və Avstriya-Macarıstanla bir blokda idi. Bu üç dövlət Antantaya qarşı vuruşurdu. Antanta dövləti Osmanlı dövlətinə qarşı təzyiq vasitəsi kimi ermənilərdən istifadə etdilər və ermənilərə vəd verdilər ki, onlar türklərə qarşı arxada qiyam qaldırıb vuruşsalar, ermənilərə imkan yaradacaqlar ki, onlar Türkiyə-nin 7 vilayətində (Van, Diyabəkr, Bitlis, Trabzon, Sivas, Ərzuram və Xarput) muxtar erməni dövləti yaratsınlar.

Hələ 1919-cu ildə erməni generalı Andranik Fransa prezidenti R.Puankarenin qəbulunda olarkən ona bildirmişdi ki, erməni xalqı Birinci Dünya Müharibəsi illərində həm Türkiyəyə, həm də Almaniyaya qarşı Antanta ilə çiyin-çiyinə vuruşmuşdur. Rus ordusunun tərkibində 180 min, Avropa ordusunda isə 15 min könüllü erməni vuruşmuşdur.

Ermənilər Türkiyənin başının müharibəyə qarışmasından istifadə edərək arxada üsyan qaldırıb, türklərə, bütövlükdə müsəlmanlara qarşı soyqırım törətdilər. Belə vəziyyətdə Osmanlı dövləti erməni terrorunun qarşısını almaq üçün müharibə dövrünün tələblərinə uyğun olaraq erməni quldur dəstələrinə qarşı tədbirlər görməyə məcbur oldu. Bu əməliyyat 1915-ci il aprelin 24-dən başlamış və avqust ayına kimi davam etmişdir.

Ermənilər iddia edirlər ki, türklər tərəfindən 1,5 milyon erməni məhv edilmişdir. Bu rəqəm tamamilə yalandır. Belə ki, Türkiyənin 7 vilayətində 870 min erməni yaşamışdır. Bu da əhalinin beşdə birini təşkil edirdi. Həmin 7 vilayətin bəzi bölgələrində müsəlmanlar ermənilərdən üstünlük təşkil edirdilər.

Ermənilər Türkiyədə müstəqillik əldə edə bilmədikləri üçün 1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabından istifadə edərək Qafqazda erməni müxtariyyəti yaratmaq üçün indiki Ermənistanın az bir hissəsində yaşayan ermənilərə söykənərək müstəqil Ermənistan yaratmaq xəyalına düşdülər. 1905-1906, 1918-1920-ci illərdə ermənilər tərəfindən 100 minlərlə azərbaycanlı öz vətənindən qovulmuşdur. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı didərgin düşmüşdür.

1950-1960–cı illərdə də ermənilər Azərbaycan torpaqlarını tutmaq üçün cəhd göstərdilər. Lakin bu cəhdlər baş tutmadı. Yalnız 1988-1989-cu illərdə erməni millətçiləri sovet imperiyasının köməyi ilə Ermənistanda bütün azarbaycanlıları qovub çıxara bildilər. 230 min nəfər azərbaycanlı öz doğma torpaqlarını tərk etməyə məcbur oldu.

Erməni millətçiləri bununla kifayətlənməyib Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün geniş hərbi əməliyyatlara başladılar. Əlbəttə ki, bu işdə ermənilərə əvvəlki havadarları köməklik göstərirdilər. Onlar Dağlıq Qarabağı və ona bitişik 7 rayonu işğal etdilər. Ermənistanın Silahlı Qüvvələrinin həyata keçirdiyi "etnik təmizləmə" nəticəsində 20 min azərbaycanlı şəhid olmuş, 50 min nəfər yaralanmış, 4 min əsir düşmüş, 1 milyondan çox əhali öz ölkəsində qaçqına çevrilmişdir.

XX əsrin axırlarında isə Xocalı soyqırımı törədildi. Erməni faşistləri SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibinə daxil olan 366-cı alayın köməyi ilə Xocalı şəhərini hər tərəfdən müxtəlif növ silahlardan güclü atəşə tutdular. Ermənilər güclü texnika və böyük qüvvə ilə şəhəri işğal etdilər. Bundan sonra da ayrı-ayrı məhəllələrdə, evlərdə döyüşlər davam etdirilsə də, Xocalı faciəsi barədə xəbər artıq ildırım sürətilə bütün dünyaya yayıldı.

Xocalı və Naxçıvanik yaxlığında qırğınların canlı şahidlərindən biri – fransız jurnalisti Jan İv Yunet yazır: "Biz Xocalı faciəsinin şahidiyik. Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinin – qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük. Xocalı ətrafına getmək üçün bizə Bakıda vertolyot ayirdılar. Hələ qırğının baş verdiyi yerlərin üzərindən uçarkən gördüklərimizi lentə alırdıq. Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa çatdıra bilmədik.

Ancaq elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək uçün kifayət edirdi. Bu tük ürpədici mənzərə idi. Hamı kimi mən də dünyada baş vermiş müharibələr, alman faşistlərinin qəddarlığı barədə çox eşitmiş, kitablar oxumuş, kinofılmlər görmüşəm. Lakin 5-6 yaşlı uşaqlari, körpələri, hamilə qadınları vəhşiliklə öldürən etmənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər. Bu faciə zamanı 613 nəfər dinc sakin faciənin qurbanı olmuş, 8 ailə büsbütün məhv edilmşdir".

Çox təəssüf ki, ermənilər dünyaya yalandan "erməni soyqırımı" barədə hay-küy saldıqları halda xocalı soyqırımına indiyə qədər beynəlxalq aləmdə hüquqi və siyasi, mənəvi

qiymət verilməmiş, ermənilərin bu qəddar cinayəti dünya ictimaiyyəti tərəfindən pislənməmişdir. Fransa, İtaliya, Almaniya parlamentləri "erməni genosidi"ni tanımaq haqqında qərar qəbul ediblər. İndi Avropanin həmin dövlətlərinin parlamentlərindən sual olunur: Bəs nə üçün 1988-ci ildən bəri er-mənilərin Azərbaycan xalqına qarşı soyqırımına göz yumursunuz? Nə üçün həmin dövlətlərin parlamentləri Xocalı soyqırımına öz münasibətlərini bildirmirlər? Bütün bunlar Avropanın böyük dövlətləri keçmişdə olduğu kimi, indi də Türkiyə dövlətinə və Azərbaycan xalqına qarşı ermənilərin təcavüzkarlıq siyasətini dəstəkləyirlər.

**Havva Məmmədova**
**"Dəyirman" jurnalı, Hollandiya, iyul 2002**

## ERMƏNİSTAN RESPUBLİKASI. TERRORİZM - DÖVLƏT SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ (faktlar və rəqəmlər)

Ermənistan Respublikası işğal etdiyi Azerbaycan ərazisində etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirməklə yanaşı, münaqişə zonasından yüzlərlə kilometr aralıda dinc əhaliyə qarşı ardıcıl surətdə terror-təxribat aksiyaları törətmiş, nəticədə yüzlərlə adam həlak olmuş və yaralanmışdır.

Aparılmış istintaq və məhkəmə təhqiqatları zamanı Ermənistan Respublikasının xüsusi xidmət orqanları, erməni terrorçu təşkilatları və onlarla bağlı separatçı qurumlar tərəfindən törədilməsi sübuta yetirilmişdir.

Əldə olunan materiallar Ermənistan Respublikasında terrorizmin dövlət səviyyəsində dəstəklənməsinə, bü məqsədlə hərbi əsir və girovlardan üçüncü dövlətlərin vətəndaşlarından, azsaylı xalqların nümayəndələrindən geniş istifadə olunmasına dəlalət edir.

**16 sentyabr 1989-cu il** – "Tbilisi-Bakı" sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

**10 avqust 1990-cı il** – "Tbilisi-Ağdam" sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

**Arayış**: Cinayətlərin icraçıları A.Avanesyan və M. Tatovasyan həbs olünmuşlar. Müəyyən edilmişdir ki, bu terrorçu qrup tərəfindən 1991-ci il iyul ayının 17-də "Ağdam-Tbilisi" avtobusunda partlayış törədilməsi planlaşdırılmış, lakin onların həbsi buna imkan verməmişdir.

**30 may 1991-ci il** – Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş 22 nəfər yaralanmışdır.

**31 iyul 1991-ci il** – Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.\

**8 yanvar 1992-ci il** – Türkmənistandan Krasnovodsk (indiki Türkmənbaşı şəhəri) – Bakı marşrutu ilə sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsindən 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

**28 fevral 1992-ci il** – Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**2 iyun 1993-cü il** – Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonu partladılmış, dövlətə külli miqdarda maddi ziyan dəymişdir.

**Arayış:** Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovskı Bakıda həbs olunmuş və etiraf etmişdir ki, Ermənistan Respublikası Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat şöbəsinin rəisi polkovnik Jan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq terrorçuluq məqsədilə Azərbaycana göndərilmiş, böyük insan tələfatı ilə nəticələnərək partlayışlar törətmək tapşırığı almışdır. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Rusiya Federal Əks-Kəşfiyyat Xidmətinin keçirdiyi birgə tədbirlər nəticəsində Jan Ohanesyan, onun müavini mayor Aşot Qaloyan, Rusiya Federal Əks–Kəşfiyyat Xidmətinin aməkdaşı mayor Boris Simonyan 1994-cü il mayın 13-də Moskva şəhərində tutulmuşlar. İstintaq sübut etmişdir ki, həmin qrup 1991-1994-cü ilhrdə Rusiya ərazisindən Bakıya gələn dəmir yolu sərnişin qatarlarının partladılmasını təşkil etmiş, nəticsdə 47 adam həlak olmuş, 83 nəfər yaralanmışdır.

**1 fevral 1994-cü il** – Bakı dəmir yolu vağzalında "Kislavodsk-Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**9 fevral 1994-cü il** – Azərbaycanın Xudat stansiyasında ehtiyat yolda dayanan yük vaqonu partladılmış, dövlətə külli miqdarda ziyan dəymişdir.

**19 mart 1994-cü il** – Bakı metropoliteninin "20 yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır.

**Arayış:** Müəyyən edilmişdir ki, terror aksiyası Ermənistan kəşfiyyatı tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən keçirilmişdir. İstintaq və məhkəmə ilə sübuta yetirilmişdir ki, 1992-ci ilin əvvələrində Ermənistan Respublikasının xüsusi xidmət orqanları "Sadval" təşkilatı ilə gizli əlaqə yaratmış, onu maliyyəhşdirərək, Azərbaycana qarşı istiqamətləndirmişlər. 1992-ci il-də Ermənistandan Dağıstana "Sadval"ın yaraqlıları üçün vertorlyotlarla külli miqdarda silah, döyüş sürsatı, partlayıcı maddələr gətirilmiş və Azdrbaycanın şimal rayonlarında təşkilatın fəallarına paylanmışdır. 1992-1993-cü illrdə erməni kəşfiyatı tərəfindən Ermənistan Respublikasının Nairi və Arzni rayonlarında, eləcə də Dağıstan Respublikasının ərazisində gizli hərbi təlim məşq bazaları yaradılmış, bu düşərgələrdə 100-ə yaxın "sadvalçı" Ermənistandan gəlmiş təlimatçıların rəhbərliyi altında xüsusi terror-təxribat hazırlığı keçmişdir. Həmin terrorçuların 30 nəfəri Bakı metropolitenin "20 yanvar" stansiyasındakı partlayışla əlaqədar cinayət məsuliyyatinə cəlb olunmuşdur.

**13 aprel 1994–cü il** Dağıstan Respublikasının "Daqestanskie Oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**3 iyul 1994-cü il** – Bakı metropoliteninin "28 may" və "Gənclik" stansiyaları arasında elektrik qatarında partlayış törədilmiş. 14 nəfər həlak olmuş, 54 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

**Arayış:** Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, milliyətcə ləzgi Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. A.Aslanov Qarabağ uğrunda gedən döyüşlar zamanı əsir düşmüş və Ermənistan Xüsusi Xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmişdir. İstintaq və məhkəmə prosesində sübuta yetirilmişdir ki, Aslanovun terrorçu kimi hazırlanmasının "ideoloji təminatında" erməni separatçı – millətçi ekstremizminin ideoloqlarından biri pub-lisist Zori Balayanın və Dağlıq Qarabağ erməni separatçılarının lideri, hazırda Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın iştirakı olmuşdur.

1994-cü ilin may ayından qüvvədə olan atəşkəs, həmçinin Azərbaycan tərəfinin göstərdiyi təşəbbüslər faktiki surətdə eyni yaxtda münaqişə zonasında döyüş əməliyyatlarının və Azərbaycanın cəbhə xəttindən uzaq rayonlarında Ermənistan Respublikasının terrorçuluq fəaliyyətinin dayandırılmasına şərait yaratdı. Bu bir daha göstərir ki, həm birbaşa hərbi təcavüz, həm də dinc əhali və mülki obyektlərə yönəlmiş terrorçuluq Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı yeridilən vahid dövlət siyasətinin tərkib hissələridir. Erməni tərəfinin münaqişənin sülh yolu ilə nizama salınmasını süni şəkildə uzatması sübut edir ki, regionda vəziyyət gərginləşəcəyi halda Ermənistan Respublikası dinc əhaliyə qarşı terror taktikasına dövlət siyasətinin tərkib hissəsi kimi yenidən əl ata bilər.

## AZƏRBAYCAN RAYONLARININ ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞAL OLUNMASININ XRONOLOGİYASI

| | | |
|---|---|---|
| 18 sentyabr | 1988 | Xankəndi |
| 17 fevral | 1992 | Xocavənd |
| 26 fevral | l992 | Xoçalı |
| 8 may | 1992 | Şuşa |
| 18 may | 1992 | Laçın |
| 2 aprel | 1993 | Kəlbəcər |
| 7 iyun | 1993 | Ağdərə |
| 23 iyun | 1993 | Ağdam |
| 23 avqust | 1993 | Fizuli |
| 24 avqust | 1993 | Cəbrayıl |
| 31 avqust | 1993 | Qubadlı |
| 29 oktyabr | 1993 | Zəngilan |

## XOCALININ İŞĞALI ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN KƏNDLƏRİNİN ZƏBT OLUNMA XRONOLOGİYASI

30.10.91 Tuğ, Sələkətin kəndləri
12.11.91 Ahullukəndi
19:11.91. Xocavənd kəndi
15.12.91. Cəmillikəndi
21.12.91. Nəbilərkəndi
23.12.91. Meşəlikəndi
25.12.91. Həsənabad kəndi
28.12.91. Kərkicahan qəsəbəsi
21.02.92. Qaybalı kəndi, Mahbəyli,
Aşağı və Yuxarı Quşçular kəndləri
15.02.92. Qaradağlı kəndi

## XOCALI FACİƏSİ BEYNƏLXALQ CİNAYƏT OLARAQ ERMƏNİSTANIN AZƏRBAYCAN XALQINA QARŞI APARDIĞI MƏQSƏDYÖNLÜ SOYQIRIM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı ən dəhşətli cinayətlərdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın

Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində tarixdə insanlığa qarşı törədilən görünməmiş vəhşiliklərdən biridir. Bir gecənin içində yüzlərlə günahsız insan xüsusi qəddarlıqla məhv edilib. Xocalı şəhərinin işğalının faciəli nəticələri bunlardır: 613 nəfər, o cümlədən 106 nəfər qadın və 63 uşaq qətlə yetirilib, 487 nəfər şikəst olub, 1275 adam erməni əsirliyinin dəhşətlərindən keçib, 150 nəfər itkin düşüb, şəhərin özü isə yerlə-yeksən edilib. Bu faciənin nəticəsində onlarca uşaq, qadın və qoca güllələnib. Ermənistanın silahlı qüvvələri və muzdlular bütöv ailələri məhv edib, insanları amansızcasına qətlə yetirmişlər: adamların dərisi soyulub, qulaqları kəsilib və başlarının dərisi söyulub çıxarılmışdır.

## I. XOCALI SOYQIRIMIMN BEYNƏLXALQ CİNAYƏT KİMİ SƏCİYYƏSİ

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur və hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

- bu cür qrup üzvlərinin öldürülməsi;
- belə bir qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;
- hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməşi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırım cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür şayılır. Bü soyqırım cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırım cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, bilərəkdən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi əməlin soyqrım kimi tövsifi üçün kifayət deyildir. Burada cinayətkarların fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyəti ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi olaraq düzəldilmiş pusqulardan qaçıb canını qurtarmaq istəyən azəraycanlı mülki əhalinin avtomat, pulerniyot və başqa silahlardan güllənbaran edilməsi məhz soyqırım niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də danılmaz faktdır. Soyqırım cinayətini təhlil edərkən onun üç əsas ünsürünün mövcud olması aydınlaşır:

- tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
- bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (mens rea);
- tanınan qrupla bağlı soyqırım hərəkətlərindən hər hansı birinin törədilməsi (actus reus).

Deməli, soyqırım aktı hökmən milli, etnik, irqi və ya dini qrupa qarşı yönəltməlidir. Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər soyqırım kimi qiymətləndirilə bilməz.

Soyiqırım anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir. Soyqırım cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

-niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərqin şəxsiyyəti yox, məhz müəyyən qrupa mənsubluğu soyqırım qurbanlarını təyin etmək üçün həlledici meyardır;

-niyyət özü-özlüyündə, başqasından fərqlənən bir qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırım bütöv insan qrapunun mövcudluğu hüququnu tanımaqdan imtinadır.Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnun tanımaqdan imtina kimi səciyyələnir. Deməli, actuz reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əlehinə yönəlməlidir;

-niyyət, qrupun "tamamilə və ya qismən" məhv edilməsindən ibarət olmalıdır.

-niyyət məhz, milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət ölmalıdır.

Soyqırım cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb kimi qoyulmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini edən əməllərdən hər hansı birinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir.

Soyqırım cinayətinin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrupun ən müxtəlif vasitələrlə cismən məhv olunmasını bildirir.

"Barselona Traktion" işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırım aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri erqa omnes öhdəliklər adlandırmışdır. Beynəlxalq Məhkəmə soyqırım cinayətinin qarşısının almması və cəzalandırılması haqqında Konvensiyanın əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

## II. XOCALI SOYQIRIMININ BEYNƏLXALQ CİNAYƏT KİMİ TANINMASI ÜÇÜN ƏSAS VERƏN HÜQUQİ SƏNƏDLƏR

BMT Bas Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya.

Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırım cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur).

Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.4).

Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad.l). Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad.6).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (mad. 103).

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı.

## III. XOCALI SOYQIRIMININ BEYNƏLXALQ HÜQUQİ NƏTİCƏLƏRİ

Beynəlxalq hüquq soyqırım cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

Soyqırım cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür.

Soyqırım cinayətinin təkcə icraçıları deyil, soyqırım törətməyə sui-qəsd, soyqırıma birbaşa və açıq təhrikçilik, soyqırımda iştirak etmək də cinayət məsuliyyəti doğurur.

Soyqırım cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır.

Soyqırım cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir.

Soyqırım cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməyə görə rəhbər şəxs məsuliyyət daşıyır.

Soyqırım cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddətləri tətbiq edilmir.

Soyqırım cinayətinə görə qanunun retrorktiv tətbiqinə yol verilir.

Soyqırım cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir

Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırım kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır.

## IV. XOCALI FACİƏSİNİN BEYNƏLXALQ CİNAYƏT OLARAQ ERMƏNİSTANIN AZƏRBAYCAN XALQINA QARŞI APARDIĞI MƏQSƏDYÖNLÜ SOYQIRIM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ OLMASI FAKTININ DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILMASI

Azərbaycan MEA İnsan Hüquqları İnstitutunun Ekspert şurasının 19 fevral 2002-ci il tarixli iclasında qəbul edilmiş "Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistanın Azərbaycan xalqına qarşı apardığı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsidir" adlı bu sənəd Azərbaycan Respublikası Milli Məclisinə, habelə Türkiyə, Gürcüstan, Rusiya və digər dövlətlərin parlamentlərinə, BMT İnsan Hüquqları Ali Komissarlığı, Avropa Şurası Parlament Assambleyası, Avropa Şurası İnsan Hüquqları Baş Direktorluğu, ATƏT-in

Parlament Assambleyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu kimi beynəlxalq təşkilatlara, o cümlədən milli və beynəlxalq qeyri-hökumət insan hüquqları müdafiəsi təşkilatlarına, Azərbaycan diasporunu təmsil edən mərkəz və birliklərə göndəriləcəkdir.

**Azərbaycan Milli Elmlər Akademiyasının**
**İnsan Hüquqları İnstitutunun**
**analitik informasiya mərkəzi**

## DAR AĞACLARI ƏKİLMİŞ LAÇIN

10 il əvvəl bu şəhəri işğal edən ermənilər ancaq
onlara məxsus qeyri-insani vəhşiliklər törətdilər.
**R.Nadiroğlu**.

1992-ci il may ayının 18-də erməni separatçıları bizim ölkəyə qarşı işğalçılıq siyasətini davam etdirərək Azərbaycanın Laçın şəhərini işğal etdilər. Dinc əhalinin məhv edilməsi istiqamətində özlərinin insanlıq əleyhinə yürütdükləri siyasətə uyğun olaraq ermənilər Laçında da "fərqləndilər". Azərbaycanlılara qarşı olan nifrətindən doğan erməni vəhşiliyinin şahidləri arasında xarici ölkələrdən gəlmiş kütləvi-informasiya vasitələrinin nümayəndələri də vardı.

Bu mövzu ilə bağlı xarici mətbuatı araşdıran politoloq Rövşən Novruzoğlu "Röyter" agentliyinin müxbiri Vanori Bennetin yaydığı məlumatı misal gətirir: "Laçın uğrunda gedən döyüşün izləri dözülməzdir... Rəsmi Yerevanın nümayəndələri bəyan edir ki, Laçında yaşayan kürdlər özləri icazə veriblər ki, ərzaq və tibbi ləvazimatın daşınması üçün humanitar koridor kimi bu yoldan istifadə olunsun... Amma iki gün sonra Laçından keçəndə hələ də dərələrdə sahibsiz qalmış meyitləri gördüm... Yerli jurnalist Meçi dedi: "Baxmaym. Elə şeylər var ki, sizin ora baxmağınız olmaz. Və elə suallar var ki onları verməməlisiz..." (19 may 1992-ci il, Əlavə məlumat Moskva, "MQ", həmin tarix, səh. 2.)

Laçın yolu öldürülmüş, güllə ilə dəlmə-deşik edilmiş insan cəsədləri ilə dolu idi. V.Bennet həmçinin yazır ki, ona işgəncə verilərək öldürülmüş insanların cəsədlərinə baxmağa icazə vermirdilər. "Onlardan bəzilərinin başları kəsilmişdi" deyərək, bu jurnalist qadın qeyd edir və özünə söz verir ki, bir daha "Bu iyrənc qəddarlıqla dolu olan yerə gəlməyəcək".

Qəddarlıq səhnəsinin daha bir epizodu. 18 may 1992-ci ildə Laçının Qaraqışlaq kəndində (qərbi ərazi) saat 13.50 dəqiqədə 9-11 yaşlarında 8 qız uşağı güllələnmişdi. Onlardan dördü Hacılı kənd sakinləri idi. R.Novruzöğlunda olan məlumata görə V.Bennetə bu hadisəni lentə almaq müyəssər olmuşdu. Ancaq İngiltərəyə dönərkən gizli xidmət orqanları (Mİ-6) ondan bu lenti alıblar.

R.Novruzoğlunun sözlərinə görə, hələ Laçının işğalından 3 gün əvvəl 15 mayda mayor Abram Arşakyanın başçılıq etdiyi muzdlular rotası Sadınlar kəndinə hücum edir. Səhəri gün kəndin 13 sakini əsir götürülür. Əldə olan məlumatlara ğörə, onlardan bəziləri bu günə kimi erməni təhlükəsizlik xidmətinin həbsxanasında saxlanılır.

Mayın 19-da sağ qalmış əsirləri Sonasar kəndindəki əsir düşərgəsinə göndərirlər. Bu düşərgədə hər şey satılırdı. Ölüm ayağında olan azərbaycanlı əsirlərə dərmanlar verilmişdi. Burada ağ xalatlı cəllad rolunu azərbaycanli uşaqlar üzərində ağlasığmaz vəhşiliklərlə dolu təcrübələr aparan həkim-terrorist (onu başqa cür adlandırmaq olmaz) Aida Nersesovna Saakyan oynayırdı. Bu ağlını itirmiş ifritənin əlində olan uşaqlar üçün xüsusi qəbirstanlıq salınmışdı. Elə gün olurdu ki, bu qəbirstanlıqda 36 uşaq basdırılırdı. Bu haqda məlumat ilk dəfə 1992-ci il mayın 27-də diplomat Françeski Vendrell tərəfindən BMT-nin Uşaq Fonduna verilmişdir (BMT: "Uşaq Fondunun hesabat və məlumatları". 1992.X-9).

Erməni vəhşiliyinin daha bir şahidi, İran jurnalisti Səyyar Hüseyn ermənilərin Laçın kəndlərində qurduqları dar ağaclarından yazır: "Dar ağaclarının görkəmi məni dəhşətə gətirmişdi... Alxaslı kəndində bir-birinin yanında quraşdırılmış dar ağaclarından iki qadın asılmışdı... Bilmirəm, bəlkə də onlar ana-bala idilər... Ancaq bu mənzərə dünyanı riqqətə gətirə bilər, ürəyi olan hər kəsi düşünməyə vadar edər. Bir kömək əlimizi uzada bilmirdik, ancaq Allaha onlarin bağışlanması üçün dualar edirdik... İranda bu kadrları heç kəs dərc etmədi..." ("Laçın gündəliyi". "Murtuza qardaşları" nəşriyyatı. 1995-ci il. səh.52).

Qeyd edək ki, 1993-cü ildə müəyyənləşdirilmişdir ki, o asılan qadınlar Əmirova Həcər Əjdər qızı (1942-ci ildə anadan olmuş, pasport: XI-VQ, N: 469214) və Abdullayeva Rəbiyə Aslan qızı (1950-ci ildə anadan olmuş, pasport: XI-VQ , N: 312612) imişlər.

Asılmış iki azərbaycanlı qadının şəkli 1992-I993-cü illərdə "Zartunk" (Livan), "Ararat" (Türkiyə), "Araz" (İran), "Varietu" (ABŞ) mətbu orqanlarında dərc edildikdən sonra erməni terroristlərinin əclaflığı bir daha sübut olundu. Burda həmin qadınları Xankədində azərbaycanlılar tərəfindən asılmış erməni qadınları kimi qələmə verirdilər. Bundan başqa bu dəhşətli səhnəni əks etdirən videokadrlar ermenilərə bir neçə festivallarda uğur qazandırmışdı: Kaliforniyada keçirilən sə-nədli filmlər festivalında "Həvəskarların sənədli kadrları" (gümüş medal); Parisdə keçirilən eyni adlı festivalda qızıl medal almışlar.

R.Novruzoğlunun sözlərinə görə, onun apardığı tədqiqatlara əsasən ermənilərin Azərbaycan ərazisində törətdikləri vəhşilikləri sübut eden sənədlər və lentlər dövlət arxivlərində, publisistlərdə, bir çox ölkələrin – İngiltərənin, ABŞ-ın, İranın, Almaniyanın, Rusiyanın, Fransanın xüsusi xidmət orqanların arxivlərində saxlanılır. "Bu dövlətlərə rəsmi müraciət etmək lazımdır. Mənə elə gəlir ki, Dövlət Neft Fondundan həmin ölkələrdən bu materialların alınması üçün müəyyən məbləğ ayrılsa, heç bir qanun pozuntuluğuna yol verilməmiş olar. Mən tamam başqa şeyi görürəm. 16 may 2001-ci ildə biz ermənilərin Dağlıq Qarabağdakı vəhşiliklərini əks etdirən kadrlara baxa bildik. Ancaq həmin lenti almaq üçün vəsait tapmadıq. Bizim rəsmi şəxslər, nazirliklər həmin lenti almaq üçün pul ayırmaqdan imtina et-dilər. Belə hesab edirəm ki, Ermənistanın iç üzünü açmaq, onu işğalçı və terrorçu kimi tanıtmaq üçün həmin 17 dəqiqəlik lent kifayət edir"-deyə R.Novruzoğlu fikrini yekunlaşdırdı.

**Tərcümə etdi: S.Ağayev.**
**"Qarabağ" qəzeti, 4-24 iyun 2002-ci il**

## ERMƏNİLƏRİN İŞĞAL ETDİYİ ƏRAZİLƏRDƏ ETNİK TƏMİZLƏMƏ VƏ "YANDIRILMIŞ TORPAQ" SİYASƏTİ

**İqtisadiyyat**

-Azərbaycanın 20% ərazisi Ermənistan Respublikası tərəfindən işğal edilmişdir;
-İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmışdır;
-6000 sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmişdir;
-ümumi yaşayış sahəsi 9 mln mr-dən artıq olan 150 min yaşayış binası dağıdılmışdır;

-4366 sosial mədəni obyekt, eyni zamanda 695 tibb məntəqəsi 927 kitabxana 464 tarixi abidə və muzey 6 dövlət teatrı və konsert studiyası məhv edilmişdir;
-İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xəttləri tam sıradan çıxarılmışdır;
-İşğal olunmuş ərazilərdə dağıntılar nəticəsində iqtisadiyata 6 mlrd ABŞ dollarından artıq ziyan dəymişdir.

**ƏHALİ**

-Ermənistan Respublikasının Azərbaycana qarşı siliahlı təcavüzü nəticəsində 20 mindən artıq vətəndaşımız öldürülmüşdür;
-50 mindən artıq adam yaralanmış və şikəst edilmişdir;
-1 milyondan artıq adam qaçqın və məcburi köçkündür;
-münaqişə zonasında 4965 nəfərədək adam əsir düşmüşdür,
bunlardan 69 nəfəri uşaq, 320 qadın, 358 nəfəri isə qocalardır.

## ERMƏNİSTANDA VƏ DAĞLIQ QARABAĞDA SAXLANILAN AZƏRBAYCANLI ƏSİR VƏ GİROVLARA QARŞI ANTİİNSANİ MÜNASİBƏT

(Erməni tərəfindən 1949–cü il 12 avqust tarixi Cenevrə konvensiyasını pozduğunu təsdiq edən faktlar)

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyinin yaydığı press-kommunikedə göstrilirdi ki, guya qaçmağa qəsd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsir öldürülmüşdür. Azərbaycan tərəfinin tələbləri nəticəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə 23 mart 1994-cü il tarixində on azərbaycanlı hərbi əsirin meyidi Yerevandan Bakıya çatdırılmışdır.

24-25 mart 1994-cü il tarixində meyidlər laborator, məhkəmə-kimyəvi, məhkəmə-histoloji, məhkəmə-bioloji, tibbi-kriminalist müayinədən keçirilmiş və 8 əsirin çox yaxın məsafədən gicgah nahiyəsinə açılan atəş nəticəsində qətlə yetirildiyi müəyyən edilmişdir.

Cəsədlərdən üçünü baş nahiyəsində güllə dəyən bisşədə aşkar edilmiş hiss qalıqları silahın ağzının atəş zamanı başa dirəndiyini sübut edir. Digər hərbi əsirlərə isə atəş çox yaxın məsafədən, düşünülərək, məhvetmə məqsədilə açılmışdır. Meyidlərin müayinəsi zamanı onların birində qara ciyər, dalaq və ürəyin çıxarıldığı, sağ-qulaq seyvanının kəsildiyi aşkar edilmişdir. Digər iki meyiddən birinin hər iki qulağı, ikincisinin isə sağ qulağı kəsilmişdir, digərinin də sinəsi dəlib keçən güllə yarası aşkar edilmişdir.Meyidlərdən birində boğazda dərin kəsik yarası müəyyən edilmişdir. Başqa bir meyiddə isə döş qəfəsinin hər iki hissəsində bir neçə qabırğa sümüyündə çoxsaylı sınıqlar aşkar edilmişdir. Sonuncu meyiddə kəskin arıqlama (kaxeksiya) əlamatləri aşkarlanmışdır. 7-8 aprel 1994-cü il tarixdə Beynəlxalq Hüquqi və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, beynəlxalq ştatuslu məhkəmə-tibb eksperti, professor Derek Paunder həmin meyidləri təkrar müayinədən keçirmiş və ilkin ekspertizanın nəticələrini təsdiqləyərək azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir.

Erməni girovluğundan azad edilmiş Əmrəliyeva Arzu Binnət qızı ermənilərin girov götürdükləri 30 nəfərdən 19-nu, o cümlədən, onun həyat yoldaşını, anasını və bacısını, qaynatasını, qaynını, baldızını və əmisi arvadını 18 aprel 1993-cü il tarixdə güllələdiklərinin şahidi olub.

57 yaşlı keçmiş girov Hüseynov Həsən Məcid oğlu təsdıq edirki, 23 oktyabr 1993-cü il tarixdə ermənilər Horadiz-Füzuli yolunda girov götürdükləri 40 mülki şəxsin əksəriyyətini güllələmişlər.

Erməni silahlı birləşmələri Kəlbəcər rayonunu işğal edərkən 6721 Khs tezlikdə işləyən radioşəbəkədən istifadə edərək işğal əməliyyatını əlaqələndirilmiş və ona ümumi rəhbərliyi həyata keçirmişdir. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radio əks-kəşviyyat xidməti 6-7 aprel 1993-cü il tarixdə ermənlərin göstərilən tezlikdəki radio danışığını aşkar etmişdir. Radiodanışıqda Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından Kəlbəcər döyüş bölgəsindəki radiostansiyaya əsir və girov götürülmüş azərbaycanlıları həmin vaxt bölgəyə gələcək beynəlxalq təşkilatların nümayəndələrindən gizlətmək məqsədi ilə kütləvi şəkildə güllələmək və basdırmaq əmri verilir.

61-yaşlı keçmiş girov Alişanov Budaq Əli oğlu Arkadi adlı erməninin 5 azərbaycanlı əsiri Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edərək öldürdüyünün şahidi olmuşdur.

15 sentyabr 1994-cü ildə girovluğundan qayıtmış Nuhiyeva Raisə Şirin qızının məlumatına görə, girovluqda olarkən Laçın rayonunun sakini Kərimova Səmayə 2 yaşlı qızı Nurlanəyə və özünə verilən işgəncələrə dözməyərək o özünü intihar etmişdir. Nurlanə başından və bədənindən aldığı yaraların təsirindən görmə qabiliyyətini tam itirmişdir.

Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına dəhşətli işgəncələr vermiş, onun qulaqlarmı kəsmiş anası şantajlara dözməyərək dəli olmuş, qızın özünü isə 4 min rus puluna ailəsinə satmışlar.

Erməni hərbçiləri girov götürdükləri Füzuli rayonu Kürdmahmudlu kənd sakini Ağayev Mürvət Fətiş oğlunu döyərək qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar.
Mürvət Ağayev 19 avqust 1994-cü ildə girovluqdan azad edilmişdir.

Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovların şahidliyinə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25 dinc sakinini onların gözləri qarşısında güllələmişlər.

30 yaşlı İmarət Məmmədovanın ifadəsinə görə, o Kəlbəcər rayonunun işğalı zamanı iki az yaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmmədovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən, onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyidləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı və digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşla

Keçmiş girov Xudiyeva Gülsüm təsdiq edir ki, anası Afət Mirzəyevi və babası Aslan Mirzəyevi ermənilər vəhşicəsinə güllələyərkən onun nəvəsi İlyasov Babək cəmi yeddi aylıq imiş. Qəlpələr Babəkin sağ gözünü yaralamış, lakin buna baxmayaraq ermənilər onu da digər girovlarla birlikdə yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hazırda Babəkin bir gözü kordur.
1926-cı il təvəllüdlü Şevelyev Vladimir İvanoviç 22 iyul 1993-cü ildə Ağdam şəhərində girov götürülüb. Onun sözlərinə görə, ermənilərin mülki əhalini girov götürməyəcəklərinə, ruslara isə ümumiyyətlə, toxunmayacaqlarına ümid edərək Ağdamın işğalından sonra ailəsi ilə birlikdə şəhərdə qalıb. Lakin ermənilər onun gözləri qarşısında anasını, bacısını və yataq xəstəsi olan qardaşını güllələmişlər.
O, Ağdam küçələrinin birində partladılmış tankın ətrafında öldürülmüş tank heyəti ilə birlikdə, tanınmaz vəziyyətə salınmış qadın və uşaq meyidləri görmüşdür. Şevelyev Vladimir 28 aprel 1994-cü ildə erməni əsirliyindən azad edilmişdir.

20 yaşlı Atakişiyev Fərhad Rəhman oğlunun meyidinin qalıqlarının məhkəmə-tibbi ekspertizası göstərir ki, o müntəzəm döyülmələr və ağır işgəncələrin nəticəsində ölmüşdür.

Ermənilər bir çox hallarda bütöv bir ailəni girov götürmüşlər. Belə ki, 26 fevral 1992-ci ildə Xocalı şəhərinin işğalı zamanı Məmmədovlar ailəsinin 6 üzvü, o cümlədən üç qadın girov götürülmüşdür. 1993-cü ilin mart ayında girov götürülən Kəlbəcər rayonunun Kilsəli kənd sakinlərindən 15 nəfəri Quliyevlər ailəsinin üzvü idi. Həmin ilin iyul ayında isə girov götürülmüş Füzuli rayon Gorazıllı kənd sa-kinlərinin 19 nəfəri Nuriyevlər ailəsinin üzvləri idi. Girov götürülərkən onlardan böyüyünün 80, kiçiyinin isə cəmi 4 yaşı var idi.

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏSİR VƏ GİROVLARIN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ HƏYATA KEÇİRDİYİ TƏDBİRLƏR

1993-cü ilin fevral ayında İsveçrənin Montre şəhərində Qafqaz müsəlmanlarının dini lideri Allahşükür Paşazadənin bütün ermənilərin Katalikosu ikinci Vazgenlə görüşü keçirilmişdir. Həmin görüşdə imzalanmış birgə kommunikedə Azərbaycan tərəfinin

təşəbbüsü ilə digər məsələlərlə yanaşı girov götürülmüş şəxslərin təxirə salınmadan azad edilməsi məsələsi də öz əksini tapmışdır. Lakin sonradan erməni tərəfı üzərinə götürdüyü öhdəliklərdən imtina etmişdir.

9 mart 1993-cü il tarixdə Beynəlxalq Qırmızı Xaç Komitəsinin Moskva nümayəndəliyində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Namiq Abbasovanın Ermənistan Respublikası Müdafiə Nazirliyinin idarə rəisi Andranik Arşakyanla görüşü keçirilmişdir. Hər iki dövlətin Rusiyadakı səfirliklərin nümayəndələrinin də iştirak etdiyi bu görüşdə həmin ilin mart ayında Jenevrədə imzalanmaq üçün 4 sənəd layihəsinin hazırlan-ması haqqında razılıq əldə edilmişdir. Azərbaycan tərəfi on gün ərzində aşağıdakı sənədlərin layihələrini hazırlamışdır:

Girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilınəsi və girov götürməkdən imtina edilməsi;

Yaralıların və ağır xəstə olan əsirlərin dəyişdirilməsi;

Meyidlərin 48 saat ərzində dəyişdirilməsi;

Hərbi əsirlərin Cenevrə Konvensiyalarının tələblərinə uyğun saxlanılmasına riayət olunması.

Həmin sənədlər Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı nümayəndəliyinin vasitəsi ilə Ermənistana və Cenevrəyə göndərilmişdir. Sonradan erməni tərəfi siyasi tələblər irəli sürərək Cenevrəyə gəlməkdən və sənədləri imzalamaqdan imtina etmişdir.

1994-cü ilin avqust ayında BQXK-nin vasitəçiliyi ilə Azərbaycan tərəfi birtərəfli qaydada 27 erməni hərbi əsiri, o cümlədən, girovları azad etdikdən sonra Azərbaycanda bir nəfər də girov qalmamışdır.

1993-1999-cü illər ərzində aparılan danışıqlarda (əsir, itkin və girovlar problemi ilə bağlı) Ermənistan Respublikasının nümayəndələri və Dağlıq Qarabağ separatçılarının onlarda cəmi 50-60 nəfər girov və əsirin olmasını bəyan etməsinə baxmayaraq, bu günədək erməni əsirliyindən 1327 nəfər Azərbaycan vətəndaşı azad edilmişdir.

– itkin düşmüş 4965 nəfərdən 783-nün (bunlardan 18-i uşaq, 43 nəfəri qadın və 56 nəfəri qocalardır) hərbi əməliyyatların gedişində əsir və girov götürülməsini təsdiq edən sübutlar mövcuddur. Onları erməni əsirliyində kimin və vaxt, harada gördüyünü və mümkün saxlanma yerlərini təsdiq edən şahidlərin ifadələri əsasında siyasi və anketlər hazırlanmışdır. Buna baxmayaraq onların əsir düşməsi faktı er-mənilər tərəfindən danılır və onlar VQXK tərəfindən rəsmi qeydiyyata alınmamışlar. Lakin dəfələrlə Bakıya, Yerevana və Xankəndinə səfərlər etmiş, tərkibində hüquq müdafiəciləri Bernhard Klazenin (Almaniya), Svetlana Qannuşkinanın (Rusiya) və Paata Zakareişvilinin (Gürcüstan) olduğu, girov və itkinlərin axtarışı, əsirlərin azad edilməsi üzrə Beynəlxalq Axtarış Qrupu 1999-cu ildə Yerevanda olarkən həmin siyahıda adı çəkilən 6 azərbaycanlı barədə məlumat əldə etmişlər. Müəyyən olunmuşdur ki, həmin 6 hərbi əsir erməni əsirliyində olmuş, ancaq erməni tərəfi 6 ildən artıq bir dövrdə daim onları əsir götürməsi faktını inkar etmişlər.

Azərbaycan hər bir zaman Beynəlxalq müşahidəçilərə öz ərazisində mopitorinq keçirməyə şərait yaradır. Belə ki, erməni əsirlərinin Azərbaycanda axtarışı məqsədi ilə 25-29 sentyabr 1999-cu il tarixdə ATƏT nümayəndəsinin iştirakı ilə hüquq müdafıəçilərindən ibarət qrup Ermənistanın və Dağlıq Qarabağın nümayəndələri ilə birlikdə Bakı şəhərinə gəlmişlər. Erməni tərəfinin soylədiklərinin həqiqətə uyğun olmadığını sübuta yetirmək məqsədilə qrupa onların özlərinin erməni əsirlərinin saxlandığını ehtimal etdikləri yerlərə baxmaq üçün şərait yaradılmışdır.

Azərbaycan tərəfı 1999–cu ilin dekabr ayında Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə Komitəsində yeni təşəbbüslə çıxış etmiş və bir daha təsdiqləmişdir ki, əsir, girov və itkin düşmüş şəxslərə aid olan məsələlər Cenevrə Konvensiyalarının müddəaları və aşağıdakı prinsiplərə əsaslanaraq həll olunmalıdır:

Girov, əsir və itkin düşmüş şəxslərə aid olan problemlərin bir qayda olaraq humanitar problem kimi qəbul edilməsi və siyasi məqsədlər üçün istifadə olunmaması;

Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən qeydiyyata alınmış bütün hərbi əsirlərin təxirə salınmadan azad edilməsi;

İtkin düşmüş şəxslərin birgə axtarışınm təşkil edilməsi və axtarışda olanlarla bağlı daxil olmuş məlumatların təxirəsahnmadan qarşılıqlı mübadiləsi;

Əsirlərin mümkün saxlanılma yerlərinə humanitar təşkilatıların və hər hansı tərəfin nümayəndələrinin baxış keçirməsi üçün lazımi şəraitin yaradılması;

Əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə əlaqədar məsələlərin həllində BQXK, digər hüquq müdafiə təşkilatları və humanitar təşkilatlarla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi;

Əsirlikdən azad edilmiş şəxslərin müalicəsinə və reabilitasiyasına kömək məqsədi ilə, Avropa Şurasının üzvü olan dövlətlərə müraciət edilməsi.

Qeyd olunan prinsipləri Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə Komitəsi dəstəklənmiş, və bu prinsiplər Azərbaycan Respublikası Milli Məclisinin 30 dekabr 1999-cu il tarıxli bəyanatında öz əksini tapmışdır.

## XOCALI QAÇQINLARININ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATINA, AVROPA ŞURASINA VƏ AVROPA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATINA MÜRACİƏTİ

Dünyanın nüfüzlu beynəlxalq təşkilatları olan Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciət etməkdə məqsədimiz 1992-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və bu qanlı cinayətə hüquqi-siyasi qiymət verilməsidir.

Azərbaycanın tarixinə az-çox bələd olan hər bir şəxsə bəllidir ki, Qarabağın dağlıq hissəsində yerləşən və bizim eradan əvvəl 3-cü minillikdən üzü bəri mövcud olan Xocalı Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Xocalı şəhərinin ərazisində aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş eksponatlar və unikal tarixi abidələr yuxarıda qeyd olunanlara əyani sübutdur.

İrandan Azərbaycana köçmələrinin 150 illiyinə Dağlıq Qarabağda 1978-ci ildə abidə ucaltmış ermənilər tarixi Azərbaycan torpaqları hesabına xəyali "böyük Ermənistan" ideyasını reallaşdırmaq məqsədi ilə son iki əsrdə xarici havadarlarının köməyi ilə Azərbaycana qarşı ardıcıl işğalçılıq siyasətini həyata keçirmiş və zaman-zaman bu məkirli məqsədə çatmaq üçün dəhşətli terror, kütləvi qırğın, deportasiya və soyqırımı kimi bəşəri cinayətlərdən belə çəkinməmişlər.

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə Qafqazda öz tarixi etnik ərazilərində etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan milyonlarla azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, dədə-baba torpaqlarından deportasiya olunmuşdur. Nəhayət, 1988-ci ildən başlayaraq Azərbaycana qarşı əsassız ərazi iddiaları və erməni separatizmi yenidən baş qaldırmış, heç bir tarixi, siyasi, etnik əsası olmayan Dağlıq Qarabağ fıtnəkarlığına rəvac verilmişdir. 1988-1989-cu illərdə Ermənistanda öz tarixi etnik torpaqlarında yaşayan 250 mindən .artıq azərbaycanlı son nəfərinə kimi deportasiya edilmiş, bu zaman yüzlərlə dinc sakin vəhşicəsinə qətlə yetirilmişdir. Nəticədə Ermənistan ermənilərin illərlə arzusunda olduqları monorespublikaya çevrilmişdir.

Təəssüf ki, 1988-ci ildən başlayan əsassız Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan ərazilərində meydan sulayan erməni irticası və bu irticanın qurbanı olan günahsız Azərbaycan əhalisinin acı iztirabları keçmiş SSRİ rəhbərliyinin və sivil dünyanın biganə

sükutu ilə qarşılandı. Belə vəziyyətdən ruhlanan və istifadə edən ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini və bir-birinin ardınca misli görünməmiş tarixi cinayətlərini həyata keçirməyə müvəffəq oldular. Azərbaycan ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ inzibati bölgüsünə daxil olmayan 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu, bir milyondan artıq azərbaycanlı öz dədə-baba ocaqlarından vəhşicəsinə qovuldu, on minlərlə adam qətlə yetirildi, şikəst edildi, girov götürüldü. Yüzlərlə yaşayış məskəni, minlərlə ictimai-mədəni binalar, təhsil və səhiyyə müəssisələri, tarixi-mədəniyyət abidələri, məscidlər, müqəddəs sitayiş yerləri, qəbiristanlıqlar yerlə-yeksan edilərək misli görünməmiş erməni vandalizminə məruz qaldı.

Münaqişənin ilk illərində Qarabağ Kərkicahan, Meşəli, Quşçular, Qaradağlı, Ağdaban və s. kimi azərbaycanlılar yaşayan kəndlərində erməni silahlı quldurlarının törətdikləri faciələr, terror və kütləvi qırğınlar, nəhayət, Xocalı soyqırımı "məzlum və cəfakeş erməni" vicdanında əbədi qara ləkə kimi yaşayacaq tarixi cinayətlərdir.

26 fevral 1992-ci ildə isə XX əsrin ən dəhşətli faciələri hesab olunan Xatın, Xirosima, Naqasaki, Sonqimi kimi insan fəlakətləri sırasına Xocalı soyqırımı da əlavə olundu.

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus olan və o dövrdə Dağlıq Qarabağın Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə yeddi min nəfərə qədər azərbaycanlı əhalinin yaşadığı Xocalı şəhərinə 5 istiqamətdən hücum etdilər. (Hücum zamanı şəhərdə 3 minə yaxın adam qalmışdı). Həmin vaxta qədər Xocalı şəhəri artıq dörd aydan artıq idi ki, erməni silahlı birləşmələri tərəfindən tam mühasirə vəziyyətində saxlanılır, əhali tibbi xidmət və ərzaq sarıdan ciddi əziyyət çəkirdi. Şəhərdə çox sayda xəstələr, yaralılar, qocalar, qadınlar və uşaqlar var idi.

Azğınlaşmış erməni quldurları özlərinin muzdlu xarici havadarlarının köməyi ilə həmin gecə Xocalı şəhərini yerlə-yeksan etdilər. 366-cı alaya məxsus çoxsaylı ağır texnikanın köməyi ilə şəhər tamamilə dağıdıldı və yandırıldı. Əliyalın dinc mülki əhali dəhşətli qətliama məruz qaldı – uşaqlar, qadınlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi. Ermənilər XX əsrin sonlarında sivilizasiyalı bəşəriyyət üçün üz qaralığı olan növbəti tarixi cinayəti – Xocalı soyqırımını törətdilər. Bu vəhşi aksiyada məqsəd şəhərin bütün əhalisini məhv etmək idi. Ancaq sırf təsadüflər nəticəsində xeyli Xocalı sakini tarixə şahidlik etmək üçün sağ qaldı.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi növbəti genosid – Xocalı soyqırımı nəticəsində 613 nəfər məhv edildi, 1275 nəfər dinc sakin girov götürüldü. Onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil. Faciə nəticəsində 1000-dən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olmuşdur. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlanlar və qızlardır.

Bu hərbi-siyasi cinayət nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmişdir.

Təsəvvür etmək belə çətindir ki, tarixdə analoqu olmayan belə qəddarlıq və vəhşilik insan tərəfindən törədilmiş, XX əsrin sonunda, dünyanın gözü qarşısında baş vermişdir! Ancaq dünya bilib agah olmalıdır: təkcə azərbaycanlılara deyil, bütün sivil bəşəriyyətə qarşı yönəlmiş bu tarixi cinayətin müəllifi "əzabkeş və məzlum" ermənilərdir.

Artıq on ildir ki, qaçqınlıq həyatı yaşayan biz xocalılar dünyanın bütün sülhsevər xalqlarına, beynəlxalq təşkilatlara ürək ağrısı ilə, eyni zamanda böyük ümidlərlə müraciətlər edirik. Sizlərdən xahiş edirik ki, bizim başımıza gətirilən müsibətlərə, erməni hərbi təcavüzü nəticəsində mübtəla olduğumuz dərdlərə soyuq, laqeyd münasibət bəsləməyəsiniz. Biz inanmırıq ki, dünyanın çox nüfuzlu beynəlxalq təşkilatları olan BMT, AŞ və ATƏT, sülhsevər qüdrətli ölkələr sivilizasiyalı beynəlxalq aləmə qarşı meydan sulayan təcavüzkar bir dövləti – Ermənistanı haqq-ədalətə, nizam-intizama əməl etməyə məcbur edə bilməsinlər!

Biz əmin olduğumuzu bildiririk ki, dünya birliyi Ermənistan dövlətinin Azərbaycana qarşı hərbi təcavüzünü pisləyəcək, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına, bir milyondan artıq qaçqının öz doğma yurd-yuvasına qayıtmasına, Ermənistan-Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsinin tarixi-siyasi ədalət kontekstində və sülh yolu ilə həllinə kömək edəcəkdir.

11 sentyabr 2001-ci ildə ABŞ-da minlərlə günahsız insanın kütləvi qırğınına səbəb olmuş dəhşətli terror faciəsini biz xocalılılar dərin kədər hissi ilə qarşıladıq. Bu ağır bəşəri faciə bizi, nə qədər ağrılı olsa da, on il əvvələ qaytardı. Çünki on il bundan əvvəl belə bir acı müsibəti bizlər və on minlərlə azərbaycanlı qaçqın öz şəxsi taleyimizdə yaşamışıq və bu gün də çadırlarda, vaqonlarda, yeraltı qazmalar-da, zirzəmilərdə ağır qaçqınlıq həyatı yaşamaqdayıq.

Biz – Xocalı soyqırımının möcüzə nəticəsində sağ qalmış şahidləri 11 sentyabr terrorunu qətiyyətlə pisləyərək BMT-yə, AŞ-yə və ATƏT-ə, dünyanın bütün mütərəqqi ictimaiyyətinə böyük ümidlə növbəti müraciətimiz edir, Xocalı soyqırımına da hüquqi-siyasi qiymət verilməsi zərurətini sivilizasiyalı beynəlxalq aləmin bir daha nəzərinə çatdırmq.

XX əsrin ən dəhşətli müsibətlərindən birini yaşamış biz xocalılar dünya xalqlarının sülh və əmin-amanlıq uğrunda birgə mübarizəyə səsləyirik. Biz dünyanın bütün beynəlxalq təşkilatları və sülhsevər, nüfuzlu dövlətləri qarşısında həyəcan təbili çalaraq hamını yer üzündə müharibə ocaqlarının söndürülməsi üçün səfərbər olmağa, sülh və əmin-amanlıq şəraitində yaşayan, günü-gündən çiçəklənən azad, xoşbəxt insan cəmiyyəti uğrunda mübarizəyə çağırırıq!

**(Müraciət Bakı şəhərində Xocalı rayon qaçqmlarının 20 fevral 2002-ci il tarixli toplantısında qəbul olunmuşdur)**

## XOCALI SOYQIRIMININ
## ONUNCU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR
## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN
## BƏYANATI

Xocali soyqırımının 10-cu ildönümü bu günlər Azərbaycanda dərin hüzn içərisində qeyd edilir. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə dəhşətli terror hadisələrindən biri kimi daxil olmuşdur.

1992-ci il fevralın 26-da Ermənistan Respublikasının silahlı birləşmələri, Dağlıq Qarabağdakı yerli erməni yaraqlıları və keçmiş Sovet Ordusunun 366-cı motoatıcı alayı Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini büsbütün məhv edərək, insanlığa silinməz ləkə olan soyqırımı aktı törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qalmışdır. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar.

Azərbaycan Respublikasının o dövrdəki prezidenti Ayaz Mütəllibovun və digər rəhbərlərinin cinayətkar səhlənkarlığı erməni millətçilərinin bu dəhşətli faciəni törətməsinə şərait yaratmışdır. Hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi nəticəsində Xocalının müdafiəsi lazımi səviyyədə təşkil edilməmiş, şəhərin dinc əhalisinə heç bir kömək göstərilməmişdir.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) nömrəli qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş müddəalara tam uyğun gəldiyini sübut edir.

Bu kütləvi və amansız qırğın Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, ümumən insanlıq əleyhinə törədilmiş qəddar cinayət aktıdır. Erməni millətçiləri Xocalıda bu soyqırımı əməlini törədərkən doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq və məhv etmək niyyəti güdmüşlər.

Təəssüf doğuran haldır ki, dünya birliyi dövlətlər arasında sivil birgə yaşayış qaydalarının hakim olduğu XX əsrin sonlarında Ermənistan Respublikasının Azərbaycanın ərazi bütövlüyünə qəsd etməsinə, qonşu dövlətə torpaq iddialarnı həyata keçirmək üçün işğalçılıq müharibəsi və etnik təmizləmə aparmasına, Xocalı soyqırımı kimi dəhşətli cinayətlər törətməsinə biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün təsirli beynəlxalq tədbirlər görməmişdir. Qəsbkar dövlət olan Ermənistan ətrafında yaradılmış bu cəzasızlıq mühitinin nəticəsidir ki, indiyədək ölkəmizin ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyondan çox azərbaycanlı yerindən-yurdundan didərgin salınmışdır.

İşğal olunmuş torpaqların azad edilməsinə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə (822, 853, 874 və 884 nömrəli qətnamələr), Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin sənədlərinə məhəl qoymayan Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edir. Dağlıq Qarabağ ərazisində təkcə Ermənistandan deyil, digər ölkələrdən də gələn terrorçuların hazırlanması, Azərbaycan xalqına qarşı yeni cinayətlərin təşkil edilməsi üçün düşərgələr yaradıl-mışdır. Burada narkotik vasitələrin dövriyyəsindən və nəqlindən, silah alverindən əldə edilən gəlir terror məqsədləri üçün istifadə olunur. Azərbaycan xalqına və digər qonşu dövlətlərə qarşı soyqırımı və terror Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Erməni millətçiliyinin məqsədlərinə nail olmaq üçün heç bir çirkin vasitədən çəkinməyən yerli və beynəlxalq terrorçu təşkilatların bu ölkədə sərbəst fəaliyyətinə hər cür şərait yaradılmışdır.

Son yüz ildən artıq bir dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan xalqına və digər xalqlara qarşı düşmənçilik ruhunda tərbiyə edilmişdir. Bu nifrət ideologiyasının törətdiyi faciəli nəticələr tarixdən yaxşı məlumdur.

XIX əsrin sonlarından etibarən böyük dövlətlərin himayəsindən istifadə edən erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüş, iddia etdikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə Qafqazda kütləvi terror aktları və qırğınlar törədərək, yüz minlərlə günahsız azerbaycanlını qətlə yetirmişlər. 1905-1907-ci illərdə İrəvanda və Zəngəzurda (müasir Ermənistan Respublikası əra-zisində), Tiflisdə, Bakıda, Naxçıvanda, Gəncədə, Qarabağda, 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda dinc əhaliyə amansızcasına divan tutulmuşdur.

Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti Sovet hakimiyyəti illərində də davam etdirilmiş, SSRİ-nin ermənipərəst rəhbərliyinin köməyi ilə 1948-1953-cü illərdə, habelə 1988-1989-cu illərdə qısa bir vaxt içərisində Ermənistandan yarım milyona yaxın azərbaycanlı deportasiya edilmiş, yaxud qovulmuş, yüzlərlə azərbaycanlı milli mənsubiyyətinə görə öldürülmüşdür. Ermənilərin bu qanlı və avantürist siyasəti iki milyondan çox azərbaycanlının ayrı-ayrı vaxtlarda etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalması ilə nəticələnmişdir. Bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır. Erməni rnillətçiləri qarşılarına qoyduqları məqsədə nail olmuş, Ermənistanı monoetnik dövlətə çevirmişlər.

Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasəti lap əvvəldən geniş miqyaslı informasiya müharibəsi ilə müşayiət olunmuşdur. Erməni "alimlərinin" səyləri ilə bütün Qafqazın tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Qafqazda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş,

məzlum və incidilmiş erməni xalqı" obrazı yaradılmışdır. Azərbaycan xalqına qarşı düşmənçilik və soyqırımı siyasətini pərdələmək, qonşu dövlətlərə ərazi iddialarına və bunu həyata keçirmək vasitəsi kimi seçdikləri işğalçılıq müharibəsinə, erməni beynəlxalq terrorizminə haqq qazandırmaq üçün erməni millətçiləri guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmaları ortaya atmışlar. Beləliklə, əsl təcavüzkar və cinayətkar özünü təcavüzün və cinayətin qurbanı kimi qələmə verərək, beynəlxalq ictimaiyyəti çaşdırmağa səy göstərmişdir.

Nə qədər qəribə olsa da, Xocalı faciəsi kimi real soyqırımına göz yuman bəzi ölkələrin parlamentləri "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirmiş, hətta tarixi həqiqətlərə etinasızlıq göstərərək, bu barədə ədalətsiz qərarlar da qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması səylərinin Ermənistan tərəfindən indiyədək boşa çıxarılmasının səbəblərindən biri də məhz budur.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, dünya ictimaiyyəti, nəhayət, təcavüzkarı öz adı ilə çağırmalı, Ermənistan Respublikası tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, qaçqın və köçkünlərin doğma yurdlarına qaytarılmasına kömək göstərməlidir.

Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, Ermənistan Respublikasının rəhbərliyi tərəfindən təşkil olunmuş və Dağlıq Qarabağda onun köməyi ilə hakimiyyəti qanunsuz zəbt etmiş erməni millətçiləri tərəfindən Azerbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsi-pləri əsasında ədalətli həlli üçün əllərindən gələni əsirgəməsinlər.

Xocalı soyqırımı kimi dəhşətli cinayətlər cəzasız qalmamalıdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, Azərbaycan dövləti mövcud imkanların hamısından istifadə edərək, özünün ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynelxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaqdır.

**(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin**
**2002-ci il 26 fevral tarixli iclasında qəbul edilmişdir).**

## OXUCUYA

1988-ci ildən başlanmış Qarabağ münaqişəsi – Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, elan olunmamış müharibəsi davam etməkdədir. Azərbaycan torpaqları hələ də işğal altında qalmaqdadır.

Bu gün Ermənistan Gürcüstana, Türkiyəyə, Rusiyaya qarşı ərazi iddiaları ilə fitnə-fəsadlar törətməkdədir. Ermənistan terror yuvasına, terrorçuların vətəninə çevrilmişdir. Terror artıq dövlət siyasəti səviyyəsində qərarlaşmaqdadır. Öz uydurma xülyalarına çatmaq məqsədilə terroru ən münasib vasitələrdən seçmiş millətçi daşnak siyasəti Ermənistanda rəsmən dəstəklənməkdədir. 1983-cü ildə Parijin Orli aeroportunda "Türkiyə hava yolları" təyyarəsini partlatmış terrorçu Varujan Karapetyan Fransa məhkəməsinin qərarı ilə 2001-ci ildə azad edilib ölkədən sürgün edildikdən sonra Yerevan onu qəhrəman kimi qarşılamışdır. Filippinin milli təhlükəsizliyinə təhlükə törədən terrorçu, bundan əvvəl Kanada da həbsdə olmuş Xaçik Aslanyan 2002-ci ildə Yerevana sürgün edilir. Budur erməni terrorunun bugünkü təzahürləri! Bunu hamı bilməlidir! Bəsdir! Dünya özünü "məzlum", "genosid

qurbanı" kimi qələmə verən ermənilərin riyakar simalarını ay-dın görməli, "timsah göz yaşlarına" uymamalıdır.

Xocalı soyqırımı XX əsrin ən böyük faciələrindən biridir.
**BUNU HƏR KƏS BİLMƏLİDİR**: Liditse faciəsi yaşamış çex və slovak, Xatın faciəsini yad edən belorus, Babiyar faciəsini unutmayan ukraynalı, Pirçülis faciəsini nəsillərdən-nəsillərə çatdıran litvalı, Oradur faciəsini xatırlayan fransız, Sonqimi faciəsinin dəhşətlərini görmüş vyetnamlı və digər xalqların nümayəndələri,

Bir əsrdən artıq davam edən erməni millətçiliyi və terroruna qarşı birgə mübarizə aparmaq lazımdır. 11 sentyabr 2001-ci ildə ABŞ -da baş vermiş terror aktından sonra bütün dünyanın ümumi məqsəd naminə – təhlükəsiz həyat naminə birləşmiş xalqlar bu gün də ən əsas insan hüquqları – yaşamaq və təhlükəsiz yaşamaq üçün birgə səy göstərməlidirlər.

Bunu bizdən şəhid olmuş yüzlərlə xocalıların ruhları və yerlə-yeksan olmuş, tarixə dönmüş qədim Xocalı torpağı tələb edir.

Artıq Xocalı faciəsindən 11 il keçir. Ancaq nə Xocalı dərdi, nə də xocalıların naləsi yaddan çıxmır və çıxmayacaq. Bu faciə yaddaşlardan silinməyəcəkdir. Xocalı faciəsi bizim qan yaddaşımız olacaq. Gələçək nəsillərimiz o müdhiş gecəni –
**26 fevralı** unutmayacaqdır.

**QARABAĞ AZAD EDİLƏCƏK,**
**DAĞIDILMIŞ ŞƏHƏR-KƏNDLƏRİMİZ**
**YENİDƏN QURULACAQDIR!**

**BU BİZİM HAQQIMIZDIR –**
**MÜSTƏQİL AZƏRBAYCANIN**
**ƏRAZİ BÜTÖVLÜYÜ BƏRQƏRAR OLUNACAQDIR!**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

**Köçərli T.K**. Qarabağ: yalan və həqiqət. Bakı, 1998.

**Nəsibzadə N.L**. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996.

**Göyüşov R**. Qarabağın keçmişinə səyahət, Bakı, 1993.

**Taşqıran C.** Keçmişdən günümüzə Qarabağ məsələsi. Ankara, 1995.

**Aliev. İ.** Q. Naqornıy Karabax: İstoriə. Faktı. Sobıtiə. Baku 1989.

**Makkarti Dj., Makkarti K.** Törki i armənе (rukovodstvo po armənskomu voprosu). Baku, 1996.

**Şavrov N.N.** Novaə uqroza russkomu delu v Zakavkazğe:
Predstoəhaə rasprodaja Muqani inorodüam. Baku, 1990

**Salex Bey.** Armənstvo. Baku, 1994

Liddelğ S. Armәno-tatarskoe soqlaşenie o nastuplenii mira v Karabaxe (MDA.f. 894. op.10, delo 103)

## MÜNDӘRİCAT

| | |
|---|---|
| Müәllifdәn | 3 |
| Tarixi gerçәklik | 6 |
| Xocalı soyqırımı | 28 |
| Xocalı soyqırımına siyasi qiymәt | 41 |
| Xocalı şәhidlәri | 59 |
| Xocalı şahidlәri | 117 |
| Xocalı dәrdini dünyaya çatdırınlar | 133 |
| Xocalı faciәsi ayn-ayrı düşüncәlәrdә | 140 |
| Ermәnistanın dövlәt terroru siyasәti | 166 |
| Bilin vә agah olun | 186 |
| Oxucuya | 195 |

Korrektor: Müşviq Qurbanov
Çapa imzalanmışdır: 20.02.2003
Formatı: 60x84 1/16.
**Tirajı**: 500 әdәd. **Hәsmi**: 12.5 çap vәrәqi. **Sifariş**:i5.

"Qızıl Şәrq mәtbәәsi" ASC

**Havva İsa qızı Mәmmәdova**
**XOCALI: ŞӘHİDLӘR, ŞAHİDLӘR**
**(azәrbaycan dilindә)**
"Yeni nәşrlәr evi", Bakı, 2003